

Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...
Ümummilli Lider HEYDƏR ƏLİYEV

Qəzet 1929-cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti    30 aprel 2026-cı il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR

**BDU rektoru Almatıda Satbayev Universitetində keçirilən görüşlərdə iştirak edib**
→Səh.2

**Macarıstanın Azərbaycandakı səfiri və Budapeşt Texnologiya və İqtisadiyyat Universitetinin rektoru BDU-da**
→Səh.3

**Albaniyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Besart Kadia BDU-da olub**
→Səh.3

**BDU-da Aşıq Ələsgərin 205 illik yubileyinə həsr edilmiş bədii gecə**
→Səh.4

**Rumıniyanın Azərbaycandakı səfiri və Petre Andrei Universitetinin rektorunun rəhbərlik etdiyi nümayəndə heyəti BDU-da**
→Səh.6

**Azərbaycan və Türkiyənin Baş prokurorları Bakı Dövlət Universitetində mühazirə oxuyublar**
→Səh.7

**Geologiya fakültəsinin tələbələri üçün ekskursiya**
→Səh.23



**BDU rektoru II Qazaxıstan–Azərbaycan Universitetləri Rektorları Forumunda iştirak edib**
→Səh.2



**Bakı Dövlət Universiteti Qazaxıstanda keçirilən "Study in Azerbaijan" sərgisində təmsil olunur**
→Səh.2



**BDU Türkiyənin Nəcməddin Ərbakan Universiteti ilə əməkdaşlıq memorandumu imzalayıb**
→Səh.3



**BDU-nun tarixi muzeyinin yenidənqurulmadan sonra açılış mərasimi**
→Səh.4

**BDU və İslam Əməkdaşlıq Təşkilatının Əmək Mərkəzi arasında anlaşma memorandumu imzalanıb**
→Səh.5



## Şanlı qələbəmizin başlanğıcı – tarixi Aprel döyüşlərindən 10 il ötür

***Şanlı Zəfərə gedən yolun başlanğıcı olan Aprel döyüşlərindən 10 il keçir.***

Bu, sadəcə Qələbənin ilk addımı deyildi. Bu döyüşlər 30 ilə yaxın işğalla barışmayan xalqın ümidinin cücərdiyi, dövlətin öz varlığını ortaya qoymasının sübutu idi. Bu döyüşlər həm də Vətən müharibəsində Qələbənin ilk sınağı idi – Azərbaycan dövləti, xalqı, əsgəri bu sınaqdan alnıaçıq çıxdı. Artıq torpaqlarımızın hərb yolu ilə azad ediləcəyinə heç kimin şübhəsi qalmadı. Qəhrəmanlığı ilə dünyada tanınan xalqımız tarixin hər dövründə öz haqqını özü müdafiə edib. Qəhrəman oğullarının qanı, canı bahasına qələbələrini tarixə qızıl hərflərlə yazıb.

"Biz işğal edilmiş torpaqlara qayıdacağıq. Bu, bizim əsas vəzifəmizdir. Necə ki, keçən il azad edilmiş torpaqlarda bu gün bayrağımız dalğalanır, hələ də işğal altında olan bütün başqa torpaqlarımızda da Azərbaycan bayrağı qaldırılacaqdır" – Prezident, Ali Baş Komandan İlham Əliyevin 2017-ci il martın 31-i Azərbaycan Ordusunun bir qrup hərbçisi ilə görüşündə ifadə etdiyi bu fikirlər 3 il sonrakı qələbənin proqnozu idi.

1994-cü ildə razılaşdırılmış atəşkəs rejimindən sonra Azərbaycan qoşunlarının təmas xəttində baş vermiş ən böyük hərbi qarşıdurma sayılan Aprel döyüşləri hələ o dövrdə qondarma rejimin "keçilməz" adlandırdığı istehkamları bir gün içində darmadağın etdi. 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə və gün ərzində Azərbaycan mövqelərinin və yaşayış məntəqələrinin Ermənistan silahlı qüvvələri tərəfindən güclü artilleriya atəşinə məruz qalmasının qarşılığında Azərbaycan Ordusunun bölmələri əks-həmlə ilə təxribatların qarşısını aldı.

Ordumuzun qələbəsi ilə nəticələnən döyüşlərdə Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi və Tərtər rayonunun Madagiz kəndi istiqamətində bəzi mövqelər düşməndən azad olundu. Aprelin 4-ü isə döyüşçülərimizin şücaəti ilə Ağdərə-Tərtər və Xocavənd-Füzuli istiqamətlərində mövqelərimizə qarşı yenidən cəhd edilən təxribatın qarşısı uğurla alındı.

Aprel ayının 4 günü ərzində bölmələrimiz tərəfindən yerinə yetirilən adekvat cavab tədbirləri nəticəsində düşmən ağır məğlubiyyətə uğradı, Ermənistan silahlı birləşmələrinin işğalı altında olan Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının 2 min hektardan çox hissəsi azad edildi, həmçinin minlərlə hektar strateji əhəmiyyətli ərazi Ordumuzun tam nəzarətinə keçdi.

Bu tarixi döyüşlərin məntiqi davamı isə nəyi, necə və nə vaxt etməyi uzaqgörən siyasəti ilə müəyyənləşdirən Müzəffər Ali Baş Komandan İlham Əliyevin 27 sentyabr 2020-ci ildə Ermənistan silahlı qüvvələrinin bütün cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara, Azərbaycan Ordusunun mövqelərinə və mülki yaşayış məntəqələrimizə endirdiyi atəş zərbələrinə cavab olaraq əks-hücum əməliyyatına - Vətən müharibəsinə başlaması əmrini verməsi oldu. 44 gün ərzində Azərbaycan 30 illik işğala son qoyaraq ərazi bütövlüyünü, 2023-cü ilin sentyabrında keçirilən 23 saatlıq uğurlu antiterror əməliyyatları nəticəsində isə suverenliyini bərpa etdi.

*(ardı 10-cu səhifədə)*

## BDU-da "Professor Nəsir İmanquliyev dərsləri" layihəsinin açılış mərasimi

→Səh.14

# BDU rektoru II Qazaxıstan–Azərbaycan Universitetləri Rektorları Forumunda iştirak edib

*Aprelin 6-da Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev Almatı şəhərində keçirilən II Qazaxıstan–Azərbaycan Universitetləri Rektorları Forumunda iştirak edib. Forumun açılışında Qazaxıstan Respublikasının elm və ali təhsil naziri Sayasat Nurbek və Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev çıxış edərək ali təhsil sahəsində əməkdaşlığın inkişaf perspektivlərinə dair fikirlərini bölüşüblər.*

Elçin Babayev Forumda çıxışında qeyd edib ki, müasir dövrdə təhsil və elm davamlı inkişafın əsas amillərindən biridir və bu sahədə beynəlxalq əməkdaşlıq xüsusi əhəmiyyət daşıyır. O bildirib ki, rəqəmsal transformasiya, süni intellekt, yaşıl texnologiyalar kimi istiqamətlər universitetlərarası əməkdaşlığın yeni məzmununu formalaşdırır.



Rektor çıxışında Bakı Dövlət Universiteti ilə Qazaxıstanın aparıcı universitetləri arasında artıq formalaşmış əməkdaşlığa da toxunub. Qeyd olunub ki, bu əməkdaşlıq yalnız tələbə mübadiləsi ilə məhdudlaşmır, eyni zamanda birgə tədqiqat layihələri, ikili diplom proqramları və innovasiya platformalarını da əhatə edir.

Elçin Babayev, həmçinin əməkdaşlığın gələcək inkişaf istiqamətləri kimi birgə elmi-tədqiqat mərkəzlərinin yaradılması, doktorantura səviyyəsində birgə rəhbərlik mexanizmlərinin tətbiqi, eləcə də gənc alimlər üçün ortaq platformaların formalaşdırılmasını qeyd edib. O, Bakı Dövlət Universitetinin bu istiqamətdə Qazaxıstandakı tərəfdaşları ilə daha sıx işləməyə hazır olduğunu bildirib.

Forum çərçivəsində universitetlər arasında əməkdaşlıq sənədlərinin imzalanması mərasimi keçirilib. BDU bu prosesdə iştirak edərək Qazaxıstanın aparıcı ali təhsil müəssisələri – Qazax Milli Qadın Pedaqoji Universiteti və Ablay xan adına Qazaxıstan Beynəlxalq Münasibətlər və Dünya Dilləri Universiteti ilə anlaşma memorandumları (MoU), həmçinin Abay adına Qazax Milli Pedaqoji Universiteti və Atırau Neft və Qaz Universiteti ilə ikili diplom proqramlarının həyata keçirilməsini nəzərdə tutan niyyət protokolları (Letter of Intent) imzalayıb. İmzalanan sənədlər əsasən ikili diplom proqramlarının təşkili, birgə elmi fəaliyyət və akademik mübadilənin genişləndirilməsini əhatə edir.

# BDU nümayəndə heyəti “Study in Azerbaijan” sərgisinin açılış mərasimində iştirak edib




*Aprelin 6-da BDU-nun rektoru Elçin Babayevin rəhbərlik etdiyi nümayəndə heyəti 6 aprel 2026-cı il tarixində Qazaxıstan Respublikasının Almatı şəhərində keçirilən “Study in Azerbaijan” təhsil sərgisinin açılış mərasimində iştirak edib.*

Açılış mərasimində Qazaxıstan Respublikasının elm və ali təhsil naziri Sayasat Nurbek və Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev çıxış ediblər, daha sonra sərginin rəsmi açılışı həyata keçirilib. Tədbirin sonunda “Study in Azerbaijan”ın fəaliyyətinə həsr olunmuş tanıtım videosu nümayiş etdirilib, xatirə fotosu çəkilib.

“Study in Azerbaijan” sərgisi Azərbaycanın ali təhsil imkanlarının təqdim edilməsi, xarici tələbələr üçün mövcud təhsil və təqaüd imkanlarının izah olunması, həmçinin universitetlər arasında birbaşa əlaqələrin qurulması məqsədilə təşkil olunub. Tədbirdə müxtəlif ali təhsil müəssisələri öz proqramları, qəbul qaydaları və təhsil imkanları barədə məlumat təqdim edirlər.

# Bakı Dövlət Universiteti Qazaxıstanda keçirilən “Study in Azerbaijan” sərgisində təmsil olunur

*Aprelin 7-də BDU Qazaxıstanın Almatı şəhərində keçirilən “Study in Azerbaijan” təhsil sərgisində geniş formatda təmsil olunur. Universitet sərgidə xüsusi stendlə iştirak edərək öz təhsil proqramlarını, elmi fəaliyyət istiqamətlərini və beynəlxalq əməkdaşlıq imkanlarını ziyarətçilərə təqdim edir.*

BDU nümayəndə heyəti sərgi iştirakçılarına bakalavriat, magistratura və doktorantura səviyyələri üzrə ixtisaslar, qəbul qaydaları, təhsil haqları və mövcud təqaüd proqramları haqqında ətraflı məlumat verir. Bununla yanaşı, Universitetdə mövcud olan müasir tədris infrastrukturu, laboratoriyalar, tədqiqat imkanları və tələbə həyatı ilə bağlı məlumatlar da təqdim olunur.

Xüsusilə xarici tələbələr üçün yaradılmış şərait – beynəlxalq proqramlar, mübadilə imkanları, ingilisdilli ixtisaslar və akademik dəstək mexanizmləri ziyarətçilərin diqqətinə çatdırılır. BDU nümayəndələri hər bir müraciət edən şəxslə fərdi qaydada ünsiyyət quraraq onların maraq və seçimlərinə uyğun istiqamətlər üzrə izahatlar verir.



Sərgidə Universitetin stendinə böyük maraq müşahidə olunur. Abituriyentlər və digər iştirakçılar BDU-da təhsil alma imkanları ilə bağlı suallar ünvanlayır, qəbul prosedurları və gələcək karyera perspektivləri barədə məlumat alırlar. Nümayəndə heyəti tərəfindən əlaqələrin davam etdirilməsi üçün müvafiq məlumat mübadiləsi də aparılır.

BDU-nun sərgidə iştirakı Universitetin beynəlxalq səviyyədə tanıdılmasına, yeni tərəfdaşlıqların qurulmasına və xarici tələbələrin cəlb olunmasına xidmət edir.

# BDU rektoru Almatıda Satbayev Universitetində keçirilən görüşlərdə iştirak edib

*Aprelin 8-də BDU-nun rektoru Elçin Babayev Qazaxıstanın Almatı şəhərinə səfəri çərçivəsində Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayevin rəhbərlik etdiyi nümayəndə heyətinin tərkibində Satbayev adına Qazax Milli Tədqiqat Texniki Universitetində keçirilən görüşlərdə iştirak edib.*

Görüşlər zamanı ali təhsil və elmi tədqiqat sahələrində əməkdaşlıq imkanları müzakirə olunub. Xüsusilə mühəndislik, texnologiya, tətbiqi elmlər və innovasiya istiqamətlərində birgə layihələrin həyata keçirilməsi, akademik mobillik proqramlarının genişləndirilməsi və ikili diplom imkanları ətrafında fikir mübadiləsi aparılıb.

Eyni zamanda universitetlər arasında birgə tədqiqat təşəbbüslərinin irəli sürülməsi, elmi mərkəzlər və laboratoriyalar arasında əməkdaşlığın qurulması, eləcə də müəllim və tədqiqatçıların qarşılıqlı səfərlərinin təşkili məsələləri müzakirə edilib.

Səfər çərçivəsində universitetin maddi-texniki bazası, tədris və tədqiqat infrastrukturu ilə tanışlıq baş tutub.

Görüş Bakı Dövlət Universiteti ilə Satbayev Universiteti arasında davam edən əməkdaşlığın genişləndirilməsi üçün imkanların qiymətləndirilməsi baxımından əhəmiyyətli hesab olunur.

# BDU və Özbəkistanın Geoloji Elmlər Universiteti arasında anlaşma memorandumu imzalanıb

*Aprelin 13-də BDU və Özbəkistan Respublikasının Geoloji Elmlər Universiteti arasında anlaşma memorandumu imzalanıb.*

Sənədi BDU-nun rektoru Elçin Babayev və Geoloji Elmlər Universitetinin rektoru Azam Kadırhodjaev imzalayıb. Memorandumda hər iki universitetin nəzdində olan fakültə, institut və kolleclərdə təlim-tədris prosesinin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə birgə layihələrin, konfrans, sərgi, seminar, simpozium, qısamüddətli kursların, təlimlərin keçirilməsi, ortaq elmi-tədqiqatların aparılması nəzərdə tutulur. Həmçinin elmi jurnallarda birgə nəşrlər, ortaq akademik proqramların, tədris planları və sillabusların hazırlanması, təlimlərin keçirilməsi, akademik, inzibati heyətin, tələbə, magistrant, doktorant və tədqiqatçıların mübadiləsi kimi məsələlər də memorandumda öz əksini tapıb.

Əsası 2020-ci ildə qoyulmuş Geoloji Elmlər Universiteti Özbəkistanın nüfuzlu universitetlərindən biridir.

# Türkiyə Böyük Milli Məclisinin deputatı Sərkan Bayram BDU tələbələri ilə görüşüb

***Aprelin 14-də Türkiyə Böyük Millət Məslisinin deputatı Sərkan Bayramın BDU-nun tələbələri ilə görüşü keçirilib. Türkiyənin Ədalət və İnkişaf Partiyasının İstanbuldan deputatı olmaqla yanaşı, tanınmış hüquqşünas, vəkil, BMT-nin sülh elçisi olan Sərkan Bayram tələbələrlə bütün sağlamlıq imkanları məhdud şəxslərə ümid ola biləcək həyat və uğur hekayəsini bölüşüb.***



BDU rektoru Elçin Babayev uşaq yaşlarından həyatın çətinlikləri ilə mübarizə aparan və bu mübarizədən qalib çıxan Sərkan Bayramın hekayəsinin gənclər üçün çox ibrətamiz olduğunu vurğulayıb. O, sağlamlıq imkanları məhdud şəxslərə və inklüziv təhsilə Bakı Dövlət Universitetində də xüsusi diqqət göstərildiyini diqqətə çatdırıb. Belə görüşlərin gənc nəslin mənəvi keyfiyyətlərini təkmilləşdirdiyini, onlara əzmkarlıq, empatiya, həssaslıq, xəyallardan vaz keçməməyi aşıladığını bildirib.

Sonra söz qonağa verilib. Sərkan Bayram tələbələri öz həyat hekayəsi əsasında qələmə aldığı "Buğda dənəsi" kitabı və onun missiyası ilə tanış edib. Hələ körpə ikən buğda tarlasında baş verən yanğında əllərini itirən Sərkan Bayram səbrlə həyat mübarizəsi apardığını, heç vaxt ümidini itirmədiyini, bu qətiyyətin minlərlə insanı yaşamağa ruhlandırdığını qeyd edib: "Biz yıxılanda deyil, təslim olanda itiririk. Ona görə əllərimlə tuta bilmədiyimi ürəyimlə tutdum və heç vaxt buraxmadım. "Buğda dənəsi" ümidə gedən yolçuluqdur və tək mənim deyil, milyonların səsi, milyonların hekayəsidir".

O, öz həyat hekayəsinin sağlamlıq imkanları məhdud insanlara vaz keçməməyi, qətiyyətlə mübarizə aparmağı və uğur qazanmağı öyrətdiyini deyib. Cəmiyyətdə sevginin, empatiyanın, anlayışın yayılmasına töhfə verən belə addımların gənclər arasında da təbliğinin əhəmiyyətli olduğunu vurğulayıb.

Sonda qonaq BDU tələbələrinin suallarını cavablandırıb.

# BDU Türkiyənin Nəcməddin Ərbakan Universiteti ilə əməkdaşlıq memorandumu imzalayıb

***Aprelin 13-də BDU və Türkiyə Respublikasının Nəcməddin Ərbakan Universiteti arasında əməkdaşlıq memorandumu imzalanıb.***



Memorandumu BDU-nun rektoru Elçin Babayev və Nəcməddin Ərbakan Universitetinin rektoru Cem Zorlu imzalayıblar.

İmzalanma mərasimində çıxış edən rektor Elçin Babayev qonağa BDU-nun tədris, elmi fəaliyyəti, beynəlxalq əlaqələri barədə məlumat verib. O, Nəcməddin Ərbakan Universiteti ilə magistratura və doktorantura səviyyələrində xüsusilə beynəlxalq münasibətlər, psixologiya və riyaziyyat istiqamətləri üzrə geniş əməkdaşlıq imkanlarının olduğunu diqqətə çatdırıb. Rektor qeyd edib ki, hər iki universitet bu sahələr və digər uyğun istiqamətlər üzrə ikili diplom proqramları hazırlaya, birgə elmi tədqiqatlar apara, ortaq layihələr, müəllim-tələbə mübadiləsi həyata keçirə bilər.

Nəcməddin Ərbakan Universitetinin rektoru Cem Zorlu BDU ilə uğurlu əməkdaşlığın Azərbaycan və Türkiyənin elmi inkişafında, beynəlxalq səviyyədə rəqabətədavamlı mütəxəssislər yetişdirilməsində mühüm önəm daşıdığını deyib.

Qeyd edək ki, memorandum çərçivəsində birgə layihələrin, ortaq beynəlxalq elmi seminar və konfransların keçirilməsi, tələbə və müəllim mübadiləsi proqramlarının təşkili nəzərdə tutulur. Bundan əlavə, memorandum universitetlərin tədris, tədqiqat və beynəlmiləlləşmə istiqamətlərində təcrübələrinin bölüşdürülməsi üçün yeni imkanlar yaradacaq.

# BDU ilə Özbəkistanın İnnovasiya Texnologiyaları Universiteti arasında anlaşma memorandumu imzalanıb

***Aprelin 30-da Bakı Dövlət Universiteti və Özbəkistanın İnnovasiya Texnologiyaları Universiteti arasında anlaşma memorandumu imzalanıb.***

Sənədi BDU-nun rektoru Elçin Babayev və Özbəkistanın İnnovasiya Texnologiyaları Universitetinin rektoru Anvar Azamov imzalayıblar.

Memorandumda hər iki universitetin nəzdində fəaliyyət göstərən fakültə, institut və kolleclərdə təlim-tədris prosesinin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə birgə layihələrin, konfrans, sərgi, seminar, simpozium, qısamüddətli kurs və təlimlərin təşkili, ortaq elmi-tədqiqatların aparılması nəzərdə tutulur.

Sənəddə elmi jurnallarda birgə nəşrlərin hazırlanması, ortaq akademik proqramların, tədris planları və sillabusların işlənməsi, akademik və inzibati heyətin, tələbə, magistrant, doktorant və tədqiqatçıların mübadiləsi kimi məsələlər də öz əksini tapıb.

Qeyd edək ki, əsası 2022-ci ildə qoyulmuş Özbəkistanın İnnovasiya Texnologiyaları Universiteti ölkənin nüfuzlu ali təhsil müəssisələrindən biri hesab olunur.

# Macarıstanın Azərbaycandakı səfiri və Budapeşt Texnologiya və İqtisadiyyat Universitetinin rektoru BDU-da

***Aprelin 14-də Macarıstan Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Tamaş Yojef Torma və Budapeşt Texnologiya və İqtisadiyyat Universitetinin rektoru Hassan Charafın rəhbərlik etdiyi nümayəndə heyəti BDU-da olub.***

Qonaqları salamlayan rektor Elçin Babayev Azərbaycanın Macarıstanla dostluq münasibətlərinin təhsil, elm və mədəniyyət sahələrində də uğurla inkişaf etdiyini vurğulayıb. O, BDU-nun Macarıstanın ali təhsil müəssisələri ilə əməkdaşlıqda, memorandumların imzalanması, ikili diplom proqramlarının hazırlanmasınında maraqlı olduğunu qeyd edib. Rektor Budapeşt Texnologiya və İqtisadiyyat Universiteti ilə iqtisadiyyat, mühəndislik, riyaziyyat, süni intellekt, kibertəhlükəsizlik kimi sahələr üzrə geniş əməkdaşlıq və birgə tədqiqat aparmaq imkanlarının olduğunu diqqətə çatdırıb.

Budapeşt Texnologiya və İqtisadiyyat Universitetinin rektoru Hassan Charaf da BDU ilə akademik əməkdaşlığın qurulmasının önəmini vurğulayıb, bunun hər iki universitet üçün geniş perspektivlər aça biləcəyini qeyd edib.

Görüşdə BDU ilə Budapeşt Texnologiya və İqtisadiyyat Universiteti arasında elm və təhsil sahəsində əməkdaşlığın genişləndirilməsi, tələbə və müəllim mübadiləsi, birgə elmi tədqiqatların aparılması, ortaq konfransların təşkili və bir sıra ixtisaslar üzrə ikili diplom proqramlarının həyata keçirilməsi imkanları müzakirə olunub. Sonda BDU ilə Budapeşt Texnologiya və İqtisadiyyat Universiteti arasında əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb.

# Albaniyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Besart Kadia BDU-da olub

***Aprelin 29-da BDU ilə Albaniyanın ali təhsil müəssisələri arasında əməkdaşlığın inkişafı istiqamətində mühüm görüş keçirilib. Albaniyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Besart Kadia BDU-da rəsmi səfərdə olub. Səfər çərçivəsində qonaq BDU-nun rəhbərliyi ilə görüşüb, universitetin tədris və elmi-tədqiqat fəaliyyəti, beynəlxalq reytinqlərdə mövqeyi, eləcə də son illərdə həyata keçirilən beynəlmiləlləşmə strategiyası barədə məlumatlandırılıb.***

BDU-nun rektoru Elçin Babayev Albaniya universitetləri ilə əməkdaşlığın qurulmasının universitetin beynəlxalq əlaqələrinin genişləndirilməsi və elmi potensialının gücləndirilməsi baxımından mühüm əhəmiyyət daşıdığını qeyd edib. Həmçinin humanitar, sosial və təbiət elmləri, eləcə də mühəndislik sahələrində birgə layihələrin həyata keçirilməsi üçün geniş perspektivlərin olduğu vurğulanıb.

Səfir Besart Kadia Albaniyanın Azərbaycanla elm və təhsil sahəsində əlaqələrin inkişafına xüsusi önəm verdiyini bildirib. O, BDU ilə Albaniya universitetləri arasında birbaşa əməkdaşlıq mexanizmlərinin formalaşdırılmasının hər iki ölkənin akademik icması və gəncləri üçün yeni imkanlar yaradacağını qeyd edib.

Görüş zamanı tərəflər Azərbaycan və Albaniya ali təhsil müəssisələri arasında əməkdaşlıq perspektivlərini müzakirə ediblər. Xüsusilə tələbə və müəllim mübadiləsi, ikili diplom proqramlarının yaradılması, elmi-tədqiqat layihələrinin həyata keçirilməsi və beynəlxalq akademik tədbirlərdə birgə iştirak imkanları diqqət mərkəzində olub. Tərəflər yaxın gələcəkdə konkret əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsi və akademik proqramların hazırlanması məqsədilə işçi əlaqələrinin qurulması barədə razılığa gəliblər.

# BDU-da “Heydər Əliyev mühazirələri” layihəsi çərçivəsində AQUPDK-nın sədri Bahar Muradova ilə görüş

***Aprelin 17-də BDU-nun və Yeni Azərbaycan Partiyası (YAP) Yasamal rayon təşkilatının birgə təşkilatçılığı ilə “Heydər Əliyev mühazirələri” layihəsi çərçivəsində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri, YAP İdarə Heyətinin üzvü Bahar Muradova ilə görüş keçirilib.***

BDU-nun beynəlxalq əlaqələr üzrə prorektoru Şahin Pənahov bildirib ki, “Heydər Əliyev mühazirələri” layihəsi gənclərin dövlətçilik təfəkkürünün formalaşmasında mühüm rol oynayır. Bu mühazirələr Ulu Öndərin zəngin siyasi irsinin, azərbaycançılıq ideologiyasının və müasir müstəqil dövlət quruculuğu konsepsiyasının elmi əsaslarla təbliğini təmin edir. Eyni zamanda, YAP Yasamal rayon təşkilatı ilə BDU-nun əməkdaşlığı çərçivəsində təşkil olunan bu platforma sağlam və intellektual müzakirə mühitinin inkişafına xidmət edir.



YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev qeyd edib ki, bütün həyatını xalqına həsr edən Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqının və dövlətinin taleyüklü problemlərini həll edən dahi tarixi şəxsiyyət olmaqla yanaşı, həm də tarixi yaradan şəxsiyyətdir: “Xalqımız həm də ona görə xoşbəxtdir ki, Ümummilli Lider Heydər Əliyevin ideyaları, müəyyənləşdirdiyi siyasi xətt, dövlətçiliyimizin hərtərəfli inkişaf konsepsiyası onun layiqli davamçısı, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir".

Geniş məruzə ilə çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri, YAP İdarə Heyətinin üzvü Bahar Muradova qeyd edib ki, hər bir xalq öz tarixi şəxsiyyətləri ilə fəxr edir, onların yaratdığı irsə böyük ehtiramla yanaşır. Azərbaycanda dövlətçilik ənənələrinin zənginləşdirilməsi, ölkəmizin müstəqilliyinin möhkəmləndirilməsi, dinamik iqtisadi inkişaf yolu ilə inamla irəliləməsi, beynəlxalq nüfuzunun sürətlə artması məhz Ulu Öndər Heydər Əliyevin yorulmaz, səmərəli fəaliyyəti sayəsində mümkün olub. Azərbaycan xalqı da hər zaman müasir dövlətimizin memarı və qurucusu, xalqının və ölkəsinin müstəqilliyi, inkişafı naminə böyük və əvəzedilməz işlər görmüş, bununla bağlı tarixi proseslərə təsir göstərmiş dahi şəxsiyyət, Ulu Öndər Heydər Əliyevi qürur hissi ilə xatırlayır.

Komitə sədri ailə dəyərlərinin qorunması sahəsində görülən işlər və layihələrdən də söz açıb: “Dövlət Komitəsi öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən digər icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərərək vahid dövlət siyasətinin formalaşdırılmasında iştirak edir və bu siyasətin həyata keçirilməsini təmin edir. Ötən il BDU ilə imzalanan birgə memorandum da fəaliyyətimizdə həm sosial, həm də elmi məqsədlərin reallaşdırılmasına xidmət edir”.

Sonra tələbələrin sualları cavablandırılıb.

# BDU-da Aşıq Ələsgərin 205 illik yubileyinə həsr edilmiş bədii gecə

***Aprelin 17-də Bakı Dövlət Universitetində “BDU könüllüləri” təşkilatı və “Dədə Ələsgər Ocağı” İctimai Birliyinin birgə təşəbbüsü ilə “Dədə Ələsgər yaradıcılığı: 205 il” adlı bədii gecə keçirilib.***

BDU-nun rektoru Elçin Babayev görkəmli söz ustadlarının yaradıcılığına həsr olunmuş belə tədbirlərin tələbələrin mənəvi dünyalarının zənginləşməsi və bədii zövqlərinin formalaşmasında xüsusi rol oynadığını qeyd edərək, Aşıq Ələsgər yaradıcılığının xalqımızın ədəbi xəzinəsinin əvəzsiz parçası olduğunu deyib.



BDU-nun İnformasiya və sənəd menecmenti fakültəsinin dekanı Ələmdar Bayramov xalqımızın milli-mənəvi dəyərlərində aşıq yaradıcılığının xüsusi yer tutduğunu və buna dövlət səviyyəsində xüsusi diqqətin, qayğının olduğunu qeyd edib: “Hələ keçmiş sovetlər dönəmində bu ənənənin əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulub. 1971-ci ildə Ulu Öndərin təşəbbüsü ilə Aşıq Ələsgərin 150 illik yubileyi Azərbaycanda və keçmiş ittifaq miqyasında qeyd edilib, bu yubiley münasibətilə Qərbi Azərbaycanın Ağkilsə kəndində onun abidəsi ucaldılıb. Xalqımız deportasiyanın üçüncü dalğasına məruz qalanda erməni vandalları onun abidəsini dağıdıblar. 2021-ci ildə Prezident İlham Əliyev tərəfindən Aşıq Ələsgərin adının əbədiləşdirilməsi üçün iki Sərəncam imzalanıb. Onlardan biri Aşıq Ələsgərin 200 illik yubileyinin dövlət səviyyəsində qeyd edilməsi, digəri Bakının mərkəzində onun abidəsinin ucaldılması ilə bağlı idi. İki il öncə Prezident İlham Əliyevin Aşıq Ələsgərin Bakıda ucaldılan abidəsinin açılış mərasimində iştirakı və “Gün gələcək biz Aşıq Ələsgərin ermənilər tərəfindən dağıdılmış abidəsini bərpa edəcəyik və Ağkilsə kəndində buna oxşar mərasim keçirəcəyik” fikirlərini ifadə etməsi uzaqgörən, qətiyyətli və güclü siyasətimizin xəritəsinə çevrilib. Həqiqətən də Dədə Ələsgərin misralarının Qərbi Azərbaycanın səmalarına yayılacağı gün uzaqda deyil”.

“Dədə Ələsgər Ocağı” İctimai Birliyinin sədri Xətai Ələsgərli çıxışında BDU kollektivinə təşəkkürünü bildirib, aşığın saz və söz sənətimizin ustadı olduğunu bildirib. Aşıq Ələsgərin söz sənətinin Nizami, Füzuli, Nəsimi, Vaqif kimi ustad sənətkarlarla birgə yer tutduğunu deyən Xətai Ələsgərli onun şeirlərinin dövrün güzgüsünə çevrilərək həqiqətə işıq saldığını vurğulayıb.

Tibb elmləri doktoru, professor İbadulla Ağayev və Azərbaycan Yazıçılar Birliyinin Quba bölməsinin sədri, şair-publisist Ramiz Qusarçaylı çıxışlarında aşığın yaradıcılığından müxtəlif misraları səsləndirib, həyatına dair maraqlı faktları tələbələrlə bölüşüblər.

Tədbirin bədii hissəsində tanınmış aşıqların ifasında “Divani”, “Ruhani”, “Dilqəmi”, “Orta sarıtel” havaları, eləcə də “Güllü” və “Sənin o qara tellərin” kimi musiqi nümunələri təqdim olunub.

# BDU-nun tarixi muzeyinin yenidənqurulmadan sonra açılış mərasimi

***Aprelin 27-də BDU-nun tarixi muzeyinin yenidənqurulmadan sonra açılış mərasimi keçirilib.***

Mərasimdə çıxış edən rektor Elçin Babayev qeyd edib ki, Universitetlə yaşıd sayılan Muzey ilk dəfə 2010-cu ildə tam yenilənib və BDU-nun şərəfli tarixini özündə əks etdirən vahid mərkəz kimi fəaliyyətə başlayıb: “Bu məkanın yenidən qurulması BDU-nun son illər əldə etdiyi uğurları, Universitetdəki yenilikləri ehtiva edən dəyişiklikləri əlavə etmək məqsədi daşıyırdı. Muzeyin istər tələbələrimizin, istərsə də Universitetə gələn yerli və xarici qonaqların Azərbaycanın ilk ali təhsil müəssisəsi haqqında yetərli, geniş informasiyaya sahib olacağı unikal məkana çevrilməsi istiqamətində işlərimiz davam etdiriləcək”.





Daha sonra mərasim iştirakçıları Muzeyin yenilənən bölmələri və eksponatları ilə tanış olublar.

Bakı Dövlət Universiteti və onun fakültələrinin tarixinin hərtərəfli əks etdirilməsi üçün üç ekspozisiyaya bölünən muzeydə Azərbaycan Xalq Cumhuriyyəti, sovet hakimiyyəti və müstəqillik illərinə dair məlumat və eksponatlar, tədris prosesində istifadə olunan avadanlıq və cihazlar ziyarətçilərə təqdim olunur. Muzeydə Universiteti ziyarət edən dünyanın müxtəlif ictimai-siyasi, elm və mədəniyyət xadimlərinin hədiyyələri, bu tədbirlərə aid tarixi foto-kompozisiyalar mövcuddur. Məkanda nümayiş etdirilən unikal eksponatlardan biri də Azərbaycan xalqının Ümummilli Lideri, BDU-nun dünya şöhrətli məzunu Heydər Əliyev və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə verilmiş Universitetin Fəxri doktoru diplomlarıdır. Burada Universitetin Fəxri doktoru adına layiq görülmüş müxtəlif ictimai-siyasi, elm xadimlərinin fotoşəkilləri, onlara verilən diplom nümunələri də nümayiş olunur. Ümummilli Lider Heydər Əliyev və Prezident İlham Əliyevin BDU haqqında kəlamlarının əks olunduğu guşə, BDU-nun 100 illiyinə həsr edilmiş kitablar, poçt markası, ölkədə və beynəlxalq təşkilatlarda keçirilmiş silsilə yubiley tədbirlərini əks etdirən fotoşəkillər muzeydə xüsusi yer tutur. Son illər BDU-nun beynəlxalq reytinq agentliklərində əldə etdiyi yüksək nəticələri əks etdirən sənədlərin nüsxələri də “Universitetin tarixi” bölməsində sərgilənir. Muzeyin maraqlı eksponatlarından biri də BDU-nun tədris korpuslarının 1960-cı illərdə hazırlanmış layihəsidir. Məhz bu layihə əsasında 1965-ci ildə Universitetin Yasamal rayonu ərazisində ilk tədris korpusu tikilib.

# Görkəmli oftalmoloq, akademik Zərifə xanım Əliyevanın anım günüdür



*Aprelin 15-də Azərbaycan tibb elminin inkişafına misilsiz töhfələr vermiş, Əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü, Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı Zərifə xanım Əliyevanın anım günüdür.*

Zərifə Əziz qızı Əliyeva 28 aprel 1923-cü ildə Naxçıvan Muxtar Respublikasında anadan olub. 1947-ci ildə N. Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunu bitirib. Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda elmi işçi, 1969-cu ildən isə Ə.Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda Göz xəstəlikləri kafedrasının dosenti, professoru, görmə orqanlarının peşə patologiyası laboratoriyasının müdiri, Oftalmologiya kafedrasının müdiri (1982-1985) vəzifələrində çalışıb.

Zərifə Əliyevanın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların, o cümlədən "Terapevtik oftalmologiya", "İridodiaqnostikanın əsasları" kimi nadir elmi əsərlərin müəlliflərindən biri, 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 150-yə yaxın elmi işin, 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifidir.

Akademik Zərifə Əliyeva Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, "Vestnik oftalmologii" (Moskva) jurnalı redaksiya heyətinin üzvü idi.

Zərifə Əliyeva 1980-ci ildə Azərbaycanın Əməkdar elm xadimi fəxri adına layiq görülüb. O, SSRİ Tibb Elmlər Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülmüş ilk qadındır. Azərbaycanda tibbi deontologiyanın inkişafında böyük rolu olan akademik Zərifə Əliyevanın tibbi etika və deontologiyaya dair baxışları "Yüksək əqidə" (həkimlik etikası) əsərində əks olunub.

Zərifə Əliyeva yüksək ixtisaslı səhiyyə kadrlarının hazırlanmasına böyük əmək sərf edib. Onun birbaşa rəhbərliyi ilə gənc alimlərin və həkim-oftalmoloqların böyük bir nəsli yetişib.

O, 1985-ci il aprelin 15-də Moskva şəhərində əbədiyyətə qovuşub.

Akademik Zərifə xanım Əliyeva elm, təhsil, səhiyyə sahələrində, eləcə də ictimai-siyasi həyatda misilsiz xidmətlərinə görə xalqımızın qəlbində, ölkəmizin tarixində görkəmli alim, pedaqoq, qayğıkeş ana, şəfqətli həkim, nurlu Azərbaycan xanımı kimi qalacaq, daim anılacaq, onun şərəfli ömür yolu və zəngin irsi həmişə örnək olacaq.

Akademik Zərifə xanım Əliyevanın əziz xatirəsini ehtiramla anırıq. Allah rəhmət eləsin!

# Görkəmli hüquqşünas alim, BDU-nun kafedra müdiri Kamil Səlimovun 70 illik yubileyi qeyd olunub

*Aprelin 10-da Hüquq fakültəsində görkəmli alim, Kriminalistika və məhkəmə ekspertizası kafedrasının müdiri, hüquq elmləri doktoru, professor Kamil Səlimovun 70 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.*

BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev hüquq elminin inkişafında mühüm rol oynamış Kamil Səlimovu yubileyi münasibətilə təbrik edib. O bildirib ki, Universitet fəaliyyət göstərdiyi illər ərzində daim öz müəllim və professor heyəti ilə fəxr edib. 40 ildən artıq hüquq elminə sədaqətlə xidmət göstərən Kamil Səlimov kriminalistika sahəsində fundamental tədqiqatlar aparıb, Azərbaycanda bu istiqamətin elmi əsaslarının möhkəmlənməsinə mühüm töhfələr verib. Alim yalnız elmi fəaliyyəti ilə deyil, həm də pedaqoji fəaliyyəti ilə yüzlərlə hüquqşünasın yetişməsində mühüm rol oynayıb. Onun rəhbərliyi ilə formalaşan kriminalistika məktəbi bu gün də ölkənin hüquq-mühafizə və məhkəmə sistemində çalışan mütəxəssislərin hazırlanmasına



töhfə verir. Qeyd edib ki, Kamil Səlimovun elmi irsi, hazırladığı dərslik və monoqrafiyalar hüquq elmi üçün qiymətli mənbədir.

Hüquq fakültəsinin dekanı Zaur Əliyev Kamil Səlimovun zəngin elmi və pedaqoji fəaliyyətindən bəhs edib, onun həyatının gənc hüquqşünaslara örnək olduğunu vurğulayıb. Əmək və ekologiya hüququ kafedrasının müdiri Alış Qasımov "Professor Kamil Səlimovun həyat və yaradıcılığı haqqında", Kriminalistika və məhkəmə ekspertizası kafedrasının dosenti Bəxşeyiş Əsgərov "Azərbaycan Respublikasında kriminalistika elminin inkişafında professor Kamil Səlimovun rolu" mövzularında məruzə ediblər. Qeyd olunub ki, Kamil Səlimovun rəhbərliyi ilə Kriminalistika və məhkəmə ekspertizası kafedrası mühüm inkişaf yolu keçib, tədris prosesinə müasir və innovativ yanaşmalar tətbiq olunub. Onun təşəbbüsü ilə "Rəqəmsal kriminalistika" və "Molekulyar kriminalistika" kimi yeni istiqamətlər üzrə tədris proqramları hazırlanıb. Kamil Səlimovun elmi fəaliyyəti yalnız akademik çərçivə ilə məhdudlaşmır. Onun terrorizmə qarşı mübarizə sahəsində apardığı tədqiqatlar, xüsusilə "Terrorizmin müasir problemləri" adlı monoqrafiyası beynəlxalq elmi ictimaiyyət tərəfindən maraqla qarşılanıb və bu sahədə aparılan araşdırmaların əsas mənbələrindən birinə çevrilib.

Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının Ağsaqqallar Şurasının sədri, Əməkdar hüquqşünas İkram Kərimov, Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəisi Fazil Həsənəliyev, Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının rəisi, general-mayor Elşad Nəsirov, Vəkillər Kollegiyasının sədr müavini Aydın Axundov, BDU-nun Jurnalistika fakültəsinin kafedra müdiri Qulu Məhərrəmli və digərləri professor Kamil Səlimovun hüquq elminin inkişafındakı xidmətlərini, elmi və pedaqoji fəaliyyətini yüksək qiymətləndirib, yubilyara uğurlar arzulayıblar.

# BDU və İslam Əməkdaşlıq Təşkilatının Əmək Mərkəzi arasında anlaşma memorandumu imzalanıb

*Aprelin 23-də BDU və İslam Əməkdaşlıq Təşkilatının Əmək Mərkəzi arasında əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb.*

Memorandumu BDU-nun rektoru Elçin Babayev və İslam Əməkdaşlıq Təşkilatının Əmək Mərkəzinin Baş direktoru Azər Bayramov imzalayıblar.

Mərasimdə çıxış edən rektor Elçin Babayev bildirib ki, Universitetdə son illərdə əmək bazarına uyğun yüksəkixtisaslı mütəxəssislərin hazırlanması, məşğulluq, insan kapitalının inkişafı və peşə bacarıqlarının gücləndirilməsi istiqamətində mühüm addımlar atılır. BDU ölkənin aparıcı ali təhsil müəssisəsi kimi tələbələrin praktiki bilik və bacarıqlarının artırılması, eləcə də beynəlxalq əməkdaşlığın genişləndirilməsi sahəsində ardıcıl fəaliyyət göstərir. Universitetdə bu istiqamətdə müxtəlif təlim proqramları, tədqiqat layihələri və beynəlxalq tərəfdaşlıqlar həyata keçirilir.



> Rektor imzalanan memorandumun tərəflər arasında əməkdaşlığın inkişafına, xüsusilə əmək bazarının tələblərinə uyğun kadr hazırlığının gücləndirilməsinə, birgə elmi-tədqiqat işlərinin, təlimlərin, konfransların və layihələrin həyata keçirilməsinə mühüm töhfə verəcəyinə əminliyini ifadə edib

Rektor imzalanan memorandumun tərəflər arasında əməkdaşlığın inkişafına, xüsusilə əmək bazarının tələblərinə uyğun kadr hazırlığının gücləndirilməsinə, birgə elmi-tədqiqat işlərinin, təlimlərin, konfransların və layihələrin həyata keçirilməsinə mühüm töhfə verəcəyinə əminliyini ifadə edib. O, xüsusilə mülki hüquq, əmək hüququ və sosial iş istiqamətlərində birgə əməkdaşlığın faydalı olacağını bildirib.

İslam Əməkdaşlıq Təşkilatının Əmək Mərkəzinin Baş direktoru Azər Bayramov çıxışında rəhbərlik etdiyi qurumun əsas missiyasının üzv ölkələrdə məşğulluq siyasətinin təkmilləşdirilməsi, dayanıqlı əmək bazarının formalaşdırılması və insan kapitalının inkişafına dəstək vermək olduğunu diqqətə çatdırıb. O qeyd edib ki, Mərkəz üzv dövlətlərlə sıx əməkdaşlıq çərçivəsində əmək bazarının təhlili, peşə hazırlığı və ixtisasartırma proqramlarının təşkili, gənclərin məşğulluğunun artırılması, eləcə də innovativ məşğulluq həllərinin təşviqi istiqamətində müxtəlif layihələr həyata keçirir.

Azər Bayramov Mərkəzin regional və beynəlxalq tərəfdaşlarla birgə təşəbbüslər vasitəsilə bilik və təcrübə mübadiləsinə xüsusi önəm verdiyini vurğulayaraq, BDU ilə əməkdaşlığın təhsil və əmək bazarı arasında körpü rolunu daha da gücləndirəcəyini, birgə tədqiqat, təlim və inkişaf proqramlarının həyata keçirilməsi üçün geniş imkanlar yaradacağını bildirib.

# Görkəmli alim, yazıçı və pedaqoq Mir Cəlal Paşayevin anadan olmasından 118 il ötür

*Aprelin 26-da XX əsrin ədəbi-elmi fikrinin korifeylərindən sayılan görkəmli alim, yazıçı və pedaqoq Mir Cəlal Paşayevin anadan olmasından 118 il ötür.*

Mir Cəlal Paşayev 1908-ci il aprelin 26-da Cənubi Azərbaycanda (Ərdəbil ostanı) yoxsul kəndli ailəsində dünyaya göz açıb. Kiçik yaşlarında atası Gəncəyə köçdüyündən uşaqlığı burada keçib. Mir Cəlal 10 yaşında olanda atası vəfat edib və o, böyük qardaşının himayəsində yaşayıb.

Mir Cəlal Paşayev 1918–1919-cu illərdə Xeyriyyə Cəmiyyətinin köməyi ilə ibtidai təhsil alıb və Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Gəncə Darülmüəllimliyinə daxil olub. Tələbə təşkilatının, sonra isə şəhər tələbə həmkarlar təşkilatının sədri seçilib. Kazan Şərq Pedaqoji İnstitutunun ədəbiyyat şöbəsində, Azərbaycan SSR Elmlər Akademiyasının aspiranturasında təhsilini davam etdirməklə yanaşı, müəllimlik edib və millətinin övladlarına xalqının ədəbiyyatını, mədəniyyətini, zəngin keçmişini mənimsədib. Bu mənada Mir Cəlal Paşayevin XX əsr Azərbaycan elminin, ədəbiyyatının, təhsilinin inkişafındakı xidmətləri misilsizdir.

Yazıçı kimi 1928-ci ildə ədəbiyyata gələn Mir Cəlal elə həmin ildə də ilk tədqiqat əsərini yazıb. Sözün gücünə güvənib, onun böyüklüyünə baş əyən sənətkarın könüllərə yanğı salmış “Bir gəncin manifesti” əsəri, zəmanənin güzgüsü olan hekayələri klassik bədii nümunələr kimi ədəbiyyat tariximizin səhifələrində müəllifinə əbədiyaşarlıq qazandırıb. Onun böyük zəhmətinin bəhrəsi olan “Füzuli sənətkarlığı”, “XX əsr Azərbaycan ədəbiyyatı”, “Azərbaycanda ədəbi məktəblər (1905-1917)”, “Ədəbiyyatşünaslığın əsasları” adlı fundamental əsərləri ədəbiyyatşünaslıq elminin qiymətli mənbələrindəndir.

Bakı Dövlət Universitetinin sevimli müəllimi, nüfuzlu professoru kimi xatirələrdə daim yaşayan Mir Cəlal Paşayev həqiqət, düzlük, səmimiyyət aşiqi, ailəsini, övladlarını, tələbələrini sevən, qoruyan şəxsiyyət olub. Onun bu kəlamı indi də dillər əzbəridir: “Həyatımda yaratdığım ən böyük əsər ailəmdir”.



XX əsrin 20-30-cu illərində ədəbi aləmdə əvvəlcə şeir, sonra isə oçerk və hekayələri ilə görünən Mir Cəlal az sonra istedadlı və orijinal yaradıcılıq üslubu olan yazıçı kimi tanınıb. Mir Cəlal öz yazı üslubu ilə həmkarlarından fərqlənərək Azərbaycan ədəbiyyatına yeni nəfəs gətirib. XX əsr Azərbaycan ədəbiyyatının bir sıra nailiyyətləri bilavasitə Mir Cəlal Paşayevin adı ilə bağlıdır. Əlli illik yaradıcılıq fəaliyyəti dövründə o, görkəmli nasir kimi Azərbaycan ədəbiyyatı tarixində öz layiqli və şərəfli yerini tutub. Təkcə “Bir gəncin manifesti” əsərinə görə Mir Cəlal klassik sənətkarlar sırasında dayanmaq haqqını qazanıb. Bu əsər çapdan çıxanda onun heç 30 yaşı yox idi. 1928-ci ildə mətbuatda ilk şeirləri (“Dənizin cinayəti”, “Ananın vəsiyyəti”, “Müxbir”) çap olunub. O dövrün “Şərq qadını”, “Gənc işçi”, “İnqilab və mədəniyyət”, “Ədəbiyyat qəzeti” kimi nüfuzlu nəşrlərində “Doktor Cinayətov”, “İfşa”, “Mərkəz adamı”, “Naxələf”, “Bostan oğrusu”, “Qüdrət nümayişi”, “İstifadə”, “Dəzgah qızı”, “Heyrət” və digər hekayələrini çap etdirib. 1932-ci ildə “Sağlam yollarda”, 1935-ci ildə “Boy” adlı ilk oçerklər və novellalar kitabları işıq üzü görüb.

Mir Cəlalın ilk irihəcmli əsəri – “Dirilən adam” romanı 1935-ci ildə ayrıca kitab kimi nəşr olunub. Hələ yarım əsr bundan əvvəl akademik Məmməd Arif yazırdı: “Mir Cəlal “Dirilən adam”la diqqətli bir realist yazıçı olduğunu göstərib”.

“Bir gəncin manifesti” əsəri isə yazıçının həyatında böyük bir dönüş yaradıb, ədəbi zirvəyə aparan yoluna cığır açıb və müəllifə böyük oxucu auditoriyası qazandırıb. 1940-cı ildə “Uşaqgəncnəşr”də kitab halında kütləvi tirajla buraxılan bu əsər oxucu tələbatına görə sonrakı illərdə də təkrar çap edilib. “Bir gəncin manifesti” bu gün də qəlbləri riqqətə gətirir. Doqquz dəfə müxtəlif illərdə ayrıca kitab halında nəşr olunan bu əsər Azərbaycanın hüdudlarından çox-çox uzaqlarda da sevilir.

Mir Cəlalın “Dirilən adam”, “Bir gəncin manifesti”, “Yolumuz hayanadır” romanlarında keçmiş, “Açıq kitab”, “Yaşıdlarım”, “Təzə şəhər” romanlarında isə müasir həyat lövhələrinin bədii təsviri ustalıqla qələmə alınıb. Yazıçının “İnsanlıq fəlsəfəsi” (1961) kitabında toplanmış hekayələri də böyük tərbiyəvi-əxlaqi əhəmiyyətə malikdir. “İnsanlıq fəlsəfəsi”, “Subaylıq fəlsəfəsi”, “Təzə toyun nəzakət qaydaları”, “Vicdan mühakiməsi”, “Vicdan əzabı”, “Hesab dostları”, “Təsadüf, ya zərurət”, “Qocaların uşaq söhbəti” və digər hekayələrində isə real həyat lövhələri, fəlsəfi düşüncələr əks olunub. İndiyədək yazıçının 70-dən çox kitabı çap edilib.

Mir Cəlal Paşayev çağdaş Azərbaycan tarixində ədəbiyyatşünas-nəzəriyyəçi alim kimi də müstəsna və özünəməxsus yer tutub.

Mir Cəlal Paşayev 1940-cı ildə “Füzulinin poetik xüsusiyyətləri” əsərinə görə filologiya elmləri namizədi, 1947-ci ildə isə “Azərbaycanda ədəbi məktəblər” əsərinə görə filologiya elmləri doktoru alimlik dərəcələrini alıb. Füzuli poeziyasının qüdrətinə heyran olan, ümumiyyətlə, klassik ədəbiyyata qəlbən bağlı Mir Cəlal Paşayev 1958-ci ildə bu mövzuya yenidən müraciət edərək “Füzuli sənətkarlığı” adlı monoqrafiyasını nəşr etdirib.

Mir Cəlal Paşayevin tanınmış tədqiqatçı Firudin Hüseynovla birgə yazdığı “XX əsr Azərbaycan ədəbiyyatı” əsəri uzun illərdir ki, ali məktəblər üçün dərs vəsaitidir. Bu dərslikdə XX əsrin böyük ədəbi şəxsiyyətləri, onların yaradıcılığı, ədəbi mühitə gətirdikləri yeniliklər haqqında əhatəli elmi fikirlər əks olunub.

1978-ci il sentyabrın 28-də əbədiyyətə qovuşmuş, gözəl müəllim, görkəmli yazıçı, istedadlı ədəbiyyatşünas Mir Cəlal Paşayevin çoxşaxəli yaradıcılığı nəinki müasirlərinə, özündən sonra gələn nəsillərə də örnəkdir. Təsadüfi deyil ki, bu gün təkcə Azərbaycanda deyil, onun sərhədlərindən kənarda da görkəmli ədibin həyat və yaradıcılığı geniş şəkildə öyrənilir və əsərləri çap olunaraq maraqla oxunur.

“UNESCO-nun 2008-2009-cu illərdə görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin qeyd edilməsi proqramına Azərbaycanla bağlı daxil olmuş yubileylərin keçirilməsi haqqında" Azərbaycan Prezidentinin 2008-ci il 31 yanvar tarixli sərəncamına əsasən, yazıçı Mir Cəlal Paşayevin yubiley mərasimi təntənə ilə qeyd edilib. UNESCO-nun Parisdə yerləşən iqamətgahında XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, alim, pedaqoq Mir Cəlal Paşayevin 100 illiyinə həsr olunmuş mərasim keçirilib. Bu, həm də Azərbaycan elminə, mədəniyyətinə və ədəbiyyatına dünya miqyasında verilən dəyərin təzahürüdür.

Bakı Dövlət Universitetində 2023-cü ildə görkəmli yazıçının 115 illik yubileyi silsilə tədbirlərlə qeyd olunub. BDU-nun təşkilatçılığı ilə böyük ədib, ədəbiyyatşünas alim və pedaqoq Mir Cəlal Paşayevin 115 illik yubileyinə həsr olunmuş Respublika elmi konfransı keçirilib. BDU-nun Mir Cəlal Paşayev adına məqsədli təqaüdünün qalibi elan edilib. Bakı Dövlət Universitetinin professor-müəllim heyəti Mir Cəlal Paşayevin 115 illik yubileyinə həsr olunmuş tədbirlər çərçivəsində görkəmli ədibin II Fəxri xiyabandakı məzarını, Gəncə şəhərində yerləşən ev-muzeyini ziyarət edib, Gəncədə Mir Cəlal adına 39 nömrəli tam orta məktəbdə olub. BDU-nun tələbələri arasında böyük yazıçı və alim Mir Cəlal Paşayevin 115 illik yubileyi münasibətilə elan edilmiş qısa hekayə müsabiqəsinin qalibləri Gəncədə görkəmli yazıçının ev-muzeyində elan və təltif olunub. Daha sonra yubiley tədbirləri çərçivəsində Qazax Müəllimlər Seminariyasında görüş keçirilib.

Mir Cəlal Paşayev insanlıq, xeyirxahlıq, müəllimlik, ədəbiyyatşünaslıq məktəbi yaradıb. Bu məktəbin işığı sonrakı nəsillərin yoluna daim işıq salır. Böyük ziyalımızın əziz xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaq!

# Rumıniyanın Azərbaycandakı səfiri və Petre Andrei Universitetinin rektorunun rəhbərlik etdiyi nümayəndə heyəti BDU-da

*Aprelin 24-də Rumıniya Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Vasile Soare və Petre Andrei Universitetinin rektoru Sorin Bokançanın rəhbərlik etdiyi nümayəndə heyəti BDU-da olub.*

Qonaqları salamlayan rektor Elçin Babayev BDU-nun tarixi, elmi, tədris fəaliyyəti, beynəlxalq əməkdaşlıqları və ikili diplom proqramları barədə məlumat verib, Universitetin Rumıniya universitetləri ilə uğurlu əməkdaşlıq etdiyini diqqətə çatdırıb. Rektor BDU ilə Petre Andrei Universiteti arasında maraq doğuran istiqamətlər üzrə birgə forumların, elmi konfransların keçirilməsinin,



elmi tədqiqatlar aparılmasının vacibliyini qeyd edib.

Rumıniya Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Vasile Soare ölkələrimiz arasında dostluq münasibətlərinin uğurla inkişaf etdiyini, bunda elm, təhsil müəssisələrinin də mühüm rola malik olduğunu qeyd edib.

Petre Andrei Universitetinin rektoru Sorin Bokança rəhbərlik etdiyi ali təhsil müəssisəsinin sosial, humanitar profil üzrə ixtisaslaşdığını, Avropa, xüsusilə Qara dəniz ölkələrinin nüfuzlu universitetləri ilə əməkdaşlıq etdiyini bildirib. O, rəhbərlik etdiyi universitetin elmi nəşrləri barədə məlumat verib, bu görüşün iki ali təhsil müəssisəsinin səmərəli akademik əməkdaşlığı üçün uğurlu başlanğıc olduğunu deyib.

Görüşdə BDU və Petre Andrei Universiteti arasında müxtəlif istiqamətlərdə əməkdaşlıq imkanları, ortaq konfransların təşkili, birgə elmi nəşrlərin hazırlanması, tədqiqatların aparılması istiqamətində müzakirələr aparılıb.

Sonra BDU və Petre Andrei Universiteti arasında əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb.

Qonaqlar BDU-nun yenilənən infrastrukturu ilə tanış olublar. Sonda nümayəndə heyəti Petre Andrei Universitetinin “POLİS” beynəlxalq elmi jurnalının Azərbaycana həsr olunmuş xüsusi nəşrini BDU-nun Elmi Kitabxanasına hədiyyə edib.

# Azərbaycan və Türkiyənin Baş prokurorları Bakı Dövlət Universitetində mühazirə oxuyublar

***Aprelin 7-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev və Türkiyə Respublikasının Ali Məhkəməsinin Baş prokuroru Muhsin Şentürk BDU-da birgə mühazirə ilə çıxış ediblər.***

"Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində prokurorluq orqanlarının beynəlxalq hüquqi əməkdaşlığı" mövzusuna həsr olunmuş tədbirdə Universitetin Hüquq, Beynəlxalq münasibətlər və iqtisadiyyat, Tarix, Sosial elmlər və psixologiya fakültələrinin tələbələri, müəllim-professor heyəti, prokurorluq əməkdaşları, eləcə də elmi ictimaiyyət nümayəndələri iştirak edib.

BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev qonaqları salamlayıb, tədbirin mühüm əhəmiyyət daşıdığını qeyd edib. O bildirib ki, Türk Dövlətləri Təşkilatı müasir beynəlxalq münasibətlər sistemində Türk dünyasını birləşdirən mühüm regional platformalardan biridir. Onun əhəmiyyəti ilk növbədə üzv dövlətlər arasında siyasi, iqtisadi və humanitar-mədəni əməkdaşlığın gücləndirilməsində özünü göstərir. Təşkilat türk dövlətlərinə beynəlxalq arenada ortaq mövqe sərgiləmək və bir-birini dəstəkləmək imkanı verir. TDT həm də hüquqi və təhlükəsizlik sahəsində əməkdaşlıq üçün mühüm platformadır. Müasir dövrdə transmilli cinayətkarlıq, kibercinayətlər kimi təhlükələr artıq sərhəd tanımır. Bu isə hüquq-mühafizə və xüsusilə prokurorluq orqanları arasında daha sıx və koordinasiyalı əməkdaşlığı zəruri edir. Əliş Ağamirzəyev gələcəyin hüquqşünasları və dövlət qulluqçuları üçün beynəlxalq hüquqi əməkdaşlıq anlayışını dərindən mənimsəməyin və qlobal hüquqi düşüncəyə sahib olmağın mühüm əhəmiyyət daşıdığını qeyd edib.





Türkiyə Respublikasının Ali Məhkəməsinin Baş prokuroru Muhsin Şentürk mühazirəsi zamanı universitetlərin hüquqi dövlətin formalaşmasında və peşəkar hüquqşünasların yetişdirilməsində mühüm rol oynadığını bildirib. O qeyd edib ki, Türkiyə ilə Azərbaycan arasında münasibətlər ortaq tarix, mədəniyyət və dilə əsaslanan qardaşlıq üzərində qurulub. Bu əməkdaşlıq hüquq sahəsində də uğurla inkişaf edir.

Çıxışda müasir dövrdə terrorizm, insan alveri, qanunsuz miqrasiya, narkotiklərin qaçaqmalçılığı, kibercinayətkarlıq və maliyyə cinayətləri kimi sərhəd aşan təhdidlərin artdığı vurğulanıb. Bildirilib ki, bu cinayətlərlə mübarizə heç bir dövlətin təkbaşına apara biləcəyi proses deyil və beynəlxalq əməkdaşlıq zəruri xarakter daşıyır. Bu kontekstdə prokurorluq orqanlarının ədalətin təmin olunmasında və cinayətkarlığa qarşı mübarizədə əsas institutlardan biri olduğu qeyd edilib.

Muhsin Şentürk beynəlxalq hüququn tətbiqinin və insan hüquqlarının qorunmasının müasir dövrdə daha da aktuallaşdığını diqqətə çatdıraraq qloballaşma və rəqəmsallaşmanın cinayətlərin xarakterini dəyişdirdiyini, xüsusilə rəqəmsal mühitdə törədilən cinayətlərin yeni çağırışlar yaratdığını bildirib. Bu baxımdan güclü beynəlxalq hüquqi əməkdaşlıq mexanizmlərinin formalaşdırılmasının vacibliyi vurğulanıb.

Çıxışda Türk Dövlətləri Təşkilatı çərçivəsində həyata keçirilən əməkdaşlığın əhəmiyyətinə xüsusi toxunulub. Qeyd edilib ki, təşkilata üzv dövlətlərin baş prokurorluqları arasında yaradılan Şura qarşılıqlı etimadın möhkəmlənməsinə, təcrübə mübadiləsinə və koordinasiyalı fəaliyyətə mühüm töhfə verir. Bu platforma kibercinayətlər və digər sərhəd aşan cinayətlərlə mübarizədə birgə yanaşmaların formalaşdırılmasına imkan yaradır.

Çıxış edən Baş prokuror Kamran Əliyev mövzunu həm nəzəri, həm də praktiki aspektlərdən geniş təhlil edərək Türk Dövlətləri Təşkilatının müasir beynəlxalq münasibətlər sistemində artan rolunu hüquqi prizmadan dəyərləndirib. O bildirib ki, qlobal transformasiyalar şəraitində türk dövlətləri arasında siyasi, iqtisadi, sosial və mədəni inteqrasiyanın davamlılığı, ilk növbədə hüquqi mexanizmlərin uyğunlaşdırılmasından və institusional əməkdaşlığın gücləndirilməsindən asılıdır.

Baş prokuror Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən irəli sürülən Türk dünyasının vahid ailə kimi çıxış etməsi ideyasının hüquqi baxımından əhəmiyyətini vurğulayaraq qeyd edib ki, ortaq hüquqi məkanın formalaşdırılması üzv dövlətlər arasında qarşılıqlı etimadı möhkəmləndirir və regional təhlükəsizliyin təmin olunmasına xidmət edir. Çıxışda qarşılıqlı hüquqi münasibətlərin yalnız siyasi iradə ilə deyil, qanunvericilik bazalarının uyğunlaşdırılması, vahid hüquqi yanaşmaların formalaşdırılması və prokurorluq orqanları arasında operativ əməkdaşlıq mexanizmlərinin tətbiqi ilə mümkün olduğu diqqətə çatdırılıb.

Bundan başqa, transmilli cinayətkarlığın müasir dövrdə yeni formalar aldığını, xüsusilə kibercinayətkarlıq, terrorizmin maliyyələşdirilməsi, insan alveri, narkotik vasitələrin qanunsuz dövriyyəsi və çirkli pulların yuyulması kimi cinayətlərlə mübarizədə koordinasiyalı fəaliyyətin zəruriliyi qeyd olunub. Baş prokuror ibtidai istintaq mərhələsində qarşılıqlı hüquqi yardımın göstərilməsi, rəqəmsal və ənənəvi sübutların toplanması və mübadiləsi, həmçinin operativ informasiya mübadiləsi mexanizmlərinin təkmilləşdirilməsinin vacibliyini vurğulayıb.

Mühazirədə ekstradisiya institutunun beynəlxalq cinayət hüququnda əhəmiyyətinə də toxunularaq bildirilib ki, Türk Dövlətləri Təşkilatına üzv dövlətlər arasında mövcud olan qarşılıqlı etimad bu prosedurların daha operativ həyata keçirilməsinə imkan verir, habelə prokurorluqlar arasında birbaşa əlaqə mexanizmlərinin inkişafı cinayət törətmiş şəxslərin məsuliyyətdən yayınmasının qarşısının alınmasında mühüm rol oynayır.

Baş prokuror həmçinin Türk Dövlətlərinin Baş prokurorlarının Şurasının fəaliyyətinə də toxunaraq bu platformanın yalnız təcrübə mübadiləsi deyil, həm də ortaq hüquqi yanaşmaların formalaşdırılması, birgə istintaq mexanizmlərinin yaradılması və rəqəmsal ədliyyə sistemlərinin inteqrasiyası baxımından strateji əhəmiyyət kəsb etdiyini bildirib. Prokurorluq əməkdaşlarının peşəkar hazırlığı, akademik mübadilə proqramları və birgə təlimlərin gələcək əməkdaşlığın əsas istiqamətlərindən biri olduğunu vurğulayıb. Sonda vurğulanıb ki, qloballaşan dünyada hüquqşünaslar beynəlxalq perspektivlə fəaliyyət göstərməlidir. Güclü beynəlxalq əməkdaşlıq isə ədalətin effektiv təmin edilməsinin əsas şərtidir.

# BDU-da "YENİ Klubun"un növbəti layihəsi: "Ulu Öndər Heydər Əliyevin siyasi irsi və dövlətçilik baxışları"

***Aprelin 28-də BDU-da fəaliyyət göstərən "YENİ Klub"un təşkilatçılığı ilə "Ulu Öndər Heydər Əliyevin siyasi irsi və dövlətçilik baxışları" adlı layihənin ilk görüşü keçirilib.***

Layihənin əsas məqsədi Ümummilli Lider Heydər Əliyevin zəngin siyasi irsinin, dövlətçilik ənənələrinin və milli ideologiyanın formalaşmasındakı rolunun gənclər tərəfindən daha dərindən öyrənilməsidir.

BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov çıxışında "YENİ Klub"un fəaliyyəti və həyata keçirdiyi layihələr barədə məlumat verərək, bu təşəbbüslərin gənclərin inkişafına verdiyi töhfələri vurğulayıb.

Layihənin ilk qonağı Milli





Məclisin deputatı, Əməkdar jurnalist Vüqar Rəhimzadə olub. O, "Heydər Əliyevin media siyasəti və milli ideologiyanın formalaşmasında rolu" mövzusunda çıxış edərək Ulu Öndərin ölkədə azad medianın inkişafı istiqamətində atdığı mühüm addımlardan bəhs edib. Qonaq bildirib ki, Azərbaycan mətbuatı bütün dövrlərdə həqiqətlərin təbliğatçısı, cəmiyyətin güzgüsü missiyasını şərəflə yerinə yetirib. Mətbuat tariximizin Ulu Öndərin dövründə yaradılan möhkəm təməli bugünkü uğurlarımızda özünün aydın ifadəsini tapır. 1993-cü ildən etibarən Ümummilli Liderin bu sahəyə müstəsna diqqət və qayğısı nəticəsində KİV-in inkişafında əldə olunmuş nailiyyətlər artıb. Jurnalistlərin dostu olan Ulu Öndər KİV üzərində dövlət senzurasını ləğv edib. Azərbaycan Konstitusiyasında söz və mətbuat azadlığının təməl prinsip olaraq əksini tapması ölkədə medianın azad və güclü bir cəmiyyət institutu kimi formalaşmasına təkan verib. Ulu Öndər Heydər Əliyev hər zaman mətbuatın cəmiyyətə təsir gücünü yüksək qiymətləndirib, media və söz azadlığı, kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirib. Məhz Ulu Öndər tərəfindən göstərilən ali siyasi iradə nəticəsində ölkəmizdə mətbuat azadlığı prinsipləri bərqərar olub. Bu siyasət Ulu Öndərin layiqli davamçısı, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Vüqar Rəhimzadə çıxışında medianın dövlət quruculuğunda, milli maraqların qorunmasında rolunu da diqqətə çatdırıb.

Görüş interaktiv formatda davam edib, tələbələr media, siyasət və jurnalistika sahəsində aktual mövzularla bağlı suallar ünvanlayıblar.

# "Uzunömürlülük: bioloji və texnoloji determinantlar" – Elmi seminar

***Aprelin 16-da Biologiya fakültəsinin Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə 16 aprel – Beynəlxalq Bioloqlar Gününə həsr olunmuş "Uzunömürlülük: bioloji və texnoloji determinantlar" mövzusunda elmi seminar keçirilib. Tədbirdə fakültənin II kurs tələbəsi Nurcahan Əliyeva məruzə ilə çıxış edib.***

Seminarın açılışında çıxış edən Biologiya fakültəsinin dekanı, professor Afət Məmmədova mövzunun biotibb elmində strateji əhəmiyyətini vurğulayıb. O qeyd edib ki, bu cür elmi tədbirlər tələbələrdə tədqiqat yönümlü düşüncə tərzinin formalaşmasına mühüm töhfə verir. Dekan qocalmanın bioloji mexa-




nizmlərinin öyrənilməsinin həm fundamental biologiya, həm də regenerativ tibb və biotexnologiya sahələri üçün prioritet istiqamətlərdən biri olduğunu diqqətə çatdırıb.

Seminarda qeyd olunub ki, qocalma prosesi sadə degenerativ aşınma deyil, sistem səviyyəsində dinamik kinetik prosesdir. Qocalma prosesi genetik və epigenetik mexanizmlərlə tənzimlənən mürəkkəb bioloji hadisədir. Bu sahədə müasir texnoloji yanaşmalar, xüsusilə 3D bioprintinq texnologiyasının süni toxuma və orqanların yaradılmasında potensial imkanları diqqətə çatdırılıb.

Seminarda bu prosesdə nüvə DNT-sinin struktur bütövlüyü, telomerlərin qısalması, DNT metilləşməsi və histon modifikasiyalarının gen ekspressiyasına təsiri geniş şəkildə izah olunub. Eyni zamanda, proteostazın pozulması və kök hüceyrə ehtiyatının azalmasının regenerativ potensiala təsiri vurğulanıb.

Sonda mövzu ətrafında interaktiv müzakirə aparılıb, məruzəçi iştirakçıların suallarını cavablandırıb. Seminar uzunömürlülük probleminin multidissiplinar yanaşma çərçivəsində həm nəzəri, həm də tətbiqi aspektlərinin müzakirəsi ilə yekunlaşıb.

# BDU-da professor Məmmədəli Qıpçağın türkoloji fəaliyyətinə həsr olunmuş elmi seminar keçirilib

***Aprelin 16-da Filologiya fakültəsinin təşkilatçılığı ilə görkəmli alim, professor Məmmədəli Novruzovun (Qıpçaq) anadan olmasının 70 illik yubileyinə həsr olunmuş "Məmmədəli Qıpçağın türkoloji fəaliyyəti" mövzusunda elmi seminar keçirilib.***

BDU-nun Türkologiya kafedrasının müdiri, professor Məhərrəm Məmmədov Məmmədəli Qıpçağın bütün həyatını elmə və Universitetə həsr etmiş fədakar alimlərdən olduğunu bildirib. O qeyd edib ki, zəhmətkeşliyi və yüksək elmi məhsuldarlığı ilə seçilən alim türkologiyanın inkişafına mühüm töhfələr verib. O, türkologiyanın ümumi nəzəri problemləri, qədim türk abidələri, müasir türk dillərinin fonetik, leksik və qrammatik quruluşu, türk əlifbaları sahələrində tədqiqat işi aparıb. 70-ə yaxın elmi, 500-ə yaxın elmi-kütləvi məqalənin, 4 monoqrafiya və 2 kitabın müəllifi olub. Onun əlyazmaları və tələbələrə oxuduğu mühazirələr dosent Afaq Məmmədova tərəfindən toplanaraq kitab halında tərtib edilib.

Seminarda BDU-nun Türkologiya kafedrasının dosenti Afaq Məmmədova Məmmədəli Qıpçağın türkoloji fəaliyyətinə dair məruzə edib. Məruzədə alimin zəngin elmi irsi, türkoloji tədqiqatlara verdiyi töhfələr və qədim türk yazılı abidələri üzərində apardığı araşdırmalar ətraflı şəkildə təqdim olunub.

Dosent Afaq Məmmədova bildirib ki, Məmmədəli Qıpçaq türk dillərinin tarixi inkişaf mərhələlərini sistemli şəkildə araşdıraraq bu sahədə mühüm nəzəri nəticələr əldə edib: "Alimin tədqiqatları göstərir ki, türk dillərinin struktur xüsusiyyətləri yalnız müasir dil faktları ilə deyil, qədim yazılı abidələrin dərindən təhlili ilə daha aydın şəkildə izah olunur. Məmmədəli Qıpçaq Orxon-Yenisey abidələrinin mətnləri və digər qədim yazılı mənbələr əsasında mürəkkəb sayların yaranma modellərini elmi əsaslarla izah edib. Alimin "Kitabi-Dədə Qorqud" üzərində apardığı araşdırmalar yalnız dilçilik deyil, həm də mədəni-tarixi baxımdan xüsusi əhəmiyyət daşıyır. Bu əsər üzərində aparılan tədqiqatlar Türk dünyasının düşüncə tərzini, leksik zənginliyini və semantik inkişafını anlamağa imkan verir".

Afaq Məmmədova alimin türk mənşəli sözlərin leksik xüsusiyyətlərinə dair 20-yə yaxın elmi məqalənin müəllifi olduğunu, bu elmi irsin hazırda da aktuallığını qoruduğunu və gənc tədqiqatçılar üçün etibarlı elmi baza rolunu oynadığını xüsusi vurğulayıb.

Filologiya fakültəsinin dekanı Elçin Məmmədov, professorlar Elbrus Əzizov, Tofiq Hacıyev və Qızılgül Abdullayeva çıxışlarında Məmmədəli Qıpçağın zəngin elmi irsini və türkologiya sahəsinə verdiyi töhfələri yüksək qiymətləndirib, bunun gələcək nəsillərə ötürülməsinin vacibliyini qeyd ediblər.

Seminarın sonunda alimin nəşr olunan "Türk dillərinin tarixi və quruluşu" kitabı ilə bağlı fikir mübadiləsi aparılıb.

# BDU-da elmi seminar: "Fiziki vakuum haqqında"

***Aprelin 16-da Fizika və Mexanika-riyaziyyat fakültələrinin birgə təşkilatçılığı ilə "Şəhərsalma və Memarlıq İli"nə həsr olunmuş elmi seminar keçirilib.***

Seminarda Elm və Təhsil Nazirliyinin Fizika İnstitutunun Nəzəri fizika və kvant informasiyası laboratoriyasının baş elmi işçisi, professor Şakir Nağıyev "Fiziki vakuum haqqında" mövzusunda məruzə edib.

Məruzədə kvant fizikası çərçivəsində materiyanın fundamental mövcudluq formalarından biri hesab edilən fiziki vakuumun inkişaf tarixi, quruluşu və əsas xassələri izah olunub. Bildirilib ki, fiziki vakuum yalnız boşluq deyil, virtual zərrəciklərdən ibarət mürəkkəb sistemdir və bütün kvant sahələrinin vakuum hallarının məcmusunu təşkil edir.

Professor qeyd edib ki, fiziki vakuum fizikanın öyrəndiyi ən mürəkkəb və fundamental obyektlərdən biridir və bütöv bir aləm kimi qəbul olunur. Onun sözlərinə görə, müxtəlif vakuumlara malik digər aləmlərin mövcudluğu da istisna edilmir.

Diqqətə çatdırılıb ki, fiziki vakuum birbaşa müşahidə olunmasa da, onun təsirləri eksperimentlərdə qeydə alınır. Bu təsirlərə elektron-pozitron cütlərinin yaranması, Lemb sürüşməsi və Kazimir effekti kimi hadisələr daxildir. Vakuumun polyarizasiyası nəticəsində zərrəciyin elektrik sahəsi dəyişir, bu isə enerji səviyyələrinin sürüşməsinə və anomal maqnit momentinin yaranmasına səbəb olur.

# BDU-da tədqiqatçılar üçün "LeapSpace" rəqəmsal platformasına həsr olunmuş ixtisaslaşmış təlim

***Aprelin 29-da BDU-da tədqiqatçılar üçün "LeapSpace" rəqəmsal platformasına həsr olunmuş ixtisaslaşmış təlim keçirilib.***

*BDU-da təşkil olunan bu təşəbbüs ali təhsil müəssisəsində elmi mükəmməlliyin inkişafı və rəqəmsal transformasiyanın təşviqi istiqamətində atılan mühüm addımlardan biridir.*

Süni intellektin dəstəyi ilə tədqiqat proseslərinin təkmilləşdirilməsinə yönəlmiş bu platforma elmi fəaliyyətin daha səmərəli təşkili, əməkdaşlığın gücləndirilməsi və məlumat əsaslı innovasiyaların inkişafını hədəfləyir.

BDU-nun elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov müasir elmi mühitdə "Elsevier" kimi beynəlxalq elmi-informasiya resurslarının əhəmiyyətindən danışıb. O qeyd edib ki, qlobal elmi bazalara çıxış, düzgün analitik alətlərdən istifadə və tədqiqat nəticələrinin beynəlxalq səviyyədə tanınmasının artırılması universitetlərin rəqabət qabiliyyətinin əsas göstəricilərindəndir. Bu baxımdan "Elsevier" platformaları tədqiqatçıların elmi fəaliyyətinin keyfiyyətinin yüksəldilməsi, sitat indekslərinin artırılması və beynəlxalq əməkdaşlıqların genişləndirilməsi üçün mühüm imkanlar yaradır.

Təlim "Elsevier" şirkətinin meneceri Saide Sak tərəfindən aparılıb. Sessiyada professor-müəllim heyəti, gənc tədqiqatçılar və doktorantlar iştirak edərək müasir rəqəmsal alətlərin tədqiqat prosesinə inteqrasiyası ilə yaxından tanış olublar. Təlim çərçivəsində "LeapSpace" platformasının funksional imkanları praktiki nümunələr əsasında izah edilib, layihələrin idarə olunmasının optimallaşdırılması, inkişaf etmiş analitik imkanlar və effektiv elmi əməkdaşlıq mexanizmləri nümayiş etdirilib.

İştirakçılara platformanın tədqiqatın bütün mərhələlərini — ideyanın formalaşdırılması, məlumatların toplanması və təhlili, nəticələrin nəşri və yayılması proseslərini necə dəstəklədiyi əyani şəkildə təqdim olunub.

Təlim zamanı elmi ədəbiyyatın axtarışı və təhlili üzrə qabaqcıl üsullar, tədqiqat boşluqlarının müəyyənləşdirilməsi və innovativ ideyaların formalaşdırılması, maliyyələşmə və beynəlxalq əməkdaşlıq imkanlarının araşdırılması, süni intellekt əsaslı yanaşmalarla tənqidi düşünmə bacarıqlarının inkişafı, elmi nəşrlərin performansının izlənməsi və sitat göstəricilərinin təhlili kimi vacib mövzular geniş şəkildə müzakirə olunub. İnteraktiv formatda keçirilən sessiya iştirakçıların suallarının cavablandırılmasına və fərdi tədqiqat istiqamətlərinə uyğun yanaşmaların müzakirəsinə imkan verib.

Qeyd olunub ki, "LeapSpace" kimi innovativ platformaların tətbiqi tədqiqat proseslərinin sadələşdirilməsinə, elmi məhsuldarlığın artırılmasına və fənlərarası əməkdaşlığın gücləndirilməsinə xidmət edir. İştirakçılar platformanın praktik əhəmiyyətini yüksək qiymətləndirərək onun gündəlik elmi fəaliyyətlərdə geniş tətbiq imkanlarını vurğulayıblar.

BDU-da təşkil olunan bu təşəbbüs ali təhsil müəssisəsində elmi mükəmməlliyin inkişafı və rəqəmsal transformasiyanın təşviqi istiqamətində atılan mühüm addımlardan biridir. Universitet tədqiqatçılarının qlobal elmi mühitə inteqrasiyasını gücləndirmək, onların beynəlxalq elmi platformalarda aktivliyini artırmaq və rəqabət qabiliyyətini yüksəltmək əsas prioritetlərdən biri kimi diqqətdə saxlanılır. Təlim çərçivəsində tədqiqatçılar üçün əlavə sessiyalar da təşkil olunacaq. Bu isə Universitetdə daha güclü, əlaqəli və innovativ elmi ekosistemin formalaşmasına mühüm töhfə verəcək.

# BDU-da Sülh naminə Beynəlxalq Çoxtərəflilik və Diplomatiya Gününə həsr olunmuş tədbir keçirilib

***Aprelin 27-də BDU-da 24 aprel - Sülh naminə Beynəlxalq Çoxtərəflilik və Diplomatiya Gününə həsr olunmuş tədbir keçirilib.***




Universitetdə fəaliyyət göstərən “YENİ Klub”un təşkilatçılığı ilə baş tutan tədbirdə tələbələr, müəllimlər və beynəlxalq münasibətlər sahəsinə maraq göstərən gənclər iştirak ediblər.

BDU-nun beynəlxalq əlaqələr üzrə prorektoru Şahin Pənahov qeyd edib ki, tədbirin keçirilməsində əsas məqsəd gənclər arasında beynəlxalq münasibətlərə marağın, diplomatiya sahəsində gənclərin maarifləndirilməsinin artırılmasıdır. Şahin Pənahov bildirib ki, çoxtərəfli diplomatiya müasir beynəlxalq münasibətlər sisteminin əsas dayaqlarından biridir və bu istiqamətdə maarifləndirici tədbirlərin keçirilməsi tələbələrin dünyagörüşünün formalaşmasına, onların qlobal proseslərə daha dərindən bələd olmasına mühüm töhfə verir.

Tədbirin xüsusi qonağı Xarici İşlər Nazirliyinin Beynəlxalq Təhlükəsizlik İdarəsinin rəis müavini Əsmər Yusifzadə olub. O, çıxışında çoxtərəfli diplomatiyanın mahiyyəti, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq mexanizmləri, qlobal təhlükəsizlik çağırışları və müasir geosiyasi proseslər barədə ətraflı məlumat verib. Bildirilib ki, çoxtərəfli yanaşmalar dövlətlər arasında qarşılıqlı etimadın möhkəmləndirilməsində, sülh və sabitliyin təmin olunmasında mühüm rol oynayır. Diqqətə çatdırılıb ki, Azərbaycan beynəlxalq platformalarda fəal iştirak edərək, çoxtərəfli əməkdaşlığın inkişafına öz töhfəsini verir, müxtəlif təşəbbüslərlə çıxış edir və regional, eləcə də qlobal təhlükəsizlik məsələlərinin həllində konstruktiv mövqe nümayiş etdirir.

Görüş zamanı tələbələr çoxtərəfli diplomatiya sahəsində praktiki biliklərini artırmaq imkanı əldə ediblər. Müzakirələrdə beynəlxalq münasibətlər sahəsində karyera imkanları, diplomatik xidmətin xüsusiyyətləri və bu sahədə tələb olunan peşəkar bacarıqlar barədə də fikir mübadiləsi aparılıb.

Sonda iştirakçıların sualları cavablandırılıb.

# BDU-da elmi seminar: “Süni intellekt alqoritmləri vasitəsilə rəqsdə milli elementlərin aşkarlanması”

***Aprelin 23-də Tarix fakültəsində “Süni intellekt alqoritmləri vasitəsilə rəqsdə milli elementlərin aşkarlanması” mövzusunda elmi seminar keçirilib.***

Fakültənin elmi işlər üzrə dekan müavini Kəmalə Nəcəfova mövzunun aktuallığından danışaraq, Prezident İlham Əliyev tərəfindən 19 mart 2025-ci il tarixində təsdiq edilən “Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası”ndan irəli gələn məsələlərə diqqət çəkib. O, tarix, etnologiya, arxeologiya və antropologiya sahələrində süni intellekt texnologiyalarının tətbiqinin əhəmiyyətini vurğulayıb.

Məruzəçi, Arxeologiya və etnoqrafiya kafedrasının “Mədəni antropologiya” ixtisası üzrə qiyabi doktorantı Elmira Hacıyeva çıxışında süni intellekt texnologiyalarının, xüsusilə hərəkət analizi, kompüter görməsi və maşın öyrənməsi metodlarının rəqslərdə jest, ritm və milli üslub xüsusiyyətlərinin müəyyənləşdirilməsindəki rolunu izah edib. O, Türkiyə və Çin təcrübəsinə istinad edərək, bu sahədə tətbiq olunan alqoritmik yanaşmaların qeyri-maddi mədəni irsin qorunmasında mühüm rol oynadığını qeyd edib.

Gənc tədqiqatçı çıxışı zamanı CNN, YOLO, LSTM və RGNN modelləri barədə məlumat verərək bildirib ki, rəqsin həm məkan, həm də zaman xüsusiyyətlərinə malik olması səbəbindən hibrid modellərin (məsələn, CNN+LSTM və ya YOLO+RGNN) istifadəsi daha yüksək dəqiqliklə nəticə əldə etməyə imkan yaradır.

# BDU-da “Elsevier” şirkətinin silsilə təlimləri davam edir

***Aprelin 30-da BDU-da “Elsevier” şirkətinin təşkilatçılığı ilə keçirilən silsilə təlimlər çərçivəsində ikinci sessiya baş tutub. “Elsevier”in meneceri Saide Sak tərəfindən aparılan təlimdə əsas diqqət elmi jurnalların düzgün seçimi və tədqiqat fəaliyyətinin performans analizinə yönəlib.***

Tədbirdə Universitetin professor-müəllim heyəti, tədqiqatçılar və doktorantlar iştirak edərək, nəşr strategiyalarının təkmilləşdirilməsi və qlobal elmi təsirin daha dərindən anlaşılması istiqamətində biliklər əldə ediblər.

Sessiya zamanı elmi məqalələrin daha geniş təsir qazanması üçün uyğun jurnal seçiminin əhəmiyyəti vurğulanıb. İştirakçılara jurnalın əhatə dairəsi, indeksləşməsi, təsir göstəriciləri, hədəf auditoriyası və nəşr etikası kimi əsas meyarlar ətraflı izah olunub. Eyni zamanda, “yırtıcı” (predatory) jurnallardan yayınma yolları və məqalələrin uyğun nəşr platformalarına yönləndirilməsi ilə bağlı praktik tövsiyələr təqdim edilib.

Təlimin mühüm hissəsi “Elsevier”in aparıcı elmi analitika alətləri olan “Scopus” və “SciVal” platformalarının imkanlarına həsr olunub. Qeyd edilib ki, “Scopus” çoxşaxəli elmi sahələri əhatə edən geniş xülasə və sitat bazası kimi tədqiqatçılara uyğun jurnalların tapılması, sitatların izlənməsi, h-indeks və digər göstəricilərin monitorinqi, eləcə də qlobal elmi yeniliklərdən xəbərdar olmaq imkanı yaradır. Platforma həmçinin jurnal seçimi prosesində mənbə səviyyəli göstəricilər və indeksləşmə məlumatları təqdim edərək əsaslı qərarların qəbulunu dəstəkləyir.

“SciVal” platforması isə “Scopus” məlumatları əsasında tədqiqat fəaliyyətinin dərin analizi üçün nəzərdə tutulmuş qabaqcıl analitik alət kimi təqdim edilib. Bildirilib ki, bu platforma vasitəsilə tədqiqatçılar və elmi müəssisələr öz nəşr göstəricilərini təhlil edə, digər tədqiqatçılarla müqayisə apara, əməkdaşlıq imkanlarını müəyyənləşdirə və yeni elmi trendləri araşdıra bilirlər. “SciVal” təsir, məhsuldarlıq və qlobal mövqelənmə üzrə vizuallaşdırılmış məlumatlar təqdim edərək strateji qərarların qəbuluna da dəstək verir.

Sessiya zamanı vurğulanıb ki, düzgün jurnal seçimi strategiyalarının məlumat əsaslı analitik yanaşmalarla birləşdirilməsi tədqiqat nəticələrinin keyfiyyətini və təsir gücünü əhəmiyyətli dərəcədə artırır. İştirakçılar öz elmi fəaliyyətlərini beynəlxalq standartlarla müqayisə etməyi, yüksək təsirli əməkdaşlıq şəbəkələrini müəyyənləşdirməyi və tədqiqat istiqamətlərini qlobal prioritetlərlə uyğunlaşdırmağı öyrəniblər.

Təlim interaktiv sual-cavab sessiyası ilə yekunlaşıb. Bu hissədə iştirakçılar nəşr prosesində qarşılaşdıqları çətinlikləri müzakirə edib və “Elsevier” mütəxəssisi ilə birlikdə praktik həll yollarını nəzərdən keçiriblər.

Təlim növbəti günlərdə də öz işini davam etdirəcək.

# BDU və Özbəkistanın Buxara Beynəlxalq Universiteti arasında anlaşma memorandumu imzalanıb

***Aprelin 16-da BDU və Özbəkistanın Buxara Beynəlxalq Universiteti arasında anlaşma memorandumu imzalanıb.***

Sənədi BDU-nun rektoru Elçin Babayev və Buxara Beynəlxalq Universitetinin rektoru Şarif Baratov imzalayıblar.

Memorandumda hər iki universitetin nəzdində olan fakültə, institut və kolleclərdə təlim-tədris prosesinin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə birgə layihələrin, konfrans, sərgi, seminar, simpozium, qısamüddətli kursların, təlimlərin keçirilməsi, ortaq elmi-tədqiqatların aparılması nəzərdə tutulur. Həmçinin elmi jurnallarda birgə nəşrlər, ortaq akademik proqramların, tədris planlarının və sillabusların hazırlanması, təlimlərin keçirilməsi, akademik, inzibati heyətin, tələbə, magistrant, doktorant və tədqiqatçıların mübadiləsi kimi məsələlər də memorandumda öz əksini tapıb.

Əsası 2021-ci ildə qoyulmuş Buxara Beynəlxalq Universiteti Özbəkistanın nüfuzlu universitetlərindən biridir.

# Məhkəmə-Hüquq Şurasının Aparat rəhbəri Kərəm Mansurov BDU-da ustad dərsi keçib

***Aprelin 30-da Hüquq fakültəsinin Tələbə Gənclər Təşkilatının (TGT) "Master klass" layihəsi çərçivəsində növbəti görüş keçirilib.***

Tədbirdə Məhkəmə-Hüquq Şurasının Aparat rəhbəri Kərəm Mansurov çıxış edib. Görüş "Məhkəmə-Hüquq Şurası məhkəmə hakimiyyətinin özünüidarə orqanı kimi" mövzusuna həsr olunub.

Hüquq fakültəsinin dekanı, hüquq elmləri üzrə fəlsəfə doktoru, dosent Zaur Əliyev hüquq-mühafizə orqanları sistemində zəngin təcrübəyə malik olan və tələbəlik illərində fakültənin Tələbə Gənclər Təşkilatının sədri kimi fəaliyyət göstərən Kərəm Mansurovun peşəkar fəaliyyətinin hüquqşünas gənclər üçün nümunəvi olduğunu qeyd edib. Dekan bu cür birbaşa ünsiyyət platformalarının tələbələrin peşəkar inkişafına və mütəxəssis kimi formalaşmasına mühüm töhfə verəcəyinə əminliyini ifadə edib.

Kərəm Mansurov Məhkəmə-Hüquq Şurasının təkamül yolu, institutun hüquqi statusu və fəaliyyət prinsipləri barədə ətraflı məlumat verib. O, fərqli hüquq sistemlərində bu təsisatın müxtəlif adlarla fəaliyyət göstərməsinə rəğmən, Azərbaycan modelinin məhkəmə müstəqilliyinin təmin olunmasında və ədalət mühakiməsinin keyfiyyətinin artırılmasında oynadığı strateji rolu diqqətə çatdırıb. Çıxış zamanı məhkəmə sistemində reallaşdırılan islahatlar, məhkəmələrin institusional gücləndirilməsi və gələcək inkişaf istiqamətləri kimi mühüm məqamlara toxunulub.

İnteraktiv formatda davam edən görüşdə Kərəm Mansurov tələbələrin Məhkəmə-Hüquq Şurasının formalaşdırılması, hakimlərin seçilməsi və təyinatı prosedurları, habelə qurumun cari fəaliyyəti ilə bağlı çoxsaylı suallarını cavablandırıb.

# BDU-da “Zəfərə aparan yol: Aprel döyüşləri” mövzusunda tədbir keçirilib

***Aprelin 2-də Bakı Dövlət Universitetinin nəzdində “YENİ Klub”un və Yeni Azərbaycan Partiyasının (YAP) Yasamal rayon təşkilatının birgə təşkilatçılığı ilə “Zəfərə aparan yol: Aprel döyüşləri” adlı tədbir keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev qeyd edib ki, 2016-cı ilin Aprel döyüşləri Azərbaycan dövlətinin gücünün real ifadəsi kimi yadda qalıb. Bu qələbənin ideoloji təməli Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyən edilmiş dövlətçilik strategiyasına söykənir. Onun əsasını qoyduğu ordu quruculuğu siyasəti müasir və güclü Silahlı Qüvvələrin formalaşmasını təmin edib. Bu xətt Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirildi: “Aprel döyüşləri bu siyasətin ilk



böyük uğurlu sınağı oldu. Ordumuzun qətiyyəti və peşəkarlığı düşmənə ciddi zərbə vurdu. Nəticədə Azərbaycan Ordusu Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad etdi, həmçinin Lələtəpə yüksəkliyi, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi Ordumuzun tam nəzarətinə keçdi. Aprel zəfəri Vətən müharibəsinin başlanğıc nöqtəsinə çevrildi. Vətən müharibəsində Azərbaycan tam qələbə qazandı. 2023-cü ildə həyata keçirilən lokal xarakterli antiterror tədbirləri ilə dövlət suverenliyini tam bərpa etdi. Bununla da ölkəmizin ərazi bütövlüyü tam təmin olundu və Konstitusiyamızın hüquqi qüvvəsi ölkənin bütün ərazisində bərqərar oldu. Bu şanlı tarix gənclər arasında vətənpərvərlik ruhunun güclənməsinə təkan verdi. Şəhidlərimizin qəhrəmanlığı və Ordumuzun rəşadəti cəmiyyətimizdə birlik və həmrəyliyin möhkəmlənməsinin parlaq nümunəsinə çevrildi”.

Milli Məclisin deputatı Göydəniz Qəhrəmanov qeyd edib ki, Aprel döyüşlərindən keçən 10 il Azərbaycanın geosiyasi və hərbi gücünün ardıcıl inkişafını açıq şəkildə göstərir. Aprel döyüşləri həm də Azərbaycan cəmiyyətində milli həmrəyliyin və dövlətçilik ideologiyasının güclənməsinə mühüm təsir göstərib: “Ermənistanın hərbi mifləri məhz bu döyüşlərdə dağıldı. Bu hadisə regionda yeni reallıqların formalaşmasına səbəb oldu. Aprel döyüşləri milli qürurun rəmzi və tam Zəfərin başlanğıcı kimi şanlı tariximizdə layiqli yerini tutur”.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin sektor müdiri, ərazi partiya təşkilatının sədri Amil Sefiyev, Yasamal Rayon İcra Hakimiyyətinin Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri, Vətən müharibəsi iştirakçısı Samir İsmiyev, Aprel döyüşləri və Vətən müharibəsi qazisi Cümşüd Hüseynov və BDU-nun Heydər Əliyev Muzeyinin direktoru Afət Seyidzadə çıxışlarında bildiriblər ki, Aprel döyüşləri Azərbaycan ordusunun modernləşmə siyasətinin uğurla həyata keçirildiyini sübut edən mühüm hadisə idi. Bu təcrübə Vətən müharibəsində geniş tətbiq olundu. Çıxışlarda şəhid və qazilərimizin qəhrəmanlıq nümunələri xatırlanıb, onların Vətən sevgisinin gənc nəsil üçün örnək olduğu bildirilib.

Çıxışlardan sonra tələbələrin çoxsaylı sualları cavablandırılıb.

# Şanlı qələbəmizin başlanğıcı – tarixi Aprel döyüşlərindən 10 il ötür

*(əvvəli 1-ci səhifədə)*

Şanlı Zəfərimizin davamı məntiqi uğurlarımızla möhkəm təməl üzərində inkişaf etməyə başladı. Belə ki, ötən il avqustun 8-də bütöv Azərbaycanın növbəti nailiyyəti “Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş"in ABŞ Prezidentinin iştirakı ilə paraflanması oldu.

Bu gün Qarabağ və Şərqi Zəngəzur yenidən canlanır. İnsanlar doğma yurdlarına qayıdır, irimiqyaslı quruculuq işləri həyata keçirilir. Qarabağa, Şərqi Zəngəzura köçən hər yeni ailə, orada dünyaya gələn hər körpə yeni həyatın, qalib millətin və bütöv Azərbaycanın simvoludur.

Müstəqillik və suverenlik milli sərvətimizdir. Bu yolda canını fəda edən şəhidlərimizin ruhu şad olsun!

# "Böyük qələbənin təməli" - BDU-da tədbir

***Aprelin 3-də Kimya fakültəsinin Tələbə Gənclər Təşkilatının (TGT) təşəbbüsü ilə Aprel döyüşlərinin 10-cu ildönümünə həsr olunmuş “Böyük qələbənin təməli” adlı tədbir keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Kimya fakültəsinin dekanı Fuad Kərimli Aprel döyüşlərinin ordumuzun gücünü və xalqımızın sarsılmaz iradəsini bütün dünyaya nümayiş etdirdiyini deyib. Bildirib ki, bu döyüşlər yalnız hərbi uğur deyil, milli birliyin və Vətən sevgisinin parlaq təzahürüdür.

Fakültənin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Taleh Qəhrəmanov çıxışında gənclərin üzərinə düşən məsuliyyətdən söz açıb. Qeyd edib ki, Aprel döyüşlərində əldə olunan uğur Azərbaycan gəncliyinin vətənpərvərlik ruhunun formalaşmasında mühüm rol oynayıb.

Tədbir tələbələrin hazırladığı bədii hissə və Aprel döyüşlərindən bəhs edən videoçarxın nümayiş etdirilməsi ilə başa çatıb.

# “Zəfərə gedən yol”

***Aprelin 3-də Filologiya fakültəsində Tələbə Gənclər Təşkilatının (TGT) təşəbbüsü ilə Aprel döyüşlərinin 10-cu ildönümünə həsr olunmuş “Zəfərə gedən yol” adlı tədbir keçirilib.***

Filologiya fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Anar Fərəcov Aprel döyüşlərinin hərb tariximizin şanlı səhifələrindən biri olduğunu bildirib. O qeyd edib ki, Qarabağ Zəfərinin başlanğıcı hesab olunan bu döyüşlər Azərbaycan torpaqlarının işğaldan azad olunması istiqamətində yeni mərhələnin əsasını qoyub. Aprel döyüşləri nəticəsində Tərtərin Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi, həmçinin Cocuq Mərcanlı, Goranboyun Gülüstan kəndi və Tərtərin Madagiz istiqamətində bir sıra mövqelər düşməndən azad edilib. Bununla da “keçilməz səngərlər” mifinin əsassız olduğu sübut olunub.

Azərbaycan dilçiliyi kafedrasının müəllimi Pərvin Eyvazov isə 2016-cı ilin aprelində baş verən hərbi əməliyyatların tarixi, siyasi və mənəvi əhəmiyyətindən danışıb. O vurğulayıb ki, Aprel döyüşləri yalnız strateji uğurlarla deyil, milli ruhun yüksəlişi, vətənpərvərlik hisslərinin güclənməsi və xalq-ordu birliyinin möhkəmlənməsi baxımından da mühüm rol oynayıb. Qeyd edilib ki, bu hadisələr regionda geosiyasi balansın dəyişməsinə təsir göstərərək Azərbaycanın müdafiə strategiyasının təkmilləşdirilməsinə təkan verib və Vətən müharibəsində şanlı Zəfərə zəmin yaradıb.

Sonda tələbələrin ifasında bədii kompozisiya və Aprel döyüşlərinə həsr olunmuş videoçarx nümayiş olunub.

# BDU-da tədbir: “Aprel döyüşləri: tarixi yaddaş, milli qürur və Zəfər ruhu”

***Aprelin 2-də Geologiya fakültəsinin Tələbə Həmkarlar İttifaqı Komitəsi (THİK) və “BDU könüllüləri” təşkilatının birgə təşkilatçılığı ilə Aprel döyüşlərinin 10 illiyi münasibətilə “Aprel döyüşləri: tarixi yaddaş, milli qürur və Zəfər ruhu” adlı tədbir keçirilib.***

Tədbirin məqsədi Azərbaycan xalqının qəhrəmanlıq tarixində xüsusi yer tutan Aprel döyüşlərinin əhəmiyyətini gənc nəslin diqqətinə çatdırmaq, həmin döyüşlərdə nümayiş etdirilən igidlik və vətənpərvərlik nümunələrini, milli-mənəvi dəyərləri və dövlətçilik ənənələrini təbliğ etməkdir.

Geologiya fakültəsinin dekanı Mamoy Mansurov Aprel döyüşlərinin Azərbaycan hərb tarixində mühüm dönüş nöqtələrindən biri olduğunu vurğulayıb. O bildirib ki, 2016-cı ilin aprel ayında cəmi bir neçə gün davam edən bu döyüşlər Azərbaycan Ordusunun qüdrətini, peşəkarlığını və yüksək döyüş ruhunu nümayiş etdirib.

Qeyd olunub ki, Aprel döyüşləri təkcə hərbi uğur deyil, milli özünüdərk, Xalq-Ordu birliyi və dövlətə inam baxımından da mühüm əhəmiyyət kəsb edir. Vurğulanıb ki, həmin döyüşlər zamanı əldə olunan nailiyyətlər qələbəyə inamı daha da möhkəmləndirib və bu yol 44 günlük Vətən müharibəsində əldə olunan Zəfərlə nəticələnib.

Geologiya fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Ələkbər Mirzəyev Aprel döyüşlərinin gənclərin vətənpərvərlik ruhunda tərbiyəsində mühüm rol oynadığını bildirib. Qeyd edib ki, bu döyüşlər Azərbaycan gəncliyi üçün qəhrəmanlıq və Vətən sevgisinin parlaq nümunəsidir.

Vətən müharibəsi qazisi, Geologiya fakültəsinin II kurs tələbəsi Xanlar Heydərov döyüş xatirələrini bölüşüb, səngərdə formalaşan birlik və qardaşlıq mühitindən, qələbəyə gedən yolun məsuliyyətli və şərəfli olmasından bəhs edib. O vurğulayıb ki, Azərbaycan əsgərinin qələbə əzmi, sarsılmaz iradəsi və Vətən sevgisi həm Aprel döyüşlərində, həm də Vətən müharibəsində özünü parlaq şəkildə göstərib.

Sonda tələbələrin hazırladığı bədii kompozisiya və Aprel döyüşlərinə həsr olunmuş videoçarx nümayiş olunub.

# BDU-da Aprel döyüşlərinin 10-cu ildönümünə həsr olunmuş tədbir

***Aprelin 3-də İnformasiya və sənəd menecmenti fakültəsində Azərbaycan tarixinin şanlı səhifələrindən olan Aprel döyüşlərinin 10-cu ildönümünə həsr olunmuş tədbir keçirilib.***




Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olan soydaşlarımızın əziz xatirələri bir dəqiqəlik sükutla yad edilib. Aprel döyüşlərini əks etdirən videoçarx nümayiş etdirilib.

Universitetin “Zəfər tarixi” lektoriyasında keçirilən tədbirin moderatoru – İnformasiya və sənəd menecmenti fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Daşqın Məhəmmədli Aprel döyüşlərinin Azərbaycan xalqının hərbi-siyasi tarixində dönüş nöqtəsi olduğunu qeyd edib. Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi dövlətçilik strategiyasının Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilərək ölkəmizə tarixi Zəfər qazandırdığını vurğulayıb.

Tədbirə dəvət olunmuş hərbçilər – Aprel döyüşlərinin və Vətən müharibəsinin iştirakçıları, Xüsusi Təyinatlı Qüvvələrin ehtiyatda olan zabitləri polkovnik Emin Abışov, polkovnik-leytenant Habil Məmmədrzayev, kapitan Anar Hüseynov və gizir Vurğun Qurbanov işğalçı qüvvələrə qarşı aparılan hərbi əməliyyatlar barədə danışaraq döyüş təəssüratlarını görüş iştirakçıları ilə bölüşüb, şəxsi təcrübələrindən və döyüş yoldaşlarının qəhrəmanlığından bəhs ediblər. Qəhrəman zabitlər Ulu Öndər Heydər Əliyevin ordu quruculuğu sahəsində əsasını qoyduğu siyasətin Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini xüsusi vurğulayıb, bu siyasətin nəticəsi olaraq ordumuzun müasir standartlara uyğun formalaşdığını diqqətə çatdırıblar. Aprel döyüşlərinin strateji əhəmiyyətini qeyd edərək, bu hadisələrin böyük Zəfərə aparan yolun mühüm mərhələsi olduğunu bildiriblər.

Birinci Qarabağ müharibəsinin veteranı, BDU-nun Redaksiya-nəşriyyat işi kafedrasının müdiri Knyaz Aslan, Sənəd menecmenti kafedrasının dosenti Solmaz Sadıqova, həmin kafedranın müəllimi, qazi anası Vəzufə Xudiyeva, İnformasiya və sənəd menecmenti fakültəsinin tələbəsi, şəhid Əli Həsənovun qızı Bahar Əliyeva çıxışlarında qazandığımız tarixi Zəfərdən bəhs edib, bu cür görüşlərin tələbələrdə vətənpərvərlik hisslərinin formalaşdırılmasında mühüm rol oynadığını vurğulayıblar.

# Hüquq fakütəsində Aprel döyüşlərinin ildönümü qeyd olunub

***Aprelin 3-də Hüquq fakültəsində “Şanlı Zəfərə gedən yolun başlanğıcı – Aprel döyüşlərinin 10-cu ildönümü” adlı tədbir keçirilib.***

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olan soydaşlarımızın əziz xatirələri bir dəqiqəlik sükutla yad edilib.

BDU-nun Hüquq fakültəsinin dekanı Zaur Əliyev Aprel döyüşlərinin tarixi hadisə kimi qələbəyə aparan yolun başlanğıcı olduğunu deyib. Bildirib ki, Aprel döyüşləri dövlətimizin və Ordumuzun gücünü, xalqımızın birliyini, həmrəyliyini və vətənpərvərliyini nümayiş etdirib. Xalqımız 30 ilə yaxın işğal altında qalan torpaqlarımızı Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 gün ərzində azad edərək şanlı Qələbəmizin qazanılmasına nail olub. Zaur Əliyev fakültənin şəhid məzunu Ceyhun Şalıyevin Aprel döyüşləri və Vətən müharibəsində göstərdiyi qəhrəmanlıqlardan söz açıb.

Kriminalistika və məhkəmə ekspertizası kafedrasının müdiri, professor Kamil Səlimov Aprel döyüşləri ilə Vətən müharibəsi arasındakı dövrün siyasi xəritəsi barəsində danışıb. Müharibə və post müharibə dövründə atılan addımları, eyni zamanda ötən il avqustun 8-də ABŞ-də Azərbaycan və Ermənistan arasında imzalanacaq sülh müqaviləsinin paraflanmasını Prezident İlham Əliyevin “güclü hüquqi və siyasi həmlə”si adlandırıb.

Hüquq fakültəsinin şəhid məzunu Ceyhun Şalıyevin qardaşı, BDU-nun tələbəsi Kamal Şalıyev qardaşı ilə bağlı xatirələrini bölüşüb, Universitetdə keçirilən belə tədbirlər ilə şəhidlərimizin xatirəsinin yaddaşlara həkk olunduğunu deyib.

Hüquq fakültəsinin tələbəsi Jalə Babazadə qalib gəncliyin məsuliyyətinin böyük olduğunu vurğulayıb: “Gənclərin borcu şəhidlərimizin qanları bahasına azad edilən torpaqlarımızı, ərazi bütövlüyümüzü və suverenliyimizi qorumaqdır”.

# AYNA BDU-da infosessiya keçirib: “Kampusdan şəhərə mikromobillik"

***Aprelin 16-da BDU-da Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (AYNA) təşkilatçılığı ilə "Şəhərsalma və Memarlıq İli" çərçivəsində “Kampusdan şəhərə mikromobillik" mövzusunda infosessiya keçirilib.***



BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov bu istiqamətdə keçirilən maarifləndirici tədbirlərin əhəmiyyətindən danışıb, "Şəhərsalma və Memarlıq İli" çərçivəsində Universitetin sosial layihələrindən bəhs edib.

AYNA-nın Kommunikasiya departamentinin əməkdaşı Ruhlan Əbülfəzzadə mikromobillik infrastrukturunun inkişaf etdirilməsi ilə bağlı görülmüş işlər barədə tələbələrə məlumat verib. Qeyd edib ki, mikromobilliyin tətbiqi əhalinin mobilliyini artırmaq, şəhər mərkəzlərində nəqliyyat yükünü azaltmaq və ekoloji vəziyyəti yaxşılaşdırmaq məqsədi daşıyır. Dünyanın bir çox şəhərlərində olduğu kimi, paytaxt Bakıda da nəqliyyat sıxlığını aradan qaldırmaq, velosiped, elektrik mühərrikli kiçik nəqliyyat vasitələri istifadəçiləri və digər hərəkət iştirakçılarının təhlükəsizliyini təmin etmək məqsədilə işlər görülür. Hazırda Bakı şəhərində mikromobillik zolağının ümumi uzunluğu 60,5 kilometr təşkil edir. Şəbəkənin uzunluğunun 100 kilometrə çatdırılması planlaşdırılır. Görülən işlər çərçivəsində skuterlər üçün 872, velosipedlər üçün isə 623 parklanma məntəqəsi təşkil edilib. Əhali arasında mikromobillik vasitələrinə artan marağı, eləcə də bu nəqliyyat növünün geniş istifadəsinin mikromobillik, nəqliyyat sıxlığının azaldılması, ətraf mühitin qorunması, fiziki fəallığın artırılması və sağlam həyat tərzi baxımından əhəmiyyətini nəzərə alaraq, sakinlər üçün mikromobillik zolaqları şəbəkəsinin genişləndirilməsi davam etdiriləcək.

AYNA-nın Mikromobillik şöbəsinin əməkdaşı Nicat Kazımov Agentliyin layihələri barədə məlumat verərək əsas məqsədin tələbələr arasında mikromobillik mədəniyyətinin formalaşdırılması, təhlükəsiz hərəkət vərdişlərinin gücləndirilməsi və mövcud infrastruktur barədə fikir mübadiləsinin aparılması olduğunu bildirib.

"Apar" şirkətinin İnnovasiyalar və marketinq departamentinin rəhbəri Fatimə Göyçəli qeyd edib ki, klassik və elektrikli velosipedlərin icarəsi ilə məşğul olan şirkət müxtəlif sosial layihələrlə mikromobilliyin tətbiqi istiqamətində tədbirlər həyata keçirir.

İnfosessiyada Bakı şəhərində mikromobilliyin təkmilləşdirilməsinə dair tədbirlər barədə tələbələrlə fikir mübadiləsi aparılıb, onların sualları cavablandırılıb.

Tədbirdən sonra "Apar" şirkətinin təşkilatçılığı ilə skuter və velosiped təlimləri təşkil olunub.

# “Aprel döyüşləri böyük Zəfərin baş məşqi idi” – BDU-da tədbir



***Aprelin 3-də Sosial elmlər və psixologiya fakültəsində Aprel döyüşlərinin 10-cu ildönümünə həsr olunmuş tədbir keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Fakültə dekanı Rövşən Cavadov Aprel döyüşlərinin tarixi əhəmiyyətindən danışıb, bu hərbi əməliyyatın böyük Zəfərin baş məşqi və müjdəçisi adlandırıb. Tarixin ibrət dərslərindən nəticə çıxarmağı gənclərə tövsiyə edən fakültə dekanı tələbələri keçmişimizi unutmamağa səsləyib.

Fakültə tələbələri Mehriban Rəşidova, Təranə Rzayeva və Xanım Əliyeva Aprel döyüşlərinin iştirakçıları olmuş ataları haqqında məlumat veriblər. Tələbələr döyüşlərdə böyük mərdlik və şücaət göstərmiş valideynləri ilə fəxr etdiklərini bildirib, onların adlarını daim uca tutacaqlarına söz veriblər.

Dövlət Sərhəd Xidməti Akademiyasının Tibb bölməsinin rəisi, tibbi xidməti kapitanı, Aprel döyüşlərinin iştirakçısı Turan Cəfərova bildirib ki, Aprel döyüşlərində həyat yoldaşı polkovnik-leytenant Həsən Cəfərovla birlikdə iştirak edib. Döyüşlərdə həyat yoldaşı hərbi qulluqçu, özü isə hərbi həkim kimi fəaliyyət göstərib: “Bu döyüşlər Azərbaycan Ordusunun gücünü, xalqımızın birliyini, Vətənə olan sonsuz məhəbbətini dünyaya bir daha nümayiş etdirdi. Bu döyüşlər bir daha sübut etdi ki, kişi və qadın olmasından asılı olmayaraq, hər bir Azərbaycan əsgəri Vətən uğrunda canından keçməyə hazırdır. Fəxr edirəm ki, Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa olunmasında mənim də payım var”.

Fakültənin kafedra müdirləri belə tədbirlərin gənclərin vətənpərvərlik ruhunda tərbiyə edilməsində, onların öz tarixi keçmişlərinə hörmətlə yanaşmasında və milli-mənəvi dəyərlərimizin qorunub-saxlanılmasında mühüm rola malik olduğunu qeyd ediblər.

Sonda tələbələrin sualları cavablandırılıb.

# BDU-da “Bir işıq - min ümid” adlı ədəbi-bədii tədbir

***Aprelin 28-də Bakı Dövlət Universitetində “BDU könüllüləri” təşkilatı və “Azərbaycan Uşaqları” İctimai Birliyinin birgə təşkilatçılığı ilə görkəmli oftalmoloq alim, akademik Zərifə Əliyevanın anadan olmasının 103-cü ildönümünə həsr olunmuş “Bir işıq - min ümid” adlı ədəbi-bədii tədbir keçirilib.***

BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov Zərifə xanım Əliyevanın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri olduğunu qeyd edib. Bildirib ki, göz xəstəliklərinin uğurlu müalicəsində böyük əzmi və fəaliyyəti olan akademik Zərifə Əliyevanın sayəsində o dövr üçün aktual olan bir çox tibbi problemlər tamamilə həll olunub. Akademik Zərifə Əliyeva böyük alim, nüfuzlu ictimai xadim olmaqla yanaşı, örnək bir ana və sadiq ömürgün yoldaşı kimi xalqımızın yaddaşında əbədi iz qoyub.




“Azərbaycan Uşaqları” İctimai Birliyinin sədri Kəmalə Ağazadə görkəmli oftalmoloq alim, akademik Zərifə Əliyevanın həyatının və elmi irsinin hər bir gənc üçün nümunə olduğunu vurğulayıb. Qeyd edib ki, bu gün ölkəmizdə uşaq hüquqlarının qorunması üçün dövlət səviyyəsində müxtəlif tədbirlər həyata keçirilir. Bu sahədə ali təhsil ocaqlarının da üzərinə mühüm vəzifələr düşür: “BDU uşaqların hüquqlarının təmin edilməsi və müdafiəsi istiqamətində daim imkanlarını səfərbər edən nümunəvi təhsil ocaqlarındandır. Gələcəyimiz olan uşaqları yaxşı təhsil verməklə yanaşı, sevgi və qayğı ilə əsl vətəndaş kimi yetişdirə bilərik".

Daha sonra BDU tələbələri və İctimai Birliyin üzvləri “İncə bellim”, “Nağara”, “İgidlər”, “Qavalla rəqs”, “Zəfər”, “Gürcü” rəqsləri, "Ey həyat, sən nə qəribəsən”, “Gəl, ey səhər”, “Dilbərin ariyası”, “Məsafələr” kimi musiqi nömrələri ifa ediblər.

Sonda İctimai Birliyin “Özgə uşağı olmur” himni səsləndirilib.

# BDU-da "Tələbə həyatında dəri sağlamlığı" adlı infosessiya

***Aprelin 22-də Bakı Dövlət Universitetində “BDU könüllüləri” təşkilatı, Təhsilin İnkişafı Fondu və “Olivia Beauty & Care” MMC-nin təşkilatçılığı ilə “Tələbə həyatında dəri sağlamlığı” adlı infosessiya keçirilib.***

"BDU könüllüləri”nin layihələrin idarə edilməsi və təşkilatlarla iş üzrə meneceri Mədinə Xəlilova qurumun əsas məqsədlərindən birinin tələbələrin yalnız akademik deyil, fiziki və psixoloji rifahına töhfə vermək olduğunu bildirib. O vurğulayıb ki, belə infosessiyalar gənclərin gündəlik həyatlarında düzgün vərdişlər formalaşdırmasına, özlərinə qayğı mədəniyyətinin inkişafına xidmət edir.

Təhsilin İnkişafı Fondunun Layihələrin idarə olunması şöbəsinin baş mütəxəssisi Aysel Məhərrəmova "TələbəPlus" kartının tərəfdaşları siyahısında kafe və restoranlar, geyim mağazaları, kitab evləri, əyləncə və istirahət mərkəzləri, eləcə də xidmət sahələrinin yer aldığını qeyd edib. Bu müəssisələrdə tələbələr üçün xüsusi endirimlər, kampaniyalar və bonus imkanları təqdim olunduğunu, “Olivia Beauty & Care” MMC-nin da bunlardan biri olduğunu diqqətə çatdırıb. “Olivia Beauty & Care” MMC-nin marketinq meneceri Aygün Mirzalıyeva çıxışında şirkətin tələbələr üçün etdiyi endirimlər, bu endirimlərdən və digər sərfəli imkanlardan istifadə qaydalarını izah edib. Qeyd edib ki, sıx dərs qrafiki, stres və yanlış qidalanma kimi amillər tələbələrin dəri vəziyyətinə birbaşa təsir edir. Belə maarifləndirici görüşlər onların düzgün istiqamətləndirilməsi baxımından mühüm rol oynayır.

Daha sonra sahə üzrə mütəxəssis Ülkər Şükürlü “Tələbə həyatında dəri sağlamlığı” mövzusunda təqdimatla çıxış edib. O, dərinin qatları və növləri barədə ətraflı danışıb, səhər və axşam dəriyə qulluq məhsullarının istifadə olunma ardıcıllığını, dəri tipinə uyğun olmayan məhsullar istifadə olunduqda yaranacaq problemləri tələbələrin diqqətinə çatdırıb.

Sonda tələbələrin mövzuyla bağlı sualları cavablandırılıb və püşkatma ilə təsadüfi olaraq seçilən 10 tələbəyə hədiyyələr verilib.

# BDU-da “Gənclər sülh naminə mədəniyyətlərarası dialoqda – Bakı Forumu”nun açılış mərasimi

***Aprelin 30-da BDU-da “Gənclər sülh naminə mədəniyyətlərarası dialoqda – Bakı Forumu”nun açılış mərasimi keçirilib.***

Əvvəlcə Azərbaycan respublikasının Dövlət himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və ərazi bütövlüyümüz uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

BDU-nun beynəlxalq əlaqələr üzrə prorektoru Şahin Pənahov ali təhsil mühitində mədəniyyətlərarası dialoqun əhəmiyyətindən danışıb. O bildirib ki, Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədlərinin “Keyfiyyətli təhsil” bəndi yalnız akademik biliklərin ötürülməsi ilə məhdudlaşmır, fərqli mədəniyyətlər arasında qarşılıqlı anlaşma və əməkdaşlığın təşviqini də əhatə edir. Prorektor Universitetdə müxtəlif ölkələrdən olan tələbələrin təhsil almasının multikultural akademik mühitin formalaşmasına töhfə verdiyini, bunun isə tolerantlıq, qarşılıqlı hörmət və dialoq mədəniyyətinin inkişafına xidmət etdiyini vurğulayıb.

Milli Məclisin deputatı Rizvan Nəbiyev qlobal miqyasda müşahidə olunan geosiyasi gərginliklər fonunda mədəniyyətlərarası dialoqun və sülh təşəbbüslərinin aktuallığından bəhs edib. O, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Sülh və Barışıq üçün Gernika mükafatı”na layiq görülməsini ölkəmizin sülh siyasətinin və multikulturalizm dəyərlərinə sadiqliyinin bariz nümunəsi kimi qiymətləndirib. Deputat forumun gənclər arasında dialoq və qarşılıqlı anlaşmanın möhkəmləndirilməsi baxımından mühüm platforma olduğunu qeyd edib.

Daha sonra "Bir Könüllü” Tələbələrin Əməkdaşlığı İctimai Birliyinin sədr müavini Rufiz Qulizadə forumun əcnəbi və yerli tələbələri, gənclər sektorunun fəallarını bir araya gətirdiyini bildirib. O qeyd edib ki, layihənin əsas məqsədi gənclər arasında mədəniyyətlərarası dialoqu təşviq etmək, qarşılıqlı anlaşmanı gücləndirmək və sülh dəyərlərini təbliğ etməkdir.

Qeyd edilib ki, forum iki gün davam edəcək. Forum çərçivəsində panel müzakirələr, təcrübə mübadiləsi və interaktiv sessiyalar təşkil olunacaq.

Xatırladaq ki, forum Mədəniyyət Nazirliyinin dəstəyi, Bakı Dövlət Universitetinin “BDU könüllüləri” təşkilatı, Mədəniyyətlərarası Dialoq naminə Qlobal İttifaqın tərəfdaşlığı, “Bir Könüllü” Tələbələrin Əməkdaşlığı İctimai Birliyinin təşkilatçılığı ilə keçirilir.

# BDU-da “Gənclər sülh naminə mədəniyyətlərarası dialoqda – Bakı Forumu” çərçivəsində təlimlər

***Mədəniyyət Nazirliyinin dəstəyi, Bakı Dövlət Universitetinin “BDU könüllüləri” təşkilatı və Mədəniyyətlərarası Dialoq Naminə Qlobal İttifaqın tərəfdaşlığı, “Bir Könüllü” Tələbələrin Əməkdaşlığı İctimai Birliyinin təşəbbüsü və təşkilatçılığı ilə keçirilən “Gənclər sülh naminə mədəniyyətlərarası dialoqda – Bakı Forumu” layihəsi çərçivəsində BDU-da ümumilikdə 4 təlim görüşü təşkil olunub.***

Layihə çərçivəsində keçirilən təlimlər gənclər arasında mədəniyyətlərarası dialoqun təşviqi, sülh mədəniyyətinin formalaşdırılması, effektiv kommunikasiya bacarıqlarının inkişaf etdirilməsi və multikultural dəyərlərin aşılanmasına yönəlib.

Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrasının dosenti, fəlsəfə üzrə fəlsəfə doktoru Ülviyyə Ağabəyovanın “Multikulturalizm modelləri və Azərbaycan təcrübəsi”, həmin kafedranın müəllimi, fəlsəfə üzrə fəlsəfə doktoru Radif Mustafayevin “Multikulturalizm sahəsində beynəlxalq təcrübə” mövzularında təqdimatları olub. Fəlsəfə kafedrasının müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru Kəmalə Pənahova “Sülh quruculuğunda gənclərin rolu və vətəndaş iştirakı”, kafedranın dosenti Nərgiz Məcidova isə “Effektiv kommunikasiya və mədəni həssaslıq bacarıqları” mövzularında çıxış ediblər.

Sessiyalar zamanı multikulturalizm anlayışının nəzəri əsasları, müxtəlif ölkələrdə tətbiq olunan modellər, beynəlxalq təcrübədə mövcud çağırışlar, sülh quruculuğunda vətəndaş iştirakının rolu, eləcə də effektiv ünsiyyət və mədəni həssas yanaşma mexanizmləri geniş müzakirə olunub.

Təlim prosesində iştirakçılar praktiki tapşırıqlar, qrup işləri və situativ analizlər vasitəsilə mədəniyyətlərarası dialoqun sülh quruculuğundakı rolu, qarşılıqlı anlaşmanın formalaşdırılması yolları və gənclərin bu prosesdə aktiv iştirakının əhəmiyyəti barədə bilik və bacarıqlar əldə ediblər.

Qeyd edək ki, layihədə Azərbaycanda təhsil alan əcnəbi və yerli tələbələrlə yanaşı, ictimai fəal gənclər də iştirak edirlər. Layihənin əsas məqsədi gənclər arasında mədəniyyətlərarası ünsiyyəti gücləndirmək, tolerantlıq dəyərlərini təşviq etmək və sülh naminə birgə fəaliyyət platforması formalaşdırmaqdır.

Layihə çərçivəsində növbəti təlim və görüşlərin keçirilməsi nəzərdə tutulur.

# Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kollecinin tələbələri Tarix fakültəsində

***Aprelin 17-də Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kollecinin bir qrup tələbəsi Tarix fakültəsini ziyarət edib.***

Tələbələrə fakültənin fəaliyyəti, tədris prosesi, ixtisaslar və tələbə həyatı haqqında ətraflı məlumat verilib. Sonra tələbələr fakültədəki xüsusi auditoriyalar, kafedralar və elmi-tədqiqat mühiti ilə yaxından tanış olublar.

Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb, gələcəkdəki ali təhsil məqsədləri barəsində fikir mübadiləsi aparılıb.

# BDU-da “Molla Nəsrəddin” jurnalının 120 illik yubileyi qeyd olunub

***Aprelin 16-da “BDU könüllüləri” təşkilatının Filologiya fakültəsi üzrə üzvlərinin təşəbbüsü ilə Azərbaycanın ilk satirik jurnalı “Molla Nəsrəddin”in birinci nömrəsinin işıq üzü görməsinin 120 illik yubileyi münasibətilə ““Molla Nəsrəddin”in izində-120 il” adlı tədbir keçirilib.***




Filologiya fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Anar Fərəcov Cəlil Məmmədquluzadənin təşəbbüsü, redaktorluğu ilə işıq üzü görən “Molla Nəsrəddin” jurnalının təkcə bir mətbu orqan kimi deyil, bütöv bir ədəbi-estetik məktəb kimi formalaşaraq milli mətbuat tariximizdə mühüm mərhələ yaratdığını deyib. Jurnal 1906-cı il aprelin 7-də Tiflisdə “Qeyrət” mətbəəsində nəşrə başlayıb və müəyyən fasilələrlə iyirmi beş il ərzində fəaliyyət göstərib. Bu jurnal ictimai düşüncənin oyanışına təkan verib, cəmiyyətin sosial problemlərini satira və yumor vasitəsilə kəskin şəkildə gündəmə gətirib. Xalq yaradıcılığının zəngin yumor ənənələrindən, eləcə də Azərbaycan klassik ədəbiyyatı və dünya publisistikasının qabaqcıl nümunələrindən ustalıqla yararlanan nəşr publisistikanın janr və üslub imkanlarını xeyli genişləndirib. “Molla Nəsrəddin” eyni zamanda maarifçilik ideyalarının yayılmasında, ictimai tənqid mədəniyyətinin formalaşmasında və söz azadlığının təşviqində mühüm rol oynayıb. Onun təsiri yalnız Azərbaycanla məhdudlaşmayıb, Şərq ölkələrində demokratik fikrin, azad düşüncənin və yeni ədəbi meyllərin güclənməsinə ciddi təkan verib.

BDU-nun Azərbaycan ədəbiyyatı tarixi kafedrasının dosenti Məti Osmanoğlu təkcə milli mətbuatımız üçün deyil, ümumilikdə Şərq və türk-islam dünyasının mətbuat tarixində xüsusi yer tutan “Molla Nəsrəddin” jurnalının 1906-cı ildə fəaliyyətə başladığı andan etibarən ədəbi və ictimai fikrin diqqət mərkəzində olduğunu qeyd edib. Bunun başlıca səbəblərindən biri isə jurnalın ilk nömrəsində yer alan “Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım” çağırışında əksini tapan ali və müqəddəs məqsəddir: ““Molla Nəsrəddin” jurnalı cəmiyyətdəki nöqsanları satira və gülüş vasitəsilə ifşa etməklə islaha nail olmaq məqsədini böyük ölçüdə reallaşdırıb, ədəbi və ictimai fikir tarixində xüsusi mövqe qazanıb. Mollanəsrəddinşünaslığın ayrıca bir elmi istiqamət kimi formalaşması XX əsrin 30-cu illərinə təsadüf edir. Bu dövr ümumilikdə yeni ədəbi tənqidin və ədəbiyyatşünaslığın inkişaf mərhələsi idi. Artıq həmin illərdə jurnal özünün uzun və mürəkkəb, eyni zamanda şərəfli fəaliyyət yolunu başa vurub, milli yaddaşda isə onun adı Cəlil Məmmədquluzadə ilə ayrılmaz şəkildə bağlı qalıb. Bu mərhələdən etibarən ədəbiyyatşünaslıq Mirzə Cəlilin yaradıcılığını daha sistemli şəkildə araşdırmağa başlayıb, onun yaratdığı ədəbi irsin bütöv bir dövrün simvoluna çevrildiyi qəbul edilib”.

Sonra çıxış edən tələbələr “Molla Nəsrəddin” ədəbi məktəbinin davamçılarından söz açıb, satirik jurnalda yer alan karikaturaları nümayiş etdirib, onların mənaları haqqında məlumat veriblər.

# BDU-da Beynəlxalq Abidələr və Tarixi Yerlər Gününə həsr olunmuş tədbir

***Aprelin 17-də BDU-nun tarixi muzeyinin və Tarix fakültəsinin birgə təşkilatçılığı ilə 18 aprel - Beynəlxalq Abidələr və Tarixi Yerlər Gününə həsr olunan elmi seminar keçirilib.***



Tədbirin moderatoru, BDU-nun tarixi muzeyinin müdiri Günel Orucəliyeva bu günün qeyd olunmasının tarixi barədə məlumat verib. Qeyd edib ki, UNESCO tərəfindən 1983-cü ildə təsis olunan bu əlamətdar gün Azərbaycanda da qeyd olunur. Hər il bu tarixdə qoruqlarda, tarixi məkanlarda abidələrin və tarixi yerlərin qorunmasının təbliği istiqamətində müxtəlif tədbirlər, ekskursiyalar, sərgilər təşkil edilir.

Tarix fakültəsinin elmi işlər üzrə dekan müavini, dosent Kəmalə Nəcəfova Azərbaycanda tarixi abidələrin bərpası və mühafizəsi üçün həyata keçirilən layihələrdən, abidələrin qorunması və gələcək nəsillərə çatdırılması istiqamətində görülən işlərdən danışıb. Eyni zamanda birgə təşkil olunan bu tip tədbirlərin əhəmiyyətindən söz açıb.

Daha sonra Arxeologiya və etnoqrafiya kafedrasının müəllimi Günay Bayramova Mirzəzadə “Plovdağ nekropollarının dəfn adətləri” mövzusunda geniş məruzə ilə çıxış edib. Son Tunc və Erkən Dəmir dövrünə dair aparılmış son arxeoloji tədqiqatların nəticələri təhlil olunduğu məruzədə qeyd edilib ki, Plovdağ nekropolları Naxçıvan Muxtar Respublikasının Ordubad rayonu ərazisində, Gilançayın sol sahilində yerləşən arxeoloji abidələr kompleksidir. Kompleksə İlk Tunc dövrünə aid yaşayış yeri, eləcə də Tunc dövrünün müxtəlif mərhələlərini əhatə edən üç iri nekropol daxildir. 2020-ci ildə aparılan arxeoloji qazıntılar zamanı Tunc dövrünə aid yaşayış yerinin divarında küp qəbir aşkar edilib. Nekropolda tədqiq edilmiş çoxsaylı daş qutu qəbirlər, həmçinin nekropola yaxın ərazidə yerləşən Muncuqlutəpə, Mərdangölü və Xalı-Keşan nekropollarının materialları e.ə. II minilliyin ortalarından e.ə. I minilliyin əvvəllərinə qədər olan dövrdə dəfn adətlərinin müəyyən edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Qəbirlərdən müxtəlif növ saxsı məmulatı, silah nümunələri, tunc, sümük, yarımqiymətli daşlardan, balıqqulağı və kaurilərdən hazırlanmış bəzək əşyaları aşkar edilib.

Arxeologiya və etnoqrafiya kafedrasının müdiri, tarix elmləri doktoru Tarix Dostiyev vurğulayıb ki, Azərbaycan zəngin tarixə və qədim mədəni irsə malik ölkədir. Burada bir çox beynəlxalq əhəmiyyətli tarixi abidələr və memarlıq nümunələri mövcuddur. Ölkəmizin tarixi keçmişinin qaranlıq səhifələrinə aydınlıq gətirən son illərin arxeoloji tədqiqatları Azərbaycanın zəngin mədəni irsinin qədimliyini tutarlı elmi nəşrlərlə dünya elmi ictimaiyyətinə çatdırıb.

Auditoriya tərəfindən maraqla qarşılanan məruzə geniş müzakirələrlə yadda qalıb.

# BDU tələbələri işğaldan azad edilmiş ərazilərdəki tarixi abidələrin vəziyyəti ilə bağlı məlumatlandırılıb

***Aprelin 16-da Sosial elmlər və psixologiya fakültəsində “Şəhərsalma və Memarlıq İli” çərçivəsində “İşğaldan azad edilən ərazilərdə tarixi abidələrin vəziyyəti” adlı tədbir keçirilib.***

Sosial elmlər və psixologiya fakültəsinin dekanı Rövşən Cavadov Azərbaycan torpaqlarının Ermənistan tərəfindən 30 ilə yaxın işğalı zamanı xalqımıza məxsus yüzlərlə tarixi, mədəni və dini abidələrin, qəbiristanlıqların dağıdıldığını, mənimsənildiyini və vandalizmə məruz qaldığını bildirib. O qeyd edib ki, hazırda azad Qarabağ və Şərqi Zəngəzurda bərpa, yenidənqurma, inkişaf, çiçəklənmə dövrüdür. İllərdir düşmənin dağıdaraq viran qoyduğu yurd yerlərimizə indi yeni nəfəs gəlib. Quruculuq işləri çərçivəsində tarixi, mədəni və dini irsimizin də bərpası həyata keçirilir: “Azad edilmiş ərazilərimizdəki tarixi-mədəni irsimizi bərpa etmək və həqiqətləri dünyaya tanıtmaq qarşımızda duran əsas öhdəliklərdəndir. Bu prosesə elm adamları, tələbələr də öz töhfələrini verməlidirlər”.

Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin əməkdaşı Seyran Quliyev 2026-cı ilin “Şəhərsalma və Memarlıq İli” elan olunmasının Azərbaycanın zəngin memarlıq irsinin yerli və beynəlxalq səviyyədə tanıdılması baxımından mühüm əhəmiyyət kəsb etdiyini bildirib. O, Azərbaycanın Şərq və Qərb memarlıq ənənələrinin qovşağında formalaşan unikal memarlıq məktəblərindən bəhs edib, orta əsrlərdən müasir dövrümüzədək onların inkişaf mərhələlərindən danışıb. Qeyd edib ki, işğaldan azad edilmiş ərazilərdə tarix və mədəniyyət abidələrinin inventarlaşdırılmasına 2020-ci ilin 3 noyabr tarixindən başlanılıb, 2023-cü ilin iyun ayından isə bu prosesin ikinci mərhələsi həyata keçirilir. Hazırda mədəni irs nümunələrinin qorunma mexanizmləri təkmilləşdirilir, işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı inventarlaşdırma və mühafizə tədbirləri mərhələli şəkildə icra olunur. Ermənistanın uzunmüddətli işğalı dövründə Azərbaycanın ərazilərində yerləşən mədəni irs nümunələrinə ciddi ziyan vurulduğunu, abidələrin dağıdıldığını, muzey fondlarının qarət olunduğunu deyən Xidmətin əməkdaşı inventarlaşdırma işləri çərçivəsində 11 rayon üzrə tarixi abidələrin mövcud vəziyyətini əks etdirən fakt və vizual materialları tələbələrə təqdim edib, görülən işlərin miqyası və əhəmiyyətindən danışıb.

Sonda azad edilmiş ərazilərdə tarixi abidələrin qeydiyyata alınması və düzgün qiymətləndirilməsi prosesi ilə bağlı tələbələrin sualları cavablandırılıb.

# Biologiya fakültəsinin məzunları tələbələrlə uğur hekayələrini bölüşüblər

***Biologiya fakültəsinin tələbələri üçün xaricdə təhsil imkanlarına həsr olunmuş infosessiya və məzunlarla görüş təşkil edilib. Tədbir çərçivəsində tələbələrə beynəlxalq və dövlət təqaüd proqramları, eləcə də ikili diplom imkanları barədə ətraflı məlumat verilib.***

Görüş zamanı məzunların xaricdə təhsil aldıqları müddətdə qazandıqları akademik və praktiki təcrübə müzakirə olunub. Tədbirdə çıxış edən “Biotexnologiya” ixtisaslaşması üzrə ikili diplom proqramının məzunları – Edqar Şahbazov (Böyük Britaniyanın Mançester Universitetinin doktorantı), Cəfər Aşumov (Elm və Təhsil Nazirliyinin Botanika İnstitutunun doktorantı) və Emiliya Bağıyeva xarici universitetlərdə təhsil sisteminin xüsusiyyətləri, elmi-tədqiqat mühiti, qəbul şərtləri və IELTS imtahanına hazırlıqla bağlı faydalı tövsiyələrini tələbələrlə bölüşüblər.

# BDU-da “Professor Nəsir İmanquliyev dərsləri” layihəsinin açılış mərasimi

***Aprelin 9-da BDU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) Jurnalistika fakültəsi üzrə üzvlərinin təşkilatçılığı ilə Azərbaycanın görkəmli jurnalisti, tanınmış ictimai xadim, professor Nəsir İmanquliyevin 115 illik yubileyinə həsr olunmuş “Professor Nəsir İmanquliyev dərsləri” layihəsinin açılış mərasimi keçirilib.***



Milli mətbuat tarixi kafedrasının müdiri, professor Cahangir Məmmədli bildirib ki, Nəsir İmanquliyev Azərbaycanda böyük peşəkar jurnalistlər nəslinin müəllimi, ötən əsrin ikinci yarısında ölkə mətbuatında xüsusi tipoloji xarakter daşımış “Bakı” və “Baku” qəzetlərinin yaradıcısı və redaktoru olub: “Azərbaycan jurnalistikasında tətbiq olunan müasir xəbər tipləri Nəsir İmanquliyev imzası ilə bağlıdır. Tale elə gətirib ki, mən Nəsir müəllimi həm bu məktəbin yaradıcısı kimi, həm də Universiteti bitirərək Jurnalistika fakültəsində çalışdığım illərdən bələd olduğum ciddi bir nəzəriyyəçi kimi izləyə bilmişəm. Bu mənada mən Nəsir İmanquliyevin praktik jurnalist və alim kimi yaradıcılığından danışmağa haqqı olanlardan biriyəm. Nəsir İmanquliyev nə az, nə çox, düz 51 il bu fakültədə Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasında çalışıb. Bu gün Yeni media və kommunikasiya nəzəriyyəsi adlanan həmin kafedranın qapısı önündəki dəhliz divarında onun barelyefi var. Gələcəyin jurnalistləri-tələbələr müəllimlərinin xatirələrindən və qoyub getdiyi əsərlərindən tanıdıqları bu böyük insanın barelyefi önündən keçəndə onu ehtiramla yad edirlər”.

Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının professoru Akif Rüstəmov ömrünü Universitetin, milli mətbuatımızın inkişafına, jurnalist kadrların hazırlanmasına həsr etmiş Nəsir İmanquliyevin Azərbaycanın ictimai-mədəni mühitində çox böyük yaradıcılıq izi qoyduğunu deyib. Qeyd edib ki, Nəsir müəllimin klassik ənənələrimizə söykənən maarifçilik fəaliyyətinin bəhrələri Azərbaycan jurnalistikasında yaratdığı yeni məktəb və onun yetirmələridir: “Tale Nəsir İmanquliyevə heç də hamar ömür yolu qismət etməyib, amma heç vaxt əqidəsindən dönməyib”.

Daha sonra çıxış edənlər Jurnalistika fakültəsinin dekanı, professor Vüqar Əliyev, Multimedia və elektron kommunikasiya kafedrasının müdiri, professor Qulu Məhərrəmli, Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının müdiri, dosent Xatirə Hüseynova, Milli mətbuat tarixi kafedrasının professoru Qərənfil Quliyeva, fakültə THİK-in sədri, IV kurs tələbəsi Nurlan Cəbrayılzadə Nəsir İmanquliyevlə bağlı xatirələrini bölüşüb, özündən sonra məktəb yaradan müəllimlərin ənənələrinin daim yaşayacağını bildiriblər.

Sonda Nəsir İmanquliyevin həyat və yaradıcılığından bəhs edən qısametrajlı film nümayiş etdirilib.

Qeyd edək ki, Azərbaycan jurnalistika tarixində mühüm iz qoyan professor Nəsir İmanquliyevin zəngin elmi-pedaqoji irsinin sistemli şəkildə öyrənilməsi, təhlili və gənc jurnalistlər arasında təbliği məqsədilə keçirilən layihə aprel və may aylarında həftədə bir dəfə olmaqla təşkil ediləcək. Yekunda layihə iştirakçılarının professor Nəsir İmanquliyevlə bağlı mediada dərc olunan yazıları üzrə “Professor Nəsir İmanquliyev dərsləri – yazı müsabiqəsi” keçiriləcək və qaliblər təltif ediləcək.

# BDU-da “Professor Nəsir İmanquliyev dərsləri”nin ilk görüşü



***Aprelin 16-da BDU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) Jurnalistika fakültəsi üzrə üzvlərinin təşkilatçılığı ilə Azərbaycanın görkəmli jurnalisti, tanınmış ictimai xadim, professor Nəsir İmanquliyevin 115 illik yubileyinə həsr olunmuş “Professor Nəsir İmanquliyev dərsləri” layihəsinin ilk qonağı Əməkdar jurnalist, yazıçı-publisist Zemfira Məhərrəmli olub. Layihənin ilk dərsi “Mətbuat tariximizdə “Bakı” və “Baku” qəzetlərinin yeri” mövzusunda keçirilib.***

Jurnalistika fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Samir Mirzəyev Azərbaycan jurnalistika tarixində mühüm iz qoyan professor Nəsir İmanquliyevin zəngin elmi-pedaqoji irsinin sistemli şəkildə öyrənilməsi, təhlili və gənc jurnalistlər arasında təbliği məqsədilə keçirilən layihə haqqında məlumat verib. Belə təşəbbüslərin birbaşa tələbələrdən gəlməsinin müsbət tendensiyaya çevrildiyini bildirib.

Professor Nəsir İmanquliyevin qəzetdə informasiya yaradıcılığını ən vacib hesab etdiyini deyən Zemfira Məhərrəmli onun uzun illər rəhbəri olduğu “Bakı” - “Baku” axşam qəzetlərinin nəinki Azərbaycan mətbuatında, bütövlükdə mədəniyyət tariximizdə böyük hadisə olduğunu vurğulayıb: “Nəsir İmanquliyev yaddaşlarda jurnalistikamızda yaratdığı peşəkarlıq məktəbi ilə əbədi qalacaq. Bu məktəbin davamçıları isə onun yetişdirdiyi tələbələri, bu gün onlardan dərs alan gənc jurnalistlərdir. Nəsir müəllimin auditoriyadan başlayan seçimi yaradıcılıq laboratoriyası hesab edilən “Bakı” - “Baku” qəzetlərində işə qəbulla nəticələnirdi. Onlardan biri də mən idim. Bu qəzetdə 20 ildən çox çalışmağım həm jurnalistlikdə, həm ədəbi fəaliyyətimdə böyük rol oynayıb. Ustad jurnalistin bu nəşrə gətirdiyi yeniliklərlə Azərbaycanda azad sözə, fikrə daha çox yer ayrılıb, oxucular daim yeni informasiyalarla təmin ediliblər. Qəzetin səhifələrində paytaxtın gözəlliyi, yenilikləri ilə yanaşı, şəhərdə həlli vacib məsələlər də geniş şəkildə işıqlandırılırdı”.

Əməkdar jurnalist Zemfira Məhərrəmli Nəsir İmanquliyevin bugünkü ali jurnalistika təhsilinin simasını müəyyənləşdirdiyini qeyd edib, sevimli müəllimi haqqında xatirələrini bölüşüb: “Nəsir İmanquliyev həm peşəkar redaktor, həm də təcrübəli müəllim kimi tələbə jurnalistlərin yaradıcılığına geniş imkan yaradırdı. Nəsir müəllimin məktəbi bu gün də davam edir. Nəsir İmanquliyevin həyat və yaradıcılığı müasir jurnalistikamız üçün böyük örnəkdir”.

Sonda qonaq tələbələrin professor Nəsir İmanquliyevin həyat və yaradıcılığına dair suallarını cavablandırıb.

# BDU və “ARB 24”ün birgə layihəsi olan növbəti “NewsLab” təlim proqramı başlayıb

*Bu təlimdə reportajın xüsusiyyətləri, mövzunun seçilməsi, hadisə yerindən məlumatın toplanması və tamaşaçıya düzgün çatdırılması kimi əsas məqamlar izah edilib. Təlim iştirakçılarına reportajın strukturu, “stand up”ların qurulması, kadr seçimində diqqət edilməli məqamlar barədə praktik tövsiyələr verilib.*

***Aprelin 29-da BDU və “ARB 24” telekanalı arasında imzalanmış əməkdaşlıq müqaviləsi çərçivəsində beşinci "NewsLab" təlim proqramı başlayıb.***

“Newslab” layihəsi çərçivəsində ilk təlimi “ARB 24”ün icraçı direktoru Elnur Şibliyev keçib. Təlim zamanı tələbələrə sujetlərin hazırlanma mərhələləri, informasiyanın düzgün seçilməsi və təqdim olunması qaydaları haqqında ətraflı məlumat verilib. Real televiziya materialları üzərindən nümunələr göstərilərək, sujetlərin quruluşu, vizual və mətn uyğunluğu kimi mühüm məqamlar izah olunub.

Layihə çərçivəsində təşkil olunan növbəti təlimi isə “ARB 24”ün direktor müşaviri Aynur Nəsirova keçirib. Bu təlimdə reportajın xüsusiyyətləri, mövzunun seçilməsi, hadisə yerindən məlumatın toplanması və tamaşaçıya düzgün çatdırılması kimi əsas məqamlar izah edilib. Təlim iştirakçılarına reportajın strukturu, “stand up”ların qurulması, kadr seçimində diqqət edilməli məqamlar barədə praktik tövsiyələr verilib.

BDU və “ARB 24”ün birgə təşkilatçılığı ilə hazırlanan layihə xəbər hazırlanması, nitq mədəniyyəti, görüntü, videomontaj sahələrini əhatə edir. Layihəni uğurla bitirən tələbələrə sertifikatlar təqdim olunur və iştirakçıların ən azı yarısı əmək müqaviləsi ilə rəsmi şəkildə işə götürülürlər.



# AZƏRTAC-ın İdarə Heyəti sədrinin müavini Dağbəyi İsmayılovla BDU-da “Professor Nəsir İmanquliyev dərsləri” mövzusunda görüş

***Aprelin 23-də BDU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) Jurnalistika fakültəsi üzrə üzvlərinin təşkilatçılığı ilə Azərbaycanın görkəmli jurnalisti, tanınmış ictimai xadim, professor Nəsir İmanquliyevin 115 illik yubileyinə həsr olunmuş “Professor Nəsir İmanquliyev dərsləri” layihəsinin növbəti qonağı Medianın İnkişafı Agentliyinin Müşahidə Şurasının sədri, Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) İdarə Heyəti sədrinin müavini, Əməkdar jurnalist Dağbəyi İsmayılov olub. Layihənin ikinci dərsi “İnformasiya agentliklərinin iş prinsipi. Redaksiya işinin təşkili” mövzusunda keçirilib.***



Jurnalistika fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Samir Mirzəyev görkəmli pedaqoq və jurnalist Nəsir İmanquliyevin irsinin belə davamlı şəkildə öyrənilməsini “keçmişin gələcəyə töhfəsi” adlandırıb: “Müəllimlərimizin yolunu davam etdirmək və bu ənənələri yaşatmaq müəllim və tələbələrin mənəvi borcudur”.

Əməkdar jurnalist Dağbəyi İsmayılov müasir media mühitində informasiya axınının idarə olunması, operativlik və dəqiqlik balansının qorunması, eləcə də redaksiya proseslərinin effektiv qurulması ilə bağlı praktik bilik və təcrübəsini bölüşüb. O, çıxışında informasiya agentliklərinin fəaliyyət mexanizmlərindən danışıb. Qeyd edib ki, informasiya agentliklərinin əsas missiyası cəmiyyətə etibarlı, yoxlanılmış və sürətli informasiya təqdim etməkdir. Redaksiya daxilində düzgün koordinasiya, məsuliyyət bölgüsü və peşəkar etik prinsiplərə sadiqlik keyfiyyətli jurnalistikanın əsas sütunlarını təşkil edir. Xüsusilə rəqəmsal transformasiya dövründə jurnalistlərin çevik düşüncə tərzinə malik olması olduqca vacibdir: “Jurnalistika ixtisası üzrə təhsil alan tələbələr daim öz üzərlərində işləməli, hərtərəfli inkişaf etməlidirlər”.

Dağbəyi İsmayılov dərs müddətində professor Nəsir İmanquliyevlə bağlı xatirələrini də bölüşüb. O, Nəsir İmanquliyevin tələbələrinə yanaşmasından, jurnalistikaya gətirdiyi yeniliklərdən və milli mətbuat tarixindəki müstəsna rolundan bəhs edib. Bildirib ki, professorun formalaşdırdığı prinsiplər müasir media mühitində yol göstəricisi kimi qalır.

Daha sonra Jurnalistika fakültəsinin THİK sədri, IV kurs tələbəsi Nurlan Cəbrayılzadə bu layihədən 300-dən çox tələbənin faydalanmasının nəzərdə tutulduğunu, yekunda isə layihə iştirakçılarının professor Nəsir İmanquliyevlə bağlı mediada dərc olunan yazıları üzrə “Professor Nəsir İmanquliyev dərsləri - yazı müsabiqəsi” keçiriləcəyini qeyd edib. Tələbələri Nəsir İmanquliyev irsini daha yaxından araşdırmağa və öyrənməyə çağırıb.

Sonda tələbələrin sualları cavablandırılıb.

Qeyd edək ki, aprel və may aylarını əhatə etməklə həftədə bir dəfə 90 dəqiqəlik mühazirələr formatında təşkil edilən “Professor Nəsir İmanquliyev dərsləri”nin məqsədi Azərbaycan jurnalistika tarixində mühüm iz qoymuş professor Nəsir İmanquliyevin zəngin elmi-pedaqoji irsinin sistemli şəkildə öyrənilməsi, təhlili və gənc jurnalistlər arasında təbliğidir.

# BDU-da "Professor Nəsir İmanquliyev dərsləri": Əməkdar jurnalist Elçin Şıxlı ilə görüş

***Aprelin 30-da BDU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) Jurnalistika fakültəsi üzrə üzvlərinin təşkilatçılığı ilə Azərbaycanın görkəmli jurnalisti, tanınmış ictimai xadim, professor Nəsir İmanquliyevin 115 illik yubileyinə həsr olunmuş “Professor Nəsir İmanquliyev dərsləri” layihəsinin növbəti qonağı Medianın İnkişafı Agentliyinin Müşahidə Şurasının üzvü, Azərbaycan Jurnalistlər Birliyinin sədri, “Ayna” və “Zerkalo” qəzetlərinin təsisçisi və baş redaktoru, Əməkdar jurnalist Elçin Şıxlı olub. Layihənin üçüncü dərsi “Ənənəvi jurnalistikanın müasir üslubda cilalanması” mövzusunda keçirilib.***



Jurnalistika fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Samir Mirzəyev layihənin Nəsir İmanquliyev irsi və ənənələrinin öyrənilməsi istiqamətində uğurlu nəticələr əldə etdiyini, gənc jurnalistlərin buna maraqla yanaşdığını deyib: “Ustad müəllimlərin yolunu davam etdirən peşəkar jurnalistlərlə görüşlər tələbələrimiz üçün ən yaxşı təcrübədir”.

Elçin Şıxlı çıxışında ölkə və beynəlxalq media resurslarında informasiya kirliliyi ilə bağlı rast gəlinən faktlar barədə danışıb, belə situasiyada dezinformasiyanın bir virus kimi yayıldığını qeyd edib: “Məhz bütün bunlara görə jurnalistika çox məsuliyyətli peşədir. Bu gün bir çox həmkarlar operativliyi dəqiqliyə qurban verirlər. Amma mətbuatda dəqiqlik peşəkarlığın əsas açarı sayılır”.

Hazırda vətəndaş jurnalistikasının genişləndiyindən söz açan Əməkdar jurnalist bunun mediaya ziyan vurduğunu, nüfuzunu aşağı saldığını deyib: “Jurnalistika peşədir və onunla peşəkarlar məşğul olmalıdır. Jurnalistikanı IV hakimiyyət adlandırırıqsa, burada materiallar etik dəyər və prinsiplərə əməl olunaraq hazırlanmalıdır”.

Müasir media resurslarının ənənəvi çap mediasını üstələdiyindən də söz açan “Ayna” və “Zerkalo” qəzetlərinin təsisçisi və baş redaktoru Elçin Şıxlı bunun mənfi və müsbət nəticələrinə toxunub. Qeyd edib ki, bu gün onlayn media platformalarında baş verən kiberhücum faktları və ya server problemləri illərlə yığılan məlumat bazalarını saniyələr içində yox edir. Bu baxımdan ənənəvi media üstünlüyünü qoruyur: "Jurnalistin yaradıcılıq məhsulu kağız resurslarda daha yaxşı qorunur. Amma müasirlikdən də geri qalmamalıyıq".

Dərsin davamında tələbələrin sualları cavablandırılıb. Sonda Jurnalistika fakültəsinin THİK sədri, IV kurs tələbəsi Nurlan Cəbrayılzadə layihənin davamında gözlənilən görüşlər barəsində məlumat verib və tələbələri prosesdə aktiv olmağa çağırıb. Qeyd edək ki, layihə may ayının sonunadək davam edəcək.

# BDU-da “MediaPulse” təcrübə proqramının növbəti görüşü

***Aprelin 23-də Bakı Dövlət Universitetinin “BDU könüllüləri” təşkilatının Jurnalistika fakültəsi üzrə könüllülərinin təşkilatçılığı ilə “MediaPulse” təcrübə proqramının növbəti görüşü keçirilib.***

Görüşün qonağı radio və televiziya aparıcısı Rauf Şirinov olub.

Jurnalistika fakültəsinin dekan müavini Samir Mirzəyev qonağın peşəkar fəaliyyəti haqqında məlumat verərək bu cür görüşlərin tələbələrin praktik biliklərinin artırılmasında mühüm əhəmiyyət daşıdığını qeyd edib.

Rauf Şirinov televiziya və radio sahəsində qazandığı təcrübəni tələbələrlə bölüşərək, canlı yayımların xüsusiyyətləri, efir etikası, auditoriya ilə ünsiyyət, eləcə də müasir media mühitinin tələbləri barədə ətraflı məlumat verib. O, xüsusilə operativlik, düzgün nitq, stresə davamlılıq və peşəkarlığın media sahəsində uğur üçün əsas amillər olduğunu diqqətə çatdırıb.

Tədbir çərçivəsində tələbələr media sahəsində karyera qurmaq, aparıcılıq bacarıqlarını inkişaf etdirmək və real iş mühitinə uyğunlaşmaqla bağlı suallar ünvanlayıblar.

Görüşün sonunda Rauf Şirinov gənclərə daim öz üzərlərində işləməyi, yeni bacarıqlar əldə etməyi, təcrübə proqramlarında aktiv iştirak etməyi və seçdikləri sahəyə sevgi ilə yanaşmağı tövsiyə edib.



# BDU-da “Azərbaycan dili - Açıq dərslər” layihəsinin növbəti qonağı dosent Xatirə Hüseynova olub

***Aprelin 22-də Bakı Dövlət Universitetində “BDU könüllüləri” təşkilatının təşəbbüsü ilə keçirilən “Azərbaycan dili - Açıq dərslər” layihəsinin növbəti qonağı BDU-nun Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının müdiri, dosent Xatirə Hüseynova olub.***

Xatirə Hüseynova iştirakçılarla dil mədəniyyətinin mühüm aspektləri ətrafında geniş fikir mübadiləsi apararaq, gündəlik ünsiyyətdə və rəsmi çıxışlarda Azərbaycan dilində düzgün, səlis və normativ qaydalara uyğun danışığın əhəmiyyətindən danışıb. Bildirib ki, dil yalnız ünsiyyət vasitəsi deyil, milli kimliyin və mədəni irsin əsas göstəricilərindəndir.

Dilin incəliklərinə toxunaraq söz seçiminin düzgün aparılmasının, fikrin aydın, məntiqli və anlaşıqlı şəkildə ifadə olunmasının vacibliyini diqqətə çatdıran dosent jest və bədən dilinin nitqin təsir gücünü artırdığını, onu daha inandırıcı və effektiv etdiyini deyib. Bununla yanaşı, səslərin düzgün tələffüzü, səs tonunun idarə olunması və nəfəs texnikasının nitqin keyfiyyətinə birbaşa təsir göstərdiyi vurğulanıb. Xatirə Hüseynova praktik nümunələr əsasında iştirakçılara bu bacarıqların inkişaf etdirilməsi yollarını izah edib, tələbələrə gündəlik həyatda nitqin inkişafı üçün sadə praktik vərdişləri öyrədib.

Sonda tələbələrin mövzu ilə bağlı sualları cavablandırılıb.

# BDU Məzunlar Cəmiyyətinin növbəti seminarı - “Azərbaycan kimliyinin əsası: yenən və yenilənən milli kimlik”

***Aprelin 10-da BDU-nun Məzunlar Cəmiyyətinin beşinci seminarı keçirilib.***

“Azərbaycan kimliyinin əsası: yenən və yenilənən milli kimlik” mövzusunda keçirilən seminarın məruzəçisi BDU-nun Sosial elmlər və psixologiya fakültəsinin məzunu, Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin müdiri, sosial elmlər üzrə fəlsəfə doktoru, dosent Orxan Vəliyev olub.

Universitetin beynəlxalq əlaqələr üzrə prorektoru Şahin Pənahov BDU məzunlarının ölkənin ictimai-siyasi, iqtisadi, sosial, mədəni həyatında mühüm rol oynadıqlarını bildirib. O, Ulu Öndər Heydər Əliyevin BDU-nun dünyaşöhrətli məzunu olduğunu xüsusi vurğulayaraq, bu faktın Universitetin tarixi ənənələrin və dövlətçilik məktəbinin formalaşmasındakı rolunun bariz göstəricisi olduğunu qeyd edib. Daha sonra prorektor seminar mövzusunun aktuallığına toxunaraq, müasir dövrdə milli kimlik, dövlətçilik və ictimai şüur məsələlərinin elmi baxımdan tədqiqinin xüsusi əhəmiyyət daşıdığını bildirib.




BDU-nun Sosial elmlər və psixologiya fakültəsinin məzunu, Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin müdiri, sosial elmlər üzrə fəlsəfə doktoru, dosent Orxan Vəliyev məruzəsində müasir Azərbaycan dövlətçiliyində milli kimlik anlayışının nəzəri əsaslarını və onun transformasiya prosesini geniş şəkildə təhlil edib. O qeyd edib ki, müasir dövrdə kimlik məsələsi yalnız etnik və tarixi çərçivədə deyil, həm də siyasi, sosial və institusional müstəvilərdə formalaşan çoxqatlı bir anlayış kimi çıxış edir.

Məruzəçi diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində tarixi Zəfərdən sonrakı dövrdə Azərbaycan cəmiyyəti yeni reallıqlar fonunda milli kimlik anlayışını yenidən dəyərləndirir. Bu mərhələdə kimlik artıq yalnız keçmişə bağlı deyil, gələcəyə yönəlmiş strateji bir dəyər kimi formalaşır. Bu yanaşma müstəqilliyini və ərazi bütövlüyünü tam təmin etmiş Azərbaycanın yeni inkişaf mərhələsinin ideoloji əsaslarını gücləndirir.

Çıxışda vurğulanıb ki, milli kimliyin formalaşmasında bir neçə fundamental komponent mühüm rol oynayır. Bunlara dil, tarix, coğrafiya, mədəni irs, din və dövlətçilik təcrübəsi daxildir. Dilin cəmiyyətin birləşdirici elementi olduğu, ortaq kommunikasiya mühitinin formalaşmasında əsas rol oynadığı qeyd edilib. Prezident İlham Əliyevin ana dilimizin qorunması ilə bağlı qarşıya qoyduğu tələblərin həm də milli kimliyimizin qorunmasına xidmət etdiyi diqqətə çatdırılıb.

Məruzəçi millətin, dövlətin tarixinin kollektiv yaddaşın qorunması və nəsillərarası identikliyin ötürülməsi baxımından əsas sütun olduğunu deyib. Coğrafiyanın isə Vətən anlayışının siyasi və mədəni məna kəsb etməsində mühüm faktor olduğunu bildirib.

Orxan Vəliyev çıxışında həmçinin Azərbaycan modelində din və dünyəvilik münasibətlərinin tarixi balans üzərində qurulduğunu qeyd edib. Onun sözlərinə görə, bu model cəmiyyət daxilində sabitliyin və tolerantlığın qorunmasına mühüm töhfə verir.

Türkçülük və azərbaycançılıq ideyalarının qarşılıqlı əlaqəsinə toxunan natiq qeyd edib ki, Azərbaycan kimliyi tarixi-mədəni baxımdan türk sivilizasiyasına bağlı olmaqla yanaşı, müasir dövlətçilik baxımından azərbaycançılıq ideologiyası üzərində formalaşır. Bu iki yanaşma bir-birini tamamlayan elementlər kimi çıxış edir.

Çıxışda qlobal siyasi və iqtisadi dəyişikliklər fonunda milli dövlətlərin adaptasiya imkanları da təhlil olunub. Bildirilib ki, müasir beynəlxalq sistemdə dövlətlər kimlik siyasətini gücləndirməklə yanaşı, qlobal inteqrasiyaya uyğun çevik strategiyalar formalaşdırmağa çalışırlar.

Orxan Vəliyev vurğulayıb ki, bu kontekstdə “milli inteqrativ siyasət” modeli Azərbaycanın gələcək inkişafında mühüm rol oynaya bilər. Bu model həm daxili sosial həmrəyliyin gücləndirilməsinə, həm də beynəlxalq müstəvidə daha effektiv mövqe formalaşdırılmasına xidmət edir.

Sonda qeyd olunub ki, milli kimliyin yenilənməsi prosesi daimi xarakter daşıyır və bu proses cəmiyyətin intellektual inkişafı, təhsil sistemi və elmi yanaşmalarla birbaşa bağlıdır.

Seminarın sonunda tələbə və məzunların sualları cavablandırılıb, geniş fikir mübadiləsi aparılıb və mövzu ətrafında müxtəlif elmi yanaşmalar müzakirə edilib.

# BDU-nun təbiət-dəqiq və texniki istiqamətlər üzrə 11 təhsil proqramı beynəlxalq akkreditasiyadan keçib

***Aprelin 13-də BDU-da magistratura səviyyəsində təbiət-dəqiq və texniki istiqamətlər üzrə tədris olunan 11 təhsil proqramı beynəlxalq akkreditasiyadan uğurla keçərək, müvafiq akkreditasiya sertifikatları ilə təltif olunub. Proqramların akkreditasiyası Qazaxıstanda fəaliyyət göstərən və Ali Təhsildə Keyfiyyət Təminatı üzrə Avropa Assosiasiyasının (ENQA) tamhüquqlu üzvü olan Təhsildə Keyfiyyətin Təminatı üzrə Müstəqil Agentliyi (IQAA) tərəfindən aparılıb.***

Ötən ay keçirilən akkreditasiya prosesi çərçivəsində təbiət-dəqiq və texniki istiqamətlər üzrə 11 ixtisaslaşma (“Bərk cisim elektronikası”, “Biofizika”, “Diskret sistemlər”, “Ekoloji kimya”, “Geokimya”, “Mikrobiologiya”, “Molekulyar biologiya”, “Nanomateriallar kimyası”, “Radiasiya materialşünaslığı”, “Riyazi analiz” və “Riyazi modelləşdirmə”) üzrə beynəlxalq ekspert komissiyaları tərəfindən Universitetdə kompleks və genişmiqyaslı qiymətləndirmə aparılıb. Prosedurlara uyğun olaraq keçirilən sahə səfəri zamanı ekspertlər tədris prosesini, idarəetmə mexanizmlərini və Universitetin ümumi fəaliyyətini yerində qiymətləndiriblər. Beynəlxalq ekspertlər Universitetin akademik və inzibati heyəti, tələbələr, məzunlar və işəgötürənlərlə görüşlər keçirərək təhsil proqramlarının məzmunu, müasir tədris metodları, keyfiyyət təminatı mexanizmləri və maddi-texniki baza ilə yaxından tanış olublar. Eyni zamanda, akkreditasiya prosesində Təhsildə Keyfiyyət Təminatı Agentliyinin nümayəndələrinin iştirakı da təmin edilib. Yekun qiymətləndirmə nəticələrinə əsasən, təbiət-dəqiq və texniki istiqamətlərə aid magistratura səviyyəsində tədris olunan 11 proqramın 5 il (27 mart 2031-ci il tarixinədək) müddətinə tam akkreditasiyadan keçirilməsi barədə qərar Akkreditasiya Komissiyaları tərəfindən qəbul edilib.

Qeyd edək ki, akkreditasiya prosesi BDU-da həyata keçirilən təhsil proqramlarının beynəlxalq standartlara uyğunluğunu bir daha təsdiqləməklə yanaşı, Universitetin akademik mühitinin inkişafına və qlobal rəqabətqabiliyyətinin daha da gücləndirilməsinə mühüm töhfə verir.

# BDU-da “CareerPlus” İnkişaf Proqramına dair infosessiya

***Aprelin 17-də BDU-da Elm və Təhsil Nazirliyinin dəstəyi və Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının (ATGTİ) təşkilatçılığı ilə həyata keçirilən “CareerPlus” Tələbə və Gənc Məzunların İnkişaf Proqramı çərçivəsində infosessiya təşkil olunub.***

BDU-nun Tələbə Gənclər Təşkilatının (TGT) sədri Harun Mehdiyev TGT-lərin gənclərin inkişafındakı rolundan danışıb. Bildirib ki, bu kimi layihələr tələbələrin potensialının üzə çıxarılması, liderlik keyfiyyətlərinin formalaşdırılması və onların əmək bazarına daha hazırlıqlı şəkildə inteqrasiyası baxımından mühüm əhəmiyyət daşıyır.

ATGTİ-nin İdarə Heyətinin üzvü, proqramın rəhbəri Nicat Əliyev "CareerPlus"un əsas istiqamətləri, proqramın strukturu, iştirak və seçim mərhələləri, eləcə də gənclərə təqdim etdiyi geniş imkanlar barədə ətraflı təqdimatla çıxış edib. BDU TGT-nin "CareerPlus klubu"nun sədri Hüseyn Hüseynli tələbələrin bu platforma vasitəsilə əldə edə biləcəyi üstünlüklər haqqında məlumat verib. O, tələbələri aktiv olmağa, layihələrdə iştirak etməyə və şəxsi inkişafları üçün mövcud imkanlardan maksimum yararlanmağa çağırıb.

# BDU-da elmi seminar: “Azərbaycan Respublikası Cənubi Qafqazda sülhün əsas təminatçısıdır”

***Aprelin 29-da Tarix fakültəsində “Azərbaycan Respublikası Cənubi Qafqazda sülhün əsas təminatçısıdır” mövzusunda elmi seminar keçirilib.***

Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrasının müdiri, dosent Mehman Abdullayev mövzunun aktuallığı və elmi əhəmiyyəti barədə məlumat verib. O bildirib ki, bu gün Azərbaycan Respublikası regionda təhlükəsizliyin möhkəmləndirilməsi, dövlətlərarası əməkdaşlığın inkişafı və münaqişələrin sülh yolu ilə həlli istiqamətində fəal siyasət həyata keçirir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin irəli sürdüyü sülh gündəliyi, ölkənin diplomatik təşəbbüsləri, beynəlxalq təşkilatlarla əməkdaşlığı və regional layihələrdə iştirakı sülh və qarşılıqlı etimad mühitinin formalaşmasına mühüm töhfə verir. Qeyd olunub ki, Prezident İlham Əliyev Azərbaycan və Ermənistan arasında sülhün təşviqi istiqamətində göstərdiyi səylərə görə “Sülh və barışıq üçün Gernika mükafatı”na layiq görülüb.

Elmi seminarda kafedranın professoru Sevda Süleymanova eyniadlı məruzə ilə çıxış edib. Məruzədə müasir dövrdə Azərbaycanın Cənubi Qafqaz regionunda sülhün və sabitliyin qorunmasında oynadığı rol geniş təhlil olunub. Bildirilib ki, ölkənin həyata keçirdiyi iqtisadi və nəqliyyat layihələri region dövlətləri arasında əlaqələrin güclənməsinə, qarşılıqlı əməkdaşlığın genişlənməsinə və sabitliyin möhkəmlənməsinə xidmət edir. Azərbaycanın beynəlxalq hüquq prinsiplərinə əsaslanan siyasəti və dialoqa açıq mövqeyi Cənubi Qafqazda uzunmüddətli sülhün təmin olunmasında mühüm amildir.

# BDU-da “Azərbaycan dili - Açıq dərslər” layihəsinin növbəti görüşü

*Aprelin 9-da Bakı Dövlət Universitetində “BDU könüllüləri” təşkilatının təşəbbüsü ilə keçirilən “Azərbaycan dili - Açıq dərslər” layihəsinin növbəti qonağı BDU-nun Türkologiya kafedrasının müdiri, professor Məhərrəm Məmmədov olub.*



Görüş zamanı professor Məhərrəm Məmmədov tələbələrə Azərbaycan dilinin inkişaf mərhələləri, onun müasir dövrdə qorunması və zənginləşdirilməsi istiqamətində görülən işlərdən danışıb. Türk dünyasında ortaq dil və mədəni irsin qorunması məsələlərindən, I Türkoloji qurultayın bu istiqamətdə oynadığı mühüm roldan söz açıb. Qeyd edib ki, bu cür elmi platformalar Azərbaycan dilinin digər türk dilləri ilə əlaqələrinin araşdırılması, ortaq terminologiyanın formalaşdırılması və dilimizin beynəlxalq səviyyədə tanıdılması baxımından xüsusi əhəmiyyət daşıyır.

Dilin inkişaf mərhələlərinin yalnız tarixi ardıcıllıq kimi deyil, həm də dilçilik baxımından sistemli şəkildə öyrənilməsinin vacib olduğunu deyən Məhərrəm Məmmədov Azərbaycan dilinin fonetik, leksik və qrammatik quruluşunda baş verən dəyişikliklərin tarixi dilçilik kontekstində təhlil edilməli olduğunu deyib. Bildirib ki, qloballaşma şəraitində dilin qorunması məsələsi yalnız normativ yanaşma ilə deyil, həm də elmi əsaslandırılmış terminoloji siyasətin formalaşdırılması, yeni anlayışların dilə adaptasiyası və milli dil resurslarının zənginləşdirilməsi ilə həyata keçirilməlidir. Bu baxımdan ortaq türk terminologiyasının yaradılması istiqamətində aparılan tədqiqatlar türkologiya çərçivəsində mühüm elmi nəticələr ortaya qoyur və Azərbaycan dilinin beynəlxalq elmi diskursda mövqeyinin güclənməsinə xidmət edir.

Görüş sual-cavab sessiyası ilə davam edib.

# BDU Əl-Fərabi adına Qazax Milli Universitetinə kitablar hədiyyə edib

*Aprelin 9-da BDU tərəfindən Əl-Fərabi adına Qazax Milli Universitetinə elmi və mədəni əməkdaşlığın inkişafına töhfə məqsədilə kitablar hədiyyə olunub.*

Hədiyyələr sırasında BDU-nun Mədəni irsi araşdırma Mərkəzinin direktoru Musa İsmayılov (Mərcanlı) tərəfindən hazırlanmış “İRS” jurnalının Qazax dilində nəşrləri, eləcə də “İRS” seriyası çərçivəsində işıq üzü görmüş bir sıra kitablar yer alıb. “İRS” seriyasına daxil olan nəşrlər Azərbaycanın tarixi, mədəni irsi və müasir inkişaf mərhələlərini əhatə edən mühüm mövzulara həsr olunub. Seriyanın kitabları arasında “Azərbaycan: yeni era”, “Tükənməz xəzinə”, “Sirlər xəzinəsi”, “Bakı simfoniyası”, “Daş keşikçiləri” və “Daşları toplamaq zamanıdır” kimi nəşrlər ölkənin müstəqillikdən sonrakı inkişaf yolu, milli irs və mədəni dəyərlərin beynəlxalq səviyyədə tanıdılmasını əks etdirir.

Bu aksiya mədəni əlaqələrin daha da möhkəmləndirilməsinə, Azərbaycanın zəngin tarixi və mədəni irsinin beynəlxalq elmi ictimaiyyətə təqdim olunmasına töhfə verir.

# BDU-da “Azərbaycanda gender qanunvericiliyinin inkişafı” mövzusunda tədbir

*Aprelin 13-da Sosial elmlər və psixologiya, Fizika fakültələrinin birgə təşkilatçılığı ilə “Azərbaycanda gender qanunvericiliyinin inkişafı” mövzusunda tədbir keçirilib.*



Sosial elmlər və psixologiya, Fizika fakültələrinin dekanları Rövşən Cavadov və Bəxtiyar Paşayev qeyd ediblər ki, Azərbaycanda gender problemlərinə hər zaman xüsusi diqqət ayrılıb, qadınların cəmiyyətdə layiqli yer tutması üçün normativ hüquqi baza formalaşdırılıb, institusional mexanizmlər yaradılıb. Ölkədə son illərdə həyata keçirilən sosial-iqtisadi islahatlar, əhalinin məşğulluğunun artırılması, sahibkarlığın inkişafı qadınların iqtisadi imkanlarının genişlənməsinə təkan verib və onlar arasında işsizlik səviyyəsinin azaldılmasına səbəb olub.

BDU-nun Yarımkeçiricilər fizikası kafedrasının professoru Adilə Abasova, Gender və tətbiqi psixologiya kafedrasının müdiri, professor Rəna İbrahimbəyova geniş məruzə ilə çıxış ediblər. Bildirilib ki, Azərbaycanda gender qanunvericiliyi Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə formalaşmağa başlayıb və bu sahədə mühüm qanunvericilik bazası yaradılıb. Xüsusilə 2006-cı ildə “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikası Qanununun qəbulu dövlət gender siyasətinin formalaşdırılmasına, ölkənin siyasi, sosial, iqtisadi və mədəni həyatında qadınların rolunun artırılmasına hüquqi və praktik zəmin yaradıb. 2010-cu ildə isə “Məişət zorakılığının qarşısının alınması haqqında” Qanun qəbul olunub. Qeyd edilib ki, bu qanunlar ictimai həyatın bütün sahələrində cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin aradan qaldırılmasına, bərabər imkanların yaradılmasına və hüquqi bərabərliyin təmin edilməsinə xidmət edir. Eyni zamanda, məişət zorakılığının qarşısının alınması, zərərçəkmiş şəxslərin sosial müdafiəsi və hüquqi yardımla təmin olunması istiqamətində mühüm mexanizmlər müəyyənləşdirilib.

Tədbirdə Sosial elmlər və psixologiya fakültəsinin Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrasının müdiri Rəbiyyət Aslanova, AMEA-nın müxbir üzvü Səlimə Mehdiyeva, professorlar - Ziba Ağayeva, Rəna Mirzəzadə, Zemfira Hacıyeva, Lalə Möhsümova və Fizika fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Məhəmməd Məhərrəmov qanunvericiliklə yanaşı, cəmiyyətdə düşüncə tərzinin dəyişməsinin də vacib olduğunu vurğulayaraq, maarifləndirici tədbirlərin əhəmiyyətini qeyd ediblər.

# Biologiya fakültəsində duzluluq stresinin bitkilərə təsiri tədqiq olunur

*Aprelin 6-da Biologiya fakültəsində müasir biologiya elminin prioritet istiqamətlərinin geniş auditoriyaya çatdırılması, elmi mühitin daha da gücləndirilməsi və gənc tədqiqatçıların aktual mövzular üzrə məlumatlandırılması məqsədilə növbəti elmi seminar keçirilib.*

Seminarda Botanika və bitki fiziologiyası kafedrasının doktorantı, Biomühəndislik elmi-tədqiqat laboratoriyasının elmi işçisi Böyükxanım Cəfərzadə “Duzadavamlılıq dərəcəsinə görə fərqlənən bitkilərdə antioksidant müdafiə sisteminin tədqiqi” mövzusunda məruzə ilə çıxış edib.

Məruzədə duzluluq stresinin bitkilərin fizioloji-biokimyəvi proseslərinə təsiri geniş və sistemli şəkildə təhlil edilib. Duzlu mühitdə yetişdirilən arpa, buğda və lobya bitkiləri üzərində aparılan tədqiqatların nəticələri təqdim olunub, həmin bitkilərdə cücərmə göstəriciləri, morfoloji parametrlər – kök və gövdə uzunluğu, biokütlə, eləcə də fizioloji və biokimyəvi xüsusiyyətlər kompleks şəkildə araşdırılıb.

Təqdimatda bitkilərdə su balansı, nisbi su tutumu, fotosintetik piqmentlərin vəziyyəti, antioksidant fermentlərin aktivliyi, qeyri-fermentativ komponentlərin dəyişmə dinamikası barədə ətraflı məlumat verilib. Qeyd olunub ki, duz stresinin intensivliyinin artması osmotik balansın pozulmasına, ion toksikliyinin güclənməsinə və oksidləşdirici stresin yüksəlməsinə səbəb olur ki, bu da bitkilərin böyümə, inkişaf və məhsuldarlıq göstəricilərinin zəifləməsi ilə nəticələnir.

Seminarda müxtəlif bitki növlərinin duzadavamlılıq səviyyəsinə görə müqayisəli təhlili də təqdim olunub. Bildirilib ki, duz stresinə daha davamlı bitkilərdə antioksidant müdafiə sistemi daha aktiv fəaliyyət göstərir və bu, reaktiv oksigen növlərinin zərərli təsirinin azaldılmasında mühüm rol oynayır. Məruzədə əldə olunan nəticələrin praktik əhəmiyyəti də vurğulanıb. Qeyd edilib ki, aparılan tədqiqatlar duzlu torpaq şəraitində kənd təsərrüfatı bitkilərinin seleksiyası, stresə davamlı sortların müəyyənləşdirilməsi, məhsuldarlığın qorunması və effektiv aqrotexniki tədbirlərin hazırlanması baxımından mühüm elmi əsas yaradır. Bu istiqamətdə aparılan araşdırmalar torpaq resurslarından səmərəli istifadə, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi və davamlı kənd təsərrüfatı modelinin formalaşdırılmasına töhfə verir. Sonda mövzu ətrafında fikir mübadiləsi aparılıb və iştirakçıların sualları cavablandırıb.

# Kimya-biologiya təmayüllü Respublika liseyinin şagirdləri BDU-da

*Aprelin 28-də Kimya-biologiya təmayüllü Respublika liseyinin şagirdləri BDU-nu ziyarət ediblər.*

Ziyarət çərçivəsində şagirdlər Universitetin müxtəlif bölmələri, Heydər Əliyev, Təkamül və Faydalı qazıntılar muzeyləri ilə yaxından tanış olublar. Sonra şagirdlər BDU-nun Sənaye kimyası elmi-tədqiqat laboratoriyasının fəaliyyət istiqamətləri barədə məlumatlandırılıblar.

Şagirdlərə BDU-nun yaranma tarixi, elmi, tədris və sosial fəaliyyəti, beynəlxalq uğurları, ixtisasları, tanınmış məzunları, tələbə təşkilatları haqqında da məlumat verilib.



# Görkəmli uşaq şairi Zahid Xəlil BDU-nun nəzdində “Gənc istedadlar” liseyinin şagirdləri ilə görüşüb

***Aprelin 6-da “BDU könüllüləri” təşkilatının “Ustaddan öyrən” layihəsi çərçivəsində Azərbaycan uşaq ədəbiyyatının görkəmli nümayəndəsi, yazıçı, şair, professor, “91-lər”in üzvü Zahid Xəlil Bakı Dövlət Universitetinin nəzdində "Gənc istedadlar" liseyinin şagirdləri ilə görüşüb.***

Görüş “Libra kitab” nəşriyyat evinin təşkilati dəstəyi ilə keçirilib.

BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov “Ustaddan öyrən” layihəsi çərçivəsində keçirilən görüşlərdən söz açıb. Bildirib ki, layihə gənc nəslin milli-mənəvi dəyərlər və vətənpərvərlik ruhunda inkişafını təmin etmək məqsədilə keçirilir: “Bugünkü qonağımız Zahid Xəlil Azərbaycan uşaq ədəbiyyatının tanınmış simasıdır. O, yaradıcılığının əsas hissəsini uşaqlar üçün şeir, nağıl, poema yazmağa həsr edib. Alimin “Azərbaycan uşaq poeziyası və folklor”u və



“Azərbaycan uşaq ədəbiyyatının mənşəyi, təşəkkülünün əsas amilləri və inkişaf problemləri” mövzusunda yazdığı namizədlik və doktorluq dissertasiyaları da bu sahənin geniş tədqiqinə həsr olunub. Düşünürəm ki, bu görüş şagirdlər üçün çox faydalı olacaq”.

“Gənc istedadlar” liseyinin direktoru Fuad Babayev görüşdə iştirak etdiyinə görə Zahid Xəlilə təşəkkürünü bildirib: “Zahid Xəlil uşaq psixologiyasını dərindən bilən yazıçılarımızdandır. Bu baxımdan onun yaradıcılığı uşaqlar tərəfindən çox sevilir”.

Görüşün moderatoru, BDU-nun Redaksiya-nəşriyyat işi kafedrasının müdiri Knyaz Aslan görkəmli alimin, şairin həyat yolu, yaradıcılığı haqqında məlumat verib. Qeyd edib ki, onun şeirlərinin əksəriyyəti uşaqları əməyə məhəbbət, həyatın mənasını başa düşmək, Vətəni sevmək, doğru danışmaq kimi gözəl hisslər ruhunda tərbiyə etməyə xidmət edir. Uşaqların sevə-sevə oxuduğu “Torağaylar oxuyur”, “Ballıca”, “Çıraq nənənin nağılları” kimi şeir və nağıllar Zahid Xəlil yaradıcılığının bəhrəsidir.

Daha sonra söz professor Zahid Xəlilə verilib. Dəvət üçün təşəkkürünü bildirən şair ədəbiyyata olan marağının uşaqlıq illərindən formalaşdığını qeyd edib. O, şagirdlərə öz tövsiyələrini verib, sevilən şeirlərindən parçalar səsləndirib: “Məktəb illərində mütaliə ilə məşğul olmaq gələcəyiniz üçün bir mayak rolunu oynayır. Onun üçün həmişə oxumağa, özünüzü inkişaf etdirməyə çalışın”.

Görüşün davamında liseyin şagirdləri Zahid Xəlilin şeirlərini səsləndirib, onun yaradıcılığı ilə bağlı suallar ünvanlayıblar. Liseyin şagirdi Nuray Həmidova hazırladığı hədiyyəni yazıçıya təqdim edib.

“Libra kitab” nəşriyyat evinin ictimai əlaqələr üzrə məsul şəxsi Günel Kamal tərəfindən liseyin şagirdlərinə hədiyyələr təqdim olunub. Sonda görkəmli şair liseyin şagirdlərinə imzalı kitablarını hədiyyə edib.

# BDU tələbələri Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunda tədris təcrübəsində

***Ekologiya və torpaqşünaslıq fakültəsinin “Torpaqşünaslıq və aqrokimya” ixtisası üzrə IV kurs tələbələrinin Kənd Təsərrüfatı Nazirliyinin Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunda tədris təcrübələri uğurla davam edir.***

Təcrübə institutun şöbə və laboratoriyaları ilə tanışlıqla başlayıb. Daha sonra tələbələr Aqrotexnologiya şöbəsində açıq və örtülü sahələrdə tərəvəz və bostan bitkilərinin becərilməsi zamanı torpağın seçilməsi və əkinə hazırlanması (gübrələnmə, şumlanma, malalanma, şırımlanma, su kanallarının açılması və s.), səpin və əkin prosesləri, aqrotexniki qulluq qaydaları ilə tanış olublar.

Seleksiya şöbəsində ilkin materialın seçilməsi, müxtəlif seleksiya metodları vasitəsilə yeni sort və hibridlərin əldə olunması, Toxumçuluq şöbəsində isə yerli və rayonlaşmış sortların ilkin toxumçuluğu barədə məlumat verilib. İstixana tərəvəzçiliyi şöbəsində



pomidor, bibər, badımcan, xiyar və kahı bitkilərinin örtülü şəraitdə becərilmə texnologiyası, seleksiyası və toxumçuluğu öyrədilib.

Funksional analizlər laboratoriyasında bitkilərin gübrələmə rejimləri, fizioloji göstəriciləri, torpaq, bitki və su analizləri, aqrokimyəvi maddələrin qalıqlarının təyini həyata keçirilib. Emal, saxlama və keyfiyyət laboratoriyasında məhsulların müasir üsullarla emalı, qurudulması və konservləşdirilməsi prosesləri nümayiş etdirilib.

Bitki mühafizəsi laboratoriyasında zərərli orqanizmlərə qarşı aqrotexniki, fiziki, kimyəvi və bioloji mübarizə üsulları, Aqrobiotexnologiya laboratoriyasında isə apikal meristem üsulu ilə kartofun mikroklonal artırılması və sağlam xətlərin əldə olunması prosesi izah edilib. Kartofçuluq şöbəsində yeni sortların yaradılması və becərilmə texnologiyası tələbələrə təqdim olunub.

Tələbələrin xüsusi marağına səbəb olan Funksional analizlər laboratoriyasında müasir cihazlar vasitəsilə müxtəlif analizlər aparılıb. Belə ki, İCP-OES cihazı ilə bitki, torpaq və su nümunələrində makro və mikroelementlərin təyini, qaz və maye xromatoqrafiya cihazları ilə pestisid qalıqlarının müəyyənləşdirilməsi, həmçinin tərəvəz bitkilərində quru maddə, şəkər, nişasta, nitrat və digər göstəricilərin analizi həyata keçirilib. Su nümunələrində isə nitrit, sulfat və xlorid ionlarının təyini üzrə analizlər aparılıb.

Təcrübə müddətində institut əməkdaşları tələbələrlə yaxından işləyərək onların suallarını cavablandırıb, praktiki biliklərinin artırılmasına dəstək göstəriblər.

# Şərqşünaslıq fakültəsinin tələbələri Misir Mədəniyyət Mərkəzində istehsalat təcrübəsində

***Aprelin 29-da Şərqşünaslıq fakültəsinin bakalavriat səviyyəsi üzrə “Filologiya” (ərəb dili və ədəbiyyatı üzrə) ixtisası üzrə buraxılış kurs tələbələrinin Misir Mədəniyyət Mərkəzində istehsalat təcrübəsi uğurla davam edir.***

Təcrübənin əsas məqsədi tələbələrin nəzəri biliklərini real mühitdə tətbiq etmələrinə şərait yaratmaq, onların ərəb dili üzrə kommunikativ bacarıqlarını gücləndirmək və peşəkar fəaliyyətə hazırlıq səviyyələrini artırmaqdan ibarətdir. Tələbələr misirli müəllimlərin iştirakı ilə təşkil olunan danışıq dərslərində fəal iştirak edir, canlı ünsiyyət şəraitində dil biliklərini təkmilləşdirirlər.

Tələbələr Mərkəzin kitabxanasında müxtəlif mətnlərin tərcüməsi ilə məşğul olur, ərəb dilindən Azərbaycan dilinə və əksinə tərcümə bacarıqlarını inkişaf etdirirlər. Təcrübə müddətində onların analitik düşünmə, mətn üzərində işləmə və terminoloji dəqiqlik kimi peşəkar keyfiyyətləri də formalaşır.

Proqram çərçivəsində tələbələr həmçinin müxtəlif dinləmələrdə, təqdimatlarda və mədəni tədbirlərdə iştirak edərək ərəb dünyasının dili, ədəbiyyatı və mədəniyyəti ilə bağlı biliklərini daha da genişləndirirlər. Bu kimi fəaliyyətlər tələbələrin dünyagörüşünün artmasına və beynəlxalq mühitdə ünsiyyət bacarıqlarının formalaşmasına mühüm töhfə verir.

Qeyd edək ki, istehsalat təcrübəsinin bu cür beynəlxalq mühitdə təşkili tələbələrin gələcək karyera imkanlarının genişlənməsinə, onların əmək bazarına daha hazırlıqlı şəkildə inteqrasiyasına xidmət edir.

# Jurnalistika fakültəsi üzrə THİK üzvləri BDU-nun tarixi muzeyini ziyarət ediblər

***Aprelin 29-da Jurnalistika fakültəsinin Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) üzvləri BDU-nun tarixi muzeyinin yenidənqurmadan sonra ilk ziyarətçiləri olublar.***

BDU-nun tarixi muzeyinin müdiri Günel Orucəliyeva Muzeyin 1920-ci ildə fəaliyyətə başladığını, 2010-cu ildə tam yenilərək Universitetin inkişaf yolunu əks etdirən mərkəzə çevrildiyini deyib. Bildirib ki, Azərbaycan Xalq Cümhuriyyəti, sovet hakimiyyəti və müstəqillik illərinə dair məlumat və eksponatlar, tədris prosesində istifadə olunan avadanlıq və cihazları təqdim etməklə üç ekspozisiyaya bölünən Muzeydə Universitet və fakültələrin tarixi əks olunub.

Tələbələr muzeydə BDU-nun zəngin tarixini və uğurlarını əks etdirən eksponatlarla tanış olublar. Azərbaycan xalqının Ümummilli Lideri, BDU-nun dünya şöhrətli məzunu Heydər Əliyev və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə verilmiş Universitetin Fəxri doktoru diplomları, Universitetin Fəxri doktoru adına layiq görülmüş digər müxtəlif ictimai-siyasi, elm xadimlərinin fotoşəkilləri, onlara verilən diplom nümunələri tələbələrdə xüsusi maraq doğurub. Ən çox diqqət çəkən eksponatlardan biri də BDU-nun tədris korpuslarının 1960-cı illərdə hazırlanmış layihəsidir. Qeyd olunub ki, məhz bu layihə əsasında 1965-ci ildə Universitetin Yasamal rayonu ərazisində ilk tədris korpusu tikilib.

# BDU-da Ümumdünya Autizm Maarifləndirmə Gününə həsr olunmuş rəsm üzrə ustad dərsi

***Aprelin 6-da "BDU könüllüləri" təşkilatı və "Birgə və Sağlam" İctimai Birliyinin birgə təşəbbüsü ilə 2 aprel – Ümumdünya Autizm Maarifləndirmə Gününə həsr olunmuş rəsm üzrə ustad dərsi keçirilib.***

"BDU könüllüləri" təşkilatının layihələrin idarə edilməsi və təşkilatlarla iş üzrə meneceri Mədinə Xəlilova bu cür təşəbbüslərin autizmli şəxslərin cəmiyyətə inteqrasiyası və asudə vaxtlarının səmərəli keçirilməsi baxımından faydalı olduğunu bildirib.



Ustad dərsində "Birgə və Sağlam" İctimai Birliyindən autizm fərqindəliyi olan uşaqlar və BDU könüllüləri birlikdə müxtəlif mövzularda rəsmlər çəkiblər. Tədbir çərçivəsində iştirakçılar arasında qarşılıqlı ünsiyyət, dəstək və anlaşma mühiti formalaşıb. Könüllülər uşaqlarla fərdi şəkildə maraqlanaraq onların yaradıcılıq prosesinə dəstək olublar.

Daha sonra qonaqlar üçün Universitetdə fəaliyyət göstərən Heydər Əliyev muzeyi, BDU-nun tarixi muzeyi, Təkamül muzeyi və Faydalı qazıntılar muzeyinə infotur təşkil edilib.

# BDU-da Qərbi Azərbaycan mövzusunda ustad dərsi

***Aprelin 9-da İnformasiya və sənəd menecmenti fakültəsində professor-müəllim heyətinin və tələbələrin iştirakı ilə "Qərbi Azərbaycanla bağlı tarixi reallıqlar alman alimlərinin tədqiqatlarında" mövzusunda ustad dərsi keçirilib.***

Ustad dərsində Milli Məclisin deputatı, siyasi elmlər doktoru Rizvan Nəbiyev mövzu üzrə məruzə edib. Natiq bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tarixi Zəfərlə bitən Vətən müharibəsindən sonra Qarabağa və Şərqi Zəngəzura böyük qayıdışın başlaması tarixi torpaqlarımız olan Qərbi Azərbaycana qayıdışı da şərtləndirir. Ona görə də bu istiqamətdə tədqiqatların aparılması, tarixi reallıqların ortaya çıxarılması qarşımızda prioritet vəzifə kimi dayanır.




Alman alimlər - siyasi elmlər doktoru, professor Rüdiqer Kipke, tarix elmləri doktoru, professor Yohannes Rau, filologiya elmləri doktoru Mixael Raynhard Hess, dosent Matthias Dornfeldt və hüquq elmləri doktoru, professor Hans-Yoaxim Hayntsenin 2007-2023-cü illərdə nəşr olunmuş əsərlərində yer alan faktlar və təhlillər əsasında təqdim olunan məruzədə ermənilərin tarixi Azərbaycan torpaqlarına kütləvi surətdə köçürülməsi, məkrli şəkildə sosial-iqtisadi zəmində yaratdıqları gərginliklər və bütün bunların erməni hiyləgərliyi ilə siyasi iddialara, təxribatlar və terror əməlləri ilə etnik münaqişəyə çevrilməsindən bəhs olunub. Rizvan Nəbiyev Türkmənçay müqaviləsindən sonra Çar Rusiyası tərəfindən İrəvan, Zəngəzur, Naxçıvan və Qarabağa ermənilərin kütləvi şəkildə köçürülməsini alman tədqiqatçıların əsərlərində yer almış tarixi faktlar əsasında şərh edib: "Alman tədqiqatçı Kipke yazır ki, hətta demoqrafik balansın müsəlmanların əleyhinə dəyişməsinə və xristian dayaq məntəqəsi yaratmağa xidmət edən köçürmələrə baxmayaraq, XIX əsrin 70-ci illərində İrəvan quberniyasında əhalinin 70%-i müsəlmanlar, azərbaycanlılar idilər". Məruzədə həmçinin professor Kipkenin tədqiqatlarında əksini tapan, azərbaycanlılara qarşı törədilən mart qırğınları, həmin hadisələrə rəhbərlik edən Anastas Mikoyanın qanlı cinayətləri, eləcə də 1948-1953-cü illərdə soydaşlarımızın tarixi torpaqlarımızdan kütləvi deportasiyası barədə faktlar təqdim olunub.

Millət vəkili Rizvan Nəbiyev Qərbi Azərbaycan ərazisində maddi-mədəni irsin, dini-etiqad yerlərinin, qəbiristanlıqların və digər abidələrin sistemli surətdə məhv edilməsi, toponimlərin dəyişdirilməsi barədə də geniş məlumat verib, bütün bunların beynəlxalq konvensiyalara və beynəlxalq hüquqi öhdəliklərə zidd olduğunu vurğulayıb.

Ustad dərsi maraqla dinlənilib, mövzu ilə bağlı geniş fikir mübadiləsi aparılıb, əməkdaş və tələbələrin çoxsaylı sualları cavablandırılıb.

# BDU-da "Şəhərsalma və Memarlıq İli" çərçivəsində ustad dərsi

***Aprelin 15-də Jurnalistika fakültəsində 2026-cı ilin Azərbaycanda "Şəhərsalma və Memarlıq İli" elan olunması ilə əlaqədar ustad dərsi təşkil olunub.***

AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun İslam dövrü arxeologiyası şöbəsinin aparıcı elmi işçisi, mədəni irs mütəxəssisi Fariz Xəlilli "Yeni şəhərlərin salınmasında memarlıq abidələrinin qorunması prinsipləri" mövzusunda məruzə ilə çıxış edib. Məruzədə müasir şəhərsalma siyasətində tarixi-mədəni irsin qorunmasının əhəmiyyəti, urbanizasiya prosesində memarlıq abidələrinin inteqrasiyası, yeni yaşayış məkanlarının planlaşdırılmasında milli memarlıq ənənələrinin saxlanılması məsələləri geniş təqdim olunub.

Fariz Xəlilli bildirib ki, yeni şəhərlərin qurulması yalnız müasir infrastrukturun yaradılması ilə məhdudlaşmamalı, tarixi və mədəniyyət yaddaşını qoruyan memarlıq nümunələrinin yaşadılmasına xidmət etməlidir. O, xüsusilə azad edilmiş ərazilərdə həyata keçirilən yenidənqurma və bərpa işlərinin şəhərsalma baxımından strateji əhəmiyyət daşıdığını vurğulayıb.

Tədbir interaktiv müzakirə formatında davam edib. Tələbələr şəhər planlaşdırılması, tarixi abidələrin mühafizəsi, şəhərsalma məsələlərinin mediada işıqlandırılması ilə bağlı suallar ünvanlayaraq mövzu ətrafında fikir mübadiləsi aparıblar.

# BDU-da Xəzər dənizinin səviyyə tərəddüdlərinin yaşayış məntəqələrinə təsirinə dair ustad dərsi

***Aprelin 8-də Coğrafiya fakültəsində Elm və Təhsil Nazirliyinin Coğrafiya İnstitutunun Xəzər dənizinin coğrafiyası laboratoriyasının aparıcı elmi işçisi, coğrafiya elmləri doktoru, professor Əmir Əliyevin "Xəzərin səviyyəsinin tərəddüdlərinin sahil zonasında məskunlaşmaya və yaşayış məntəqələrinə təsiri" mövzusunda ustad dərsi keçirilib.***

Ustad dərsi "Şəhərsalma və Memarlıq İli"nə həsr olunub.

Azərbaycan coğrafiyası və coğrafiyanın tədrisi metodikası kafedrasının müdiri, dosent Saleh Nağıyev müasir dövrdə Xəzər dənizinin səviyyəsində baş verən çoxillik tərəddüdlərin yaratdığı sosial-iqtisadi problemlərə diqqət çəkərək, bu istiqamətdə fundamental tədqiqatların aparılmasının əhəmiyyətini vurğulayıb.

Professor Əmir Əliyev Xəzər dənizinin müasir coğrafi şəraiti, su balansı elementləri, dənizin səviyyə tərəddüdlərinin müxtəlif çoxillik trendlər üzrə tədqiqinin nəticələri barədə geniş məlumat verib. Dəniz ekosisteminin funksiyasına, eləcə də səviyyə tərəddüdlərinin dinamikasına təsir edən tektonik, iqlim və antropogen amillərin qarşılıqlı əlaqəsini izah edib. Dənizin dib geomorfologiyasında baş verən tektonik hərəkətliliyin səviyyə tərəddüdlərinə təsir göstərdiyini vurğulayıb. Məruzə zamanı dənizdə baş verən səviyyə tərəddüdlərinin sahil zonasında məskunlaşmaya və yaşayış məntəqələrinin inkişafına təsiri tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Ustad dərsində professor Məqsəd Qocamanov, dosentlər İradə Əliyeva, Ələkbər Həsənəliyev, coğrafiya üzrə fəlsəfə doktoru Şəfiqə Hümbətova tədqiqat mövzusunun aktual, metodik yanaşmanın isə innovativ olduğunu vurğulayıb, bu istiqamətdə elmi tədqiqatların davam etdirilməsini tövsiyə ediblər.

# BDU-da ustad dərsi: "Peyk məlumatlarının şəhərsalma və kadastr işində tətbiqi"

***Aprelin 17-də Coğrafiya fakültəsində "Şəhərsalma və Memarlıq İli" çərçivəsində "Peyk məlumatlarının şəhərsalma və kadastr işində tətbiqi" mövzusunda ustad dərsi keçirilib. Ustad dərsini "Azərkosmos"un Coğrafi İnformasiya Sistemləri (CİS) Mərkəzinin məhsulun inkişafı üzrə böyük mütəxəssisi Elman Ələsgərov aparıb.***

Coğrafiya fakültəsinin dekanı, professor Məqsəd Qocamanov müasir dövrdə şəhərsalma və kadastr işinin təşkilində peyk məlumatlarından istifadənin vacibliyini qeyd edib. O, bu sahədə peyk müşahidəsi, məsafədən zondlama və coğrafi informasiya sistemlərinin tətbiqinin əhəmiyyətini vurğulayıb.

Elman Ələsgərov çıxışında peyk məlumatlarının xüsusiyyətləri, əldə olunmuş təsvirlərin geoinformasiya texnologiyaları vasitəsilə emalı, eləcə də şəhərsalma və şəhərlərin planlaşdırılmasında tətbiqi barədə ətraflı məlumat verib. Müasir peyklərin Yer səthini müşahidə imkanları və real vaxt rejimində təhlillərin aparılmasının üstünlükləri diqqətə çatdırılıb.

Qeyd olunub ki, peyk məlumatları şəhərsalma və kadastr sahəsi ilə yanaşı, şəhərlərin ekoloji mühitinin monitorinqi, təbii hadisələrin və fəlakətlərin təsirlərinin öyrənilməsi, həmçinin infrastruktur sıxlığının yaratdığı istilik adaları (UHI) effektinin tədqiqində effektiv vasitədir. Təqdimatda geoməkan texnologiyaları, qlobal və regional peyk naviqasiya sistemləri, kadastr xəritələri və termal təsvirlər barədə də məlumat verilib.

Elmi seminarda professor Məqsəd Qocamanov, dosentlər Saleh Nağıyev, Ramiz Əhlimanov, İradə Əliyeva, baş müəllim Mübariz Orucov və digər iştirakçılar mövzunun aktuallığını qeyd edib, təqdim olunan metodik yanaşmanın innovativ xarakter daşıdığını vurğulayaraq bu istiqamətdə elmi tədqiqatların davam etdirilməsini tövsiyə ediblər.

# BDU-nun Arxeologiya Tədris-Tədqiqat Mərkəzi silsilə elmi seminarlara başlayıb

***Aprelin 2-də BDU-nun Arxeologiya Tədris-Tədqiqat Mərkəzinin təşkilatçılığı ilə elmi seminarlar silsiləsinin ilk görüşü keçirilib. Seminarda AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun Fiziki antropologiya laboratoriyasının müdiri Vüsal Həsənov "Bioarxeologiya: insan qalıqları əsasında keçmişin yenidən qurulması" mövzusunda məruzə ilə çıxış edib.***

Bioarxeologiyanın insan qalıqlarının arxeoloji kontekstdə öyrənilməsi ilə məşğul olan multidissiplinar elm sahəsi kimi xarakterizə olunduğunu deyən Vüsal Həsənov bu istiqamətin əsasən antropologiya, arxeologiya və biologiya elmlərinin kəsişməsində formalaşaraq qədim cəmiyyətlərin həyat tərzi, sağlamlıq vəziyyəti və demoqrafik xüsusiyyətləri haqqında ətraflı məlumatların əldə olunmasına imkan yaratdığını deyib. Bildirib ki, tədqiqatlar zamanı skelet qalıqları, diş strukturları və digər bioloji izlər analiz edilərək fərdlərin yaş həddi, cinsiyyəti, xəstəlikləri və qidalanma xüsusiyyətləri müəyyənləşdirilir. Bu araşdırmalar qədim populyasiyaların sosial strukturu, miqrasiya prosesləri və ətraf mühitə uyğunlaşma mexanizmlərinin öyrənilməsində mühüm rol oynayır. Xüsusi və müasir metodların tətbiqi nəticəsində fərdlərin coğrafi mənşəyi və genetik əlaqələri haqqında daha dəqiq nəticələr əldə edilir. Bununla yanaşı, sümük toxumalarında müşahidə olunan patoloji dəyişikliklər vasitəsilə qədim dövrlərdə yayılmış xəstəliklər və həyat şəraiti barədə elmi əsaslar formalaşdırılır.

Vüsal Həsənov Azərbaycan ərazisində ibtidai icma quruluşundan başlayaraq erkən tarixi mərhələlərə qədər dəfn adətlərindən söz açaraq qeyd edib ki, Paleolit və Mezolit dövrlərində əsasən sadə torpaq qəbirlər və təbii sığınacaqlarda dəfn halları üstünlük təşkil edib. Neolit dövründə yaşayış məskənlərinin daxilində və ya yaxınlığında dəfn ənənəsi formalaşıb. Eneolit dövründə torpaq qəbirlərlə yanaşı, saxsı küplərdə dəfn və ilkin kurqan tipli qəbirlər meydana çıxıb. Tunc dövrü ərzində isə qəbir formalarının daha da mürəkkəbləşdiyi, kurqanlar, daş qutu qəbirlər, katakomba tipli qəbirlər və kollektiv dəfn abidələrinin geniş yayılması müşahidə edilib: "Arxeoloji və antropoloji tədqiqatlarda aşkar edilən müxtəlif cür qəbirlərdə bioarxeoloji araşdırmalara dövrün aydın təsvirini yarada bilirik. Bu iş səbr, diqqət və məsuliyyət tələb edir".

Bioarxeoloji tədqiqatların ölkəmizdə son dövrlər meydana gəldiyini və buna qədər əsasən klassik arxeologiya və antropologiya çərçivəsində işlərin aparıldığını deyən AMEA-nın laboratoriya müdiri DNT analizi, izotop analizi və paleopatoloji tədqiqat metodlarının tətbiqi ilə bağlı da iştirakçıları məlumatlandırıb.

Sonda tələbələrin sualları cavablandırılıb.

# BDU-da təlim: "Şəxsi sərhədlər və emosional rifah"



***Aprelin 9-da BDU-nun Psixoloji yardım sektoru "Şəxsi sərhədlər və emosional rifah" mövzusunda təlim keçirib.***

Təlimdə Universitetin müxtəlif fakültələrindən tələbələrlə yanaşı, Özbəkistanın Əlişir Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universitetinin Psixoloji mərkəzinin rəhbəri, dosent Boboyor Turayev də iştirak edib.

Təlim çərçivəsində sektorun psixoloqu İlkanə Mənsumova iştirakçılara şəxsi sərhədlərin nəzəri əsasları, sağlam və qeyri-sağlam sərhəd modelləri, assertiv ünsiyyət bacarıqları və emosional rifahın əsas komponentləri haqqında ətraflı məlumat verib. İnteraktiv müzakirələr və praktiki tapşırıqlar vasitəsilə mövzu iştirakçılar tərəfindən daha dərindən mənimsənilib.

Təlim müddətində iştirakçılar öz sərhədlərini tanımaq, onları ifadə etmək və gündəlik həyatlarında tətbiq etmək istiqamətində praktik bacarıqlar əldə edib, emosional rifahın qorunması üçün effektiv strategiyalarla tanış olublar.

Təlim qarşılıqlı fikir mübadiləsi və sual-cavab sessiyası ilə yekunlaşıb.

Bu kimi maarifləndirici tədbirlər Universitet mühitində psixoloji rifahın gücləndirilməsinə, sağlam ünsiyyət mədəniyyətinin formalaşmasına və beynəlxalq təcrübə mübadiləsinin inkişafına mühüm töhfə verir.

# BDU-da "Şəhərsalma və Memarlıq İli"nə həsr olunmuş elmi seminar

***Aprelin 7-də İnformasiya və sənəd menecmenti fakültəsində "Şəhərsalma və Memarlıq İli"nə həsr olunmuş elmi seminar keçirilib. Elmi seminarda BDU-nun Sənəd menecmenti kafedrasının müdiri, dosent Nadir İsmayılov "Türk dünyasının mədəniyyət paytaxtı Şuşa şəhərinin memarlıq abidələrinə dair informasiya resursları" mövzusunda məruzə edib.***

Nadir İsmayılov ölkəmizdə 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi haqqında Prezident İlham Əliyevin 22 dekabr 2025-ci il tarixli Sərəncamının əhəmiyyətini vurğulayıb, bu istiqamətdə müxtəlif aspektlərdən elmi-tədqiqat işlərinin aparılmasının vacibliyini diqqətə çatdırıb.

Məruzədə Şuşa şəhərinin zəngin memarlıq irsi, tarixi-mədəni abidələrinin informasiya resurslarında əks olunma xüsusiyyətləri geniş təhlil edilib. Qeyd olunub ki, Şuşa şəhəri yalnız Azərbaycanın deyil, bütövlükdə Türk dünyasının mühüm mədəniyyət mərkəzlərindən biri kimi xüsusi əhəmiyyət daşıyır və şəhərin memarlıq abidələrinin sistemli şəkildə sənədləşdirilməsi, rəqəmsallaşdırılması və beynəlxalq informasiya məkanına inteqrasiyası aktual məsələlərdəndir.

Tədqiqatda mövzu ilə bağlı həm memarlıq abidələrinin, həm də bu abidələrə dair formalaşmış informasiya resurslarının arxitekturası kompleks şəkildə təhlil edilib. Sənəd əsaslı və rəqəmsal resurslar müqayisəli şəkildə öyrənilib, onların struktur xüsusiyyətləri, informativlik səviyyəsi və elmi dövriyyədə istifadəsi məsələləri şərh olunub. Bildirilib ki, bu resursların sistemli təhlili memarlıq irsinin daha dolğun öyrənilməsinə və bu sahədə effektiv informasiya təminatının formalaşdırılmasına imkan yaradır. Məruzədə həmçinin memarlıq irsinə dair informasiya resurslarının formalaşdırılması prosesində kitabxana- informasiya müəssisələrinin rolu, müasir metadata standartlarının tətbiqinin əhəmiyyəti və bu istiqamətdə həyata keçirilən layihələr diqqətə çatdırılıb.

Elmi seminar müzakirələrlə davam edib.

# "Atəşgah Sığorta" şirkətinin əməkdaşı BDU-da təlim keçib

***Aprelin 9-da "Atəşgah Sığorta" şirkətinin İnsan resurslarının idarə edilməsi şöbəsinin motivasiya sistemləri üzrə mütəxəssisi Nazənin Qarayeva Bakı Dövlət Universitetində "Düzgün CV hazırlanması və müsahibə texnikaları" mövzusunda maarifləndirici təlim keçib.***

Təlimin əsas məqsədi iştirakçıları müasir əmək bazarının tələbləri ilə yaxından tanış etmək, onların işə qəbul prosesində rəqabət qabiliyyətini artırmaq, uğurlu karyera başlanğıcı üçün zəruri olan praktiki bilik və bacarıqlarını inkişaf etdirmək olub. Tələbələrə iş axtarışı prosesində düzgün istiqamət seçimi, özlərini effektiv təqdimetmə və işəgötürənlərlə peşəkar ünsiyyətqurma yolları izah edilib.

Təlimçi peşəkar CV-də şəxsi məlumatların təqdim olunma qaydasını, təhsil və iş təcrübəsinin ardıcıllığını, bacarıqların effektiv şəkildə vurğulanmasını, eləcə də işəgötürənlərin diqqət yetirdiyi əsas məqamları iştirakçıların diqqətinə çatdırıb. Bundan əlavə, uğurlu və uğursuz CV nümunələrinin müqayisəli təhlili aparılaraq, real iş təcrübəsinə əsaslanan tövsiyələr təqdim olunub.

Müsahibə mərhələsinə xüsusi yer ayrılan təlimdə namizədlərin davranış qaydaları, ilk təəssüratın formalaşdırılması, bədən dili, ünsiyyət bacarıqları və stresin idarə olunması kimi vacib məsələlər geniş izah edilib. Müsahibələrdə tez-tez verilən suallar, bu suallara düzgün və strateji yanaşma üsulları, həmçinin fərqlənmək üçün istifadə oluna biləcək effektiv cavab modelləri iştirakçılarla bölüşülüb.

İnteraktiv formatda təşkil olunmuş təlimdə tələbələrin sualları cavablandırılıb, müxtəlif praktiki tapşırıqlar və müsahibə simulyasiyaları yerinə yetirilib.

# BDU-da memarlıq və şəhərsalmada fizika qanunlarının tətbiqi müzakirə olunub

***Aprelin 8-də Fizika fakültəsi Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə "Şəhərsalma və Memarlıq İli"nə həsr olunmuş tədbirlər çərçivəsində "Fizika bu gün" adlı elmi seminar keçirilib.***

Seminar zamanı fakültənin II kurs tələbələri Ülkər Mirzəyeva və Qəmər Neymətova "Memarlığın fizikası: bərpa və dayanıqlılıq" mövzusunda məruzə ilə çıxış ediblər. Tələbələr Azərbaycan memarlığının tarixi inkişaf mərhələlərinə nəzər salaraq, Ümummilli Lider Heydər Əliyevin şəhərsalma və memarlıq siyasətində oynadığı rolu xüsusi vurğulayıblar. Qeyd edilib ki, paytaxt Bakıda bir sıra mühüm memarlıq layihələri məhz onun rəhbərliyi dövründə reallaşdırılıb və hazırda bu strateji istiqamət Prezident İlham Əliyevin rəhbərliyi ilə, xüsusilə işğaldan azad olunmuş ərazilərdə sistemli şəkildə davam etdirilir.

Çıxışlarda şəhərsalma və memarlıq sahəsində fizika qanunlarının tətbiqinin fundamental əhəmiyyəti geniş şəkildə təhlil olunub. Vurğulanıb ki, mexanika qanunları tikililərin konstruktiv dayanıqlılığını və xarici təsirlərə davamlılığını təmin edir, termodinamika prinsipləri isə enerji səmərəliliyinin yüksəldilməsində və istilik itkilərinin minimuma endirilməsində mühüm rol oynayır. Elektromaqnetizm və hərəkət dinamikası enerji paylanması və nəqliyyat sistemlərinin səmərəli təşkili baxımından əhəmiyyətli hesab olunur. Eyni zamanda, optika qanunları, xüsusilə tərsinə kvadrat qanunu məkanların rasional işıqlandırılmasının təmin edilməsində əsas rol oynayır, səthlərin fiziki xüsusiyyətləri isə işığın paylanmasına və vizual mühitin formalaşmasına birbaşa təsir göstərir.

# BDU-da "Memarlıq və Şəhərsalma İli"nə həsr olunmuş xüsusi elmi seminar keçirilib



***Aprelin 3-də Ekologiya və torpaqşünaslıq fakültəsinin Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə "Memarlıq və Şəhərsalma İli"nə həsr olunmuş xüsusi elmi seminar keçirilib.***

Seminarda fakültənin IV kurs tələbələri Arzu Əsgərova və Lamiyə Hüseynova "Bakı və Sumqayıt şəhərlərində suyun ekokimyəvi tərkibinin müqayisəsi" mövzusunda çıxış ediblər. Tədqiqat çərçivəsində Bakı və Sumqayıt şəhərlərinin su ehtiyatlarının, xüsusilə içməli və səth sularının ekokimyəvi göstəriciləri müqayisəli şəkildə təhlil olunub. Su nümunələrində ağır metalların (qurğuşun, kadmium, mis, sink və s.), neft məhsullarının, pH səviyyəsinin, mineral maddələrin və digər çirkləndiricilərin konsentrasiyası müəyyən edilib. Nəticələr göstərib ki, sənaye müəssisələrinin sıx yerləşdiyi Sumqayıt şəhərində suyun çirklənmə səviyyəsi Bakıya nisbətən daha yüksəkdir. Xüsusilə neft-kimya sənayesinin təsiri nəticəsində bəzi göstəricilərin normadan artıq olduğu qeyd olunub. Bakı şəhərində isə daha çox şəhərsalma və nəqliyyatın təsiri müşahidə edilib. Məruzəçilər suyun keyfiyyətinin yaxşılaşdırılması üçün monitorinqin gücləndirilməsi, təmizləyici qurğuların modernləşdirilməsi və ekoloji nəzarətin artırılması kimi təkliflər irəli sürüblər.

Daha sonra fakültənin IV kurs tələbəsi Səkinə Hacıyeva "Azərbaycanın Xəzəryanı ərazilərinin davamlı inkişafının ekocoğrafi aspektləri" mövzusunda məruzə edib. Məruzədə Xəzər dənizi sahili zonalarının (Abşeron, Xaçmaz, Lənkəran və digər rayonlar) ekocoğrafi xüsusiyyətləri, iqlim dəyişikliklərinin təsiri, dəniz səviyyəsinin qalxması, torpaq eroziyası, bioloji müxtəlifliyin azalması və antropogen yükün artması kimi problemlər geniş təhlil olunub. Tədqiqatda davamlı inkişaf prinsipləri çərçivəsində bu ərazilərdə ekoloji tarazlığın qorunması, yaşıl infrastrukturun inkişafı və təbii ehtiyatlardan səmərəli istifadə yolları araşdırılıb. Məruzəçi Xəzəryanı zonalarda həyata keçirilən şəhərsalma və memarlıq layihələrində ekoloji meyarların ön plana çıxarılmasının vacibliyini vurğulayıb.

Məruzələr iştirakçılar tərəfindən maraqla dinlənilib, tələbələr ünvanlanan sualları ətraflı cavablandırıblar. Seminarın sonunda məruzəçilərə kitablar və sertifikatlar təqdim olunub.

# BDU-da Azərbaycanın regional iqtisadi təhlükəsizliyin təmin olunmasında mühüm rolu araşdırılır

***Aprelin 6-da Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsində "Beynəlxalq nəqliyyat dəhlizləri və Azərbaycanın regional iqtisadi təhlükəsizlik problemləri" mövzusunda elmi seminar keçirilib.***

Seminarda Dünya iqtisadiyyatı kafedrasının dosenti, iqtisad elmləri üzrə fəlsəfə doktoru Habil Aslanov məruzə ilə çıxış edib. O, çıxışı zamanı beynəlxalq nəqliyyat dəhlizlərinin qlobal və regional iqtisadi sistemdə artan rolunu geniş şəkildə təhlil edib.

Məruzəçi Azərbaycanın əlverişli coğrafi mövqeyinə diqqət çəkərək bildirib ki, ölkə Şərq-Qərb nəqliyyat dəhlizi və Şimal-Cənub nəqliyyat dəhlizi kimi mühüm marşrutların kəsişməsində yerləşir. Bu amil Azərbaycanın tranzit potensialını artırmaqla yanaşı, regional iqtisadi təhlükəsizliyin təmin olunmasında da mühüm rol oynayır.

Seminarda nəqliyyat-logistika infrastrukturunun inkişafı, beynəlxalq ticarət axınlarının diversifikasiyası və geoiqtisadi risklərin idarə olunması məsələləri də müzakirə olunub. Qeyd edilib ki, nəqliyyat dəhlizlərindən səmərəli istifadə ölkənin xarici iqtisadi əlaqələrinin genişlənməsinə, ixrac imkanlarının artmasına və iqtisadi dayanıqlılığın güclənməsinə şərait yaradır.

Bundan əlavə, postmünaqişə dövründə iqtisadi inteqrasiya imkanları, nəqliyyat-kommunikasiya xətlərinin açılması və regional layihələrin həyata keçirilməsinin sülh prosesinə töhfəsi də vurğulanıb. Bildirilib ki, iqtisadi qarşılıqlı asılılığın gücləndirilməsi regionda uzunmüddətli sabitliyin təmin olunmasına xidmət edən əsas amillərdən biridir.

Sonda seminar iştirakçıları mövzu ətrafında müzakirələr aparıb, suallar cavablandırılıb.

# BDU-da "Ailə: dəyərlər və ənənələr" adlı təlim keçirilib

***Aprelin 9-da BDU-da Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin (AQUPDK) "Ailəm könüllüləri" proqramı və "BDU könüllüləri" təşkilatının birgə təşəbbüsü ilə Bakı İlahiyyat Kollecinin direktoru, ilahiyyat üzrə fəlsəfə doktoru Mehman İsmayılovun və AQUPDK-nın baş məsləhətçisi Rafiq Mahmudovun "Ailə: dəyərlər və ənənələr" mövzusunda təlimi keçirilib.***

"BDU könüllüləri" təşkilatının baş katibi Qasım Xəlilov bildirib ki, güclü ailə modeli cəmiyyətin əsasını təşkil edir və BDU-nun 2026-cı il sosial tədbirlər planına əsasən bu istiqamətdə maarifləndirici tədbirlərin keçirilməsi xüsusi əhəmiyyət daşıyır. Dövlət Komitəsinin əməkdaşı Rafiq Mahmudov ölkədə və dünyada evlənmə və boşanma hallarına dair statistik göstəriciləri təhlil edərək vurğulayıb ki, son illərdə bu sahədə müşahidə olunan dinamika ailə institutunun möhkəmləndirilməsi istiqamətində məqsədyönlü tədbirlərin həyata keçirilməsini zəruri edir. Onun sözlərinə görə, xüsusilə gənclər arasında ailə dəyərlərinin, qarşılıqlı hörmət və məsuliyyət prinsiplərinin təbliği Dövlət Komitəsinin fəaliyyətində prioritet istiqamətlərdən biridir.

Bakı İlahiyyat Kollecinin direktoru Mehman İsmayılov qeyd edib ki, sağlam və dayanıqlı ailə modelinin formalaşmasında milli-mənəvi dəyərlərə bağlılıq mühüm rol oynayır. Ailə yalnız sosial institut deyil, həm də cəmiyyətin mənəvi sütunu kimi çıxış edir və bu sütunun möhkəmliyi məhz əsrlər boyu formalaşmış ənənələrin qorunub saxlanmasından asılıdır. Ailə institutunda ənənəyə sadiqlik vacib amil olsa da, müasir dövrün tələbləri nəzərə alınaraq yeniliklərə və inkişaf meyllərinə də açıq olmaq zəruridir. Ənənə ilə innovasiyanın vəhdəti ailədaxili münasibətlərin sağlam şəkildə qurulmasına, nəsillərarası əlaqələrin möhkəmlənməsinə və gənc nəslin düzgün formalaşmasına şərait yaradır.

# BDU Türkiyədə keçirilən 62-ci "Kitabxana həftəsi"ndə təmsil olunub

***Aprelin 1-də İnformasiya və sənəd menecmenti fakültəsi və Türkiyənin Bartın Universitetinin İnformasiya və sənəd menecmenti bölümünün birgə təşkilatçılığı ilə Türkiyədə keçirilən 62-ci "Kitabxana həftəsi" tədbirləri çərçivəsində "Sərhədləri aşan bilik: Azərbaycanda informasiya və sənəd menecmenti" mövzusunda panel təşkil olunub.***

Tədbirin moderatoru – Bartın Universitetinin İnformasiya və sənəd menecmenti bölümünün dekanı, dosent Ahmet Altay vurğulayıb ki, Türkiyədə 1964-cü ildən başlayaraq hər il keçirilən "Kitabxana həftəsi"nin məqsədi cəmiyyətdə kitabxanaçılıq təhsilinə, kitabxana-informasiya fəaliyyətinə marağı artırmaq, bu istiqamətdə daha yaxşı nəticələr əldə etməkdir. Ahmet Altay qeyd edib ki, bu məqsədlə həftə boyu konfranslar, panellər, kitabxanalara, sərgi salonlarına və muzeylərə ekskursiyalar təşkil edilir, tanınmış ictimai xadimlərlə görüşlər keçirilir, mühazirələr, ustad dərsləri dinlənilir. Natiq bildirib ki, BDU-nun İnformasiya və sənəd menecmenti fakültəsi də 2021-ci ildən etibarən Türkiyədə keçirilən "Kitabxana həftəsi" tədbirlərində təşkilatçı qismində aktiv iştirak edir, bu çərçivədə qardaş ölkələrin kitabxanaçılıq və informasiya fəaliyyəti, muzey, arxiv işi ixtisasları üzrə kadr hazırlayan universitetləri və sahə qurumları ilə əlaqələr müntəzəm inkişaf etdirilir, birgə ustad dərsləri, mühazirələr, beynəlxalq elmi konfranslar təşkil olunur.

Tədbirdə BDU-nun Sənəd menecmenti kafedrasının müdiri, dosent Nadir İsmayılov və Kitabxanaşünaslıq kafedrasının dosenti Pərviz Kazimi məruzələrlə çıxış edərək ölkəmizdəki kitabxana-informasiya mühiti, BDU-nun bu sahə üzrə kadr hazırlığında aparıcı rolu, beynəlxalq əməkdaşlıq, xüsusilə qardaş Türkiyənin ali təhsil müəssisələri ilə son illər inkişaf edən qarşılıqlı əməkdaşlıq, birgə elmi konfransların, panel və müzakirələrin, ustad dərsləri və elmi seminarların təşkili barədə geniş məlumat veriblər.

Panel çərçivəsində aparılan müzakirələr iştirakçılar tərəfindən maraqla dinlənilib, məruzəçilərə çoxsaylı suallar ünvanlanıb.

# BDU-da "Məzunun izində" layihəsi çərçivəsində növbəti görüş

***Aprelin 2-də BDU-da "BDU könüllüləri" təşkilatının təşəbbüsü ilə həyata keçirilən "Məzunun izində" layihəsi çərçivəsində növbəti görüş keçirilib. Tədbirin qonağı İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Təmiz Enerji Mərkəzinin (CECECO) icraçı direktoru, BDU-nun məzunu Aysel Yaqubova olub.***

Tədbirin açılışında çıxış edən BDU-nun beynəlxalq əlaqələr üzrə prorektoru Şahin Pənahov qeyd edib ki, Universitetin formalaşdırdığı insan kapitalı bu gün ölkədə və beynəlxalq müstəvidə müxtəlif sahələrdə uğurla təmsil olunur. Prorektor bu kimi görüşlərin universitet-məzun əlaqələrinin gücləndirilməsi baxımından mühüm əhəmiyyət daşıdığını vurğulayıb.

Daha sonra çıxış edən BDU-nun əməkdaşı, "BDU könüllüləri" təşkilatının baş katibi Qasım Xəlilov "Məzunun izində" layihəsinin yaranma tarixi və məqsədləri barədə məlumat verib. O, Universitetin dayanıqlı inkişaf məqsədləri çərçivəsində əldə etdiyi nailiyyət və bu istiqamətdə həyata keçirilən fəaliyyətlərdən bəhs edib.

BDU-nun bakalavr və magistr məzunu Aysel Yaqubova çıxışında Universitetdə keçdiyi təhsil yolundan, BDU-nun onun peşəkar kadr kimi formalaşmasında oynadığı roldan və uzun illər diplomatik xidmətdə qazandığı təcrübədən danışıb. O, son dövrlərdə alternativ enerji mənbələrindən istifadənin aktuallaşdığını qeyd edib, iqlim dəyişiklikləri və dayanıqlı inkişaf məsələlərinin vacibliyini diqqətə çatdırıb.

# BDU tələbələri Siyasi repressiya qurbanları muzeyində

*Aprelin 6-da BDU-da fəaliyyət göstərən "YENİ Klub"un və "İƏT Modeli" klubunun birgə təşkilatçılığı ilə Dövlət Sərhəd Xidmətinin (DSX) inzibati binasında yerləşən Siyasi repressiya qurbanları muzeyinə ekskursiya təşkil edilib.*




Ekskursiya zamanı tələbələrə muzey barədə məlumat verilib. Bildirilib ki, muzey 2019-cu ildə Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyinə həsr olunmuş tədbirlər çərçivəsində yaradılıb. Muzeyin ekspozisiyası Azərbaycan tarixinin ən acı səhifələrini əyani sürətdə əks etdirir. 1920-1950-ci illərdə sovet dövlətinin apardığı siyasət nəticəsində on minlərlə ictimai və dövlət xadimi, elm, mədəniyyət, incəsənət nümayəndəsi, sıravi vətəndaş repressiyaya məruz qalıb. 1950-ci illərin ikinci yarısında siyasi repressiya qurbanlarına bəraət verilməsinə baxmayaraq, bolşevizmin hökmranlıq etdiyi illərdə siyasi repressiyalar haqqında məlumatların yayılmasına qadağa qoyulub. Yalnız müstəqillik illərində - 1996-cı il martın 15-də Ulu Öndər Heydər Əliyevin imzaladığı "Siyasi repressiya qurbanlarına bəraət verilməsi haqqında" Qanunla bu hadisələrə ilk dəfə hüquqi qiymət verilib.

DSX-nin inzibati binasında muzeyin yaradılması 1925-ci ildən sonra bu binada dövlətin əsas repressiv orqanlarının fəaliyyət göstərməsi ilə əlaqədardır. Binanın zirzəmisində həbs edilənlərin saxlanılma kameraları, istintaq otaqları, ölüm hökmü çıxarılanların güllənməsi yerləri mövcud olub. Muzeyin yaradılmasında əsas məqsədlərdən biri də repressiya qurbanlarının xatirəsinə ehtiram və yaxın keçmişimizin qanlı səhifələri haqqında gənc nəslin nümayəndələrinin düzgün məlumatlandırılmasıdır.

Sonra tələbələr muzeyin eksponatları ilə yaxından tanış olublar.

# BDU-nun Tələbə Gənclər Təşkilatı "5 Days Urban Weeks" layihəsinə başlayıb

*Aprelin 8-də Ekologiya və torpaqşünaslıq fakültəsi və Tələbə Gənclər Təşkilatının (TGT) birgə təşəbbüsü ilə "5 Days Urban Weeks" layihəsinin açılış mərasimi keçirilib.*

Universitetin humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov bildirib ki, BDU TGT tərəfindən həyata keçirilən "5 Days Urban Weeks" layihəsi tələbələrin şəhər mühitinə, urban inkişaf proseslərinə və müasir yanaşmalara marağının artırılması baxımından mühüm əhəmiyyət daşıyır. "Şəhərsalma və Memarlıq İli" çərçivəsində BDU-da müxtəlif maarifləndirici tədbirlər, seminarlar və müzakirələr təşkil olunur. Bu layihə həmin fəaliyyətlərin uğurlu davamı kimi çıxış edir. Tələbələrin həm nəzəri biliklərinin, həm də praktik bacarıqlarının inkişafına xidmət edən bu cür təşəbbüslər BDU tərəfindən daim dəstəklənir.

Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının (ATGTİ) proqram meneceri Bəxtiyar Quluzadə bu layihənin təsadüfi təşəbbüs deyil, ölkədə son dövrlər dayanıqlı və təhlükəsiz şəhərsalma, urban inkişaf kimi mühüm istiqamətlərə artan diqqətin bir hissəsi olduğunu qeyd edib. Xüsusilə Bakının bu il keçiriləcək WUF-13 kimi nüfuzlu beynəlxalq şəhərsalma forumuna ev sahibliyi etməsi bu sahəyə marağı daha da artırıb. O, Forumun dünyanın müxtəlif ölkələrindən minlərlə iştirakçını bir araya gətirərək şəhərlərin gələcəyi, dayanıqlı inkişaf və yaşayış mühiti ilə bağlı qlobal müzakirələr üçün platforma yaradacağını vurğulayıb.

BDU TGT-nin sədri Harun Mehdiyev "5 Days Urban Weeks" layihəsinin əsas məqsədinin tələbələrdə şəhərsalma və urban mühitə dair maarifləndirməni artırmaq, onların bu sahədə bilik və bacarıqlarını inkişaf etdirməyə xidmət etdiyini deyib. Qeyd edib ki, layihə çərçivəsində keçiriləcək tədbirlər iştirakçılara müasir şəhər yanaşmaları, dayanıqlı inkişaf prinsipləri və innovativ urban həllər barədə geniş məlumat əldə etmək imkanı yaradacaq. Bu təşəbbüs BDU-da "Şəhərsalma və Memarlıq İli" ilə bağlı tədbirlər planına uyğun olaraq həyata keçirilir və tələbələrin bu istiqamətdə fəal iştirakını təmin etməyə hədəflənib. Layihə həm nəzəri biliklərin artırılmasına, həm də praktik müzakirələrin təşviqinə şərait yaradaraq gənclərin gələcək peşəkar inkişafına mühüm töhfə verəcək.

BDU-nun Torpaqşünaslıq və daşınmaz əmlakın kadastrı və Bioekologiya kafedralarının baş müəllimləri Qismət Xanbabayev və Günel Sarıyeva urbanizasiyanın müasir dövrdə şəhərlərin inkişaf dinamikasını müəyyən edən əsas proseslərdən biri kimi qiymətləndirildiyini və bu prosesin yalnız əhalinin şəhərlərdə cəmləşməsi ilə məhdudlaşmadığını, sosial münasibətlərin, iqtisadi fəaliyyətin və mədəni mühitin transformasiyasını da əhatə etdiyini vurğulayıblar. Onlar düzgün şəhərsalma yanaşmalarının dayanıqlı inkişafın təmin olunmasında, ekoloji tarazlığın qorunmasında və urban məkanların funksionallığının artırılmasında mühüm rol oynadığını bildirərək, layihənin əhəmiyyətli olduğuna toxunublar.

Sonra urbanizasiya ilə bağlı videoçarx nümayiş etdirilib.

# BDU-da QS tərəfindən təşkil olunan "Reimagine Education" müsabiqəsi ilə bağlı təlim

*Aprelin 10-da Bakı Dövlət Universitetinin Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzi və "BDU könüllüləri" təşkilatının təşəbbüsü ilə BDU rektorunun keyfiyyət təminatı üzrə müşaviri Asiman İlyasovun nüfuzlu "Quacquarelli Symonds" (QS) təşkilatı tərəfindən təşkil olunan "Reimagine Education" müsabiqəsinə dair təlimi keçirilib.*

Təlim zamanı təhsildə innovasiya və texnologiyanın tətbiqini təşviq edən beynəlxalq mükafat və konfrans proqramı olan "Reimagine" proqramı haqqında məlumat verilib. Təşəbbüsün mahiyyəti, əhatə etdiyi istiqamətlər və təqdim olunan imkanlar iştirakçıların diqqətinə çatdırılıb. Ötən il həyata keçirilən analoji layihə barədə danışan Asiman İlyasov əldə edilmiş nəticələr və iştirakçıların qazandığı təcrübələrdən söz açıb. Bunlarla yanaşı, layihələrin qiymətləndirilməsi zamanı münsiflərin tələbləri və diqqət olunan məqamlar qeyd olunub.

Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb.

# BDU tələbələri ADA Universitetində praktik dərsdə

*Aprelin 8-də İnformasiya və sənəd menecmenti fakültəsinin "Kitabxanaçılıq və informasiya fəaliyyəti" ixtisası üzrə II kurs tələbələri ADA Universitetinin Kitabxana-İnformasiya Mərkəzində praktik dərsdə iştirak ediblər. Praktik dərs Kitabxana-informasiya resurslarının idarə edilməsi kafedrasının dosenti Rəşad Qardaşovun rəhbərliyi ilə "Elektron kataloq" fənni çərçivəsində keçirilib. Məşğələnin məqsədi tələbələrin nəzəri biliklərini praktik fəaliyyətlə əlaqələndirmək və onları müasir kitabxana-informasiya xidmətləri ilə yaxından tanış etmək olub.*

Əvvəlcə kitabxananın direktoru, texnika üzrə fəlsəfə doktoru Elçin Məmmədov tələbələrə rəhbərlik etdiyi qurumun fəaliyyəti, əsas iş prinsipləri, sənəd dövriyyəsi, fondu barədə ətraflı məlumat verib. Direktor kitabxanada elektron xidmətlərin inkişafı, elektron kitabxananın formalaşdırılması, nəşrlərin rəqəmsallaşdırılması haqqında danışıb. Bildirib ki, rəhbərlik etdiyi kitabxana bu istiqamətlərdə mühüm nəticələr əldə edib və bu proses davamlı olaraq təkmilləşdirilir.

Praktik dərs çərçivəsində tələbələr ADA Universitetinin Kitabxana-İnformasiya Mərkəzinin şöbələri ilə tanış olublar. Mərkəzin əməkdaşları Vəfa Məmmədova və Müşfiq İmamverdiyev yeni iş metodları, kitabxana fondunun təşkili və elektron resurslardan istifadə imkanları barədə bəhs ediblər. Tələbələr elektron kataloq sisteminin işləmə prinsipi və informasiya axtarışının təşkili haqqında məlumatlandırılıblar. Daha sonra onlar kitabxananın müxtəlif bölmələrində elektron kataloq vasitəsilə informasiya axtarışı və kitabxana resurslarından istifadə prosesində iştirak ediblər.



# Bakı məktəbliləri üçün BDU-da infosessiya

*Aprelin 10-da Bakı şəhəri 199 nömrəli tam orta məktəbin şagirdləri üçün Bakı Dövlət Universitetində infosessiya keçirilib.*

Şagirdlər BDU-nun Heydər Əliyev, Təkamül, Faydalı qazıntılar muzeyləri, həmçinin Universitetin unikal layihəsi olan "Eko Məkan" ilə yaxından tanış olublar.

İnfosessiya zamanı şagirdlərə son illər BDU-da aparılan yenidənqurma işləri, tədris prosesində tətbiq olunan yeniliklər, Universitetin nüfuzlu beynəlxalq reytinqlərdə əldə etdiyi yüksək nəticələr, tələbələrin yerli və beynəlxalq uğurları barəsində məlumat verilib. Şagirdlər BDU ilə xarici ali təhsil müəssisələri arasında imzalanan əməkdaşlıq memorandumları və ikili diplom proqramlarının yaratdığı geniş imkanlar haqqında da məlumatlandırılıblar.

# Geologiya fakültəsinin tələbələri üçün ekskursiya

***Aprelin 1-də Geologiya fakültəsinin Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) təşkilatçılığı ilə qiyabi təhsil alan III kurs tələbələri üçün ekskursiya təşkil olunub.***

Ekskursiya çərçivəsində tələbələr Universitetin Heydər Əliyev muzeyi və Təkamül muzeyini ziyarət ediblər.

Heydər Əliyev muzeyində iştirakçılara Ümummilli Lider Heydər Əliyevin zəngin həyat yolu, siyasi fəaliyyəti və dövlətçilik irsi barədə geniş məlumat təqdim olunub. Muzeyin direktoru Afət Seyidzadə Ulu Öndərin Azərbaycanın müstəqilliyinin qorunması, dövlət institutlarının formalaşdırılması və ölkənin sosial-iqtisadi inkişafına verdiyi töhfələri xüsusi vurğulayıb. Ulu Öndərin



zəngin və şərəfli irsinin gənclərin milli ruhda formalaşmasında mühüm rol oynadığını qeyd edib.

Təkamül muzeyinin əməkdaşı Ümidvar Məlikov isə tələbələrə Yer tarixinin müxtəlif geoloji dövrləri, canlı aləmin yaranması və təkamül mərhələləri haqqında məlumat verib.

# BDU-da IV “Maarifçi” tələbə-məzun proqramı çərçivəsində infosessiya keçirilib

***Aprelin 1-də BDU-da Elm və Təhsil Nazirliyinin təşəbbüsü və Təhsilin İnkişafı Fondunun dəstəyi ilə tələbə və məzunların peşəkar inkişafına yönəlmiş IV “Maarifçi” tələbə-məzun proqramı çərçivəsində infosessiya keçirilib. İnfosessiyanın əsas məqsədi gəncləri proqramın təqdim etdiyi imkanlarla yaxından tanış etmək, onların real iş mühitində təcrübə qazanmalarına dəstək vermək və karyera inkişaf perspektivlərini genişləndirmək olub.***

2024–2025-ci illər ərzində proqram artıq üç dəfə uğurla həyata keçirilib. 102 məzun proqramı uğurla tamamlayıb, onlardan 50 nəfəri Elm və Təhsil Nazirliyinin aparatı və tabe qurumlarında işlə təmin olunub. Bu göstərici proqramın iştirakçılar üçün real və davamlı karyera imkanları yaratdığını bir daha təsdiqləyir.

BDU-nun Karyera və məzunlarla iş Mərkəzinin Karyera planlaşdırılması şöbəsinin baş mütəxəssisi İlkin Şərifov Mərkəzin fəaliyyət istiqamətləri, tələbə və məzunlara yönəlmiş karyera xidmətləri və işəgötürənlərlə əməkdaşlıq əlaqələri haqqında çıxış edib.

Elm və Təhsil Nazirliyinin Satınalmalar sektorunun mütəxəssisi Səbinə Hüseynzadə və Hüquq şöbəsinin mütəxəssisi Fuad Cəlilli çıxışlarında bildiriblər ki, “Maarifçi” proqramı ali təhsil müəssisələrinin tələbə və məzunlarının bilik və bacarıqlarının artırılması, onların əmək bazarına inteqrasiyasının sürətləndirilməsi və praktiki təcrübə əldə etmələri üçün əlverişli şəraitin yaradılmasına xidmət edir. Proqramın tərkib hissəsinə qiymətləndirmə prosesi, fərdi inkişaf planı və müxtəlif təlim modulları daxildir. Proqramda bakalavriat səviyyəsinin sonuncu kurs tələbələri, magistratura tələbələri, eləcə də son 3 il ərzində məzun olmuş şəxslər iştirak edə bilərlər. Proqram iştirakçıları müxtəlif seçim mərhələlərindən (ilkin seçim, test mərhələsi və müsahibə) keçərək uyğun istiqamətlər üzrə təcrübəyə cəlb olunurlar. Təcrübə imkanları nazirliyin struktur bölmələrində, tabeli qurumlarda, regional təhsil idarələrində və Naxçıvan Muxtar Respublikasının aidiyyəti qurumlarında həyata keçirilir.

Tədbir zamanı Elm və Təhsil Nazirliyinin nümayəndələri proqramın əhatə etdiyi əsas istiqamətlər barədə də ətraflı məlumat veriblər. Vurğulanıb ki, bu istiqamətlərə təhsilin təşkili və idarə olunması, inzibati idarəetmə, iqtisadiyyat və maliyyə, beynəlxalq münasibətlər, data analitika, layihələrin idarə olunması, rəqəmsal idarəetmə və İT layihələri, tikinti və memarlıq, eləcə də hüquq sahələri daxildir.

Bununla yanaşı, BDU-nun C korpusunda da infosessiya təşkil olunub. Elm və Təhsil Nazirliyinin Satınalmalar və qrantlar sektorunun mütəxəssisi Kəmalə Məmmədova və Əlavə təhsil xidmətlərinin keyfiyyətinə nəzarət şöbəsinin mütəxəssisi Nəzrin Manafova proqramın üstünlükləri və iştirak imkanları barədə ətraflı məlumat veriblər.

Sonda iştirakçıların sualları cavablandırılıb.

# BDU-nun nəzdində “Gənc istedadlar” liseyində Ekoloji Bilik Gününə həsr olunmuş maarifləndirici seminar

***BDU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) Ekologiya və torpaqşünaslıq fakültəsi üzrə üzvlərinin təşəbbüsü ilə BDU-nun nəzdində “Gənc istedadlar” liseyində 15 aprel – Ekoloji Bilik Gününə həsr olunmuş maarifləndirici seminar təşkil edilib.***

Seminarda Ekologiya və torpaqşünaslıq fakültəsinin Bioekologiya kafedrasının II kurs doktorantı Ramil Həsənov “Azərbaycanın bioloji müxtəlifliyinin qorunmasında Xüsusi Mühafizə Olunan Təbiət Ərazilərinin (XMOTƏ) rolu” mövzusunda çıxış edib. O, ölkəmizdə XMOTƏ-lərin yaradılma tarixi, onların kateqoriyaları və bu sahədə həyata keçirilən yeniliklər barədə lisey şagirdlərinə ətraflı məlumat verib. Şagirdlər Azərbaycanın bioloji müxtəlifliyi, canlılara təsir göstərən əsas amillər, nadir növlərin qorunması istiqamətində görülən tədbirlər və invaziv növlərin ətraf mühit üçün yaratdığı təhlükələr haqqında da məlumatlandırılıb.

Ekologiya və torpaqşünaslıq fakültəsinin II kurs tələbəsi Toğrul Mehdiyev “Şəhərsalma və ətraf mühit” mövzusunda çıxış edib. O, şəhərsalmanın mahiyyəti, şəhərlərin planlı inkişafında ekoloji amillərin nəzərə alınmasının vacibliyi barədə danışıb, bu prosesin sosial, iqtisadi və ekoloji təsirlərini diqqətə çatdırıb. Həmçinin şəhərsalmanın insan sağlamlığına təsiri xüsusi vurğulanıb.

Seminarda fakültənin II kurs tələbəsi Fərid Ələsgərli isə “Azərbaycanın biomüxtəlifliyinin qorunması və müasir texnologiyaların ətraf mühitə təsiri” mövzusunda məruzə ilə çıxış edib. O, biomüxtəlifliyin qorunmasının əhəmiyyətindən, ekosistemlərin mühafizəsi istiqamətində görülən işlərdən və süni intellektin bu sahədə rolundan bəhs edib. Bildirilib ki, süni intellektin təbiətin monitorinqində geniş imkanları olsa da, onun enerji istehlakı, elektron tullantılar və resursların tükənməsi kimi mənfi təsirləri də mövcuddur.

Sonda şagirdlərin mövzularla bağlı fikirləri dinlənilib və onları maraqlandıran suallar cavablandırılıb.

# BDU-nun komandası Özbəkistanda keçirilən beynəlxalq kibertəhlükəsizlik yarışında uğurla iştirak edib

***BDU-nun “Segfault” komandası 27-29 mart tarixlərində Özbəkistanın Daşkənd şəhərində yerləşən Mərkəzi Asiya Universiteti tərəfindən təşkil olunan beynəlxalq “Cybersecurity Capture the Flag (CTF) 2026” olimpiadasında uğurla iştirak edib.***

Ali təhsilin bakalavriat səviyyəsinin tələbələri arasında keçirilən Olimpiadada BDU komandası kibertəhlükəsizlik, şəbəkə təhlükəsizliyi, rəqəmsal kriminalistika, kriptoqrafiya və sistem müdafiəsi istiqamətində bacarıqlarını inkişaf etdirərək hakatonu yüksək dərəcə ilə başa vurublar.

Komandanın məşqçisi İsmayıl Zeynalov, üzvləri isə BDU tələbələri Sübhan Sultanov (II kurs), Kənan Rəsulov, Cəmil Cəfərli (III kurs) və Əli Quliyev (IV kurs) olub.

Tələbələrimizi təbrik edir, uğurlar arzulayırıq!

# BDU tələbələri Səməd Vurğunun ev muzeyində

***Aprelin 9-da Filologiya fakültəsi Tələbə Gənclər Təşkilatı (TGT) və Tələbə Elmi Cəmiyyətinin (TEC) birgə təşkilatçılığı ilə xalq şairi Səməd Vurğunun 120 illiyinə həsr olunmuş tədbirlər çərçivəsində şairin ev muzeyinə ekskursiya təşkil olunub.***

Ekskursiya çərçivəsində bələdçinin təqdimatı əsasında tələbələrə şairin zəngin yaradıcılığı haqqında geniş məlumat verilib. Səməd Vurğun poeziyasında vətənpərvərlik, humanizm, ana dilinə bağlılıq və milli-mənəvi dəyərlərin bədii ifadəsi diqqətə çatdırılıb. Tələbələr şairin əsərlərində xalq ruhunun, milli kimliyin və dövrün ictimai-siyasi hadisələrinin necə əks olunduğunu yaxından öyrənmək imkanı əldə ediblər. İştirakçılar muzeydə qorunub saxlanılan şəxsi əşyalar, nadir əlyazmalar, müxtəlif dövrlərə aid nəşrlər və fotoşəkillərlə tanış olub, bu eksponatlar vasitəsilə görkəmli şairin həyat və yaradıcılığı haqqında daha dolğun məlumat əldə ediblər.

# BDU-da “WUF13 Gənclik Simulyasiyası”

*Tədbirin əsas məqsədi gənclərin şəhərsalma və ekoloji problemlərin həlli istiqamətində yanaşmalarını nümayiş etdirmək olub*

***Aprelin 14-də Kimya fakültəsinin Tələbə Gənclər Təşkilatı (TGT) və Tələbə Elmi Cəmiyyətinin (TEC) birgə təşkilatçılığı ilə BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına (WUF13) və “Şəhərsalma və Memarlıq İli”nə həsr olunmuş “WUF13 Gənclik Simulyasiyası” adlı tədbir keçirilib.***

Tədbirin əsas məqsədi gənclərin şəhərsalma və ekoloji problemlərin həlli istiqamətində yanaşmalarını nümayiş etdirmək olub.

Simulyasiyada dünyanın müxtəlif ölkələrini (Azərbaycan, ABŞ, Türkiyə, Danimarka, Fransa, Norveç, İtaliya, Almaniya, Çin, Portuqaliya, Birləşmiş Krallıq, Braziliya, Birləşmiş Ərəb Əmirlikləri, Yaponiya, Niderland, Hindistan, Kanada, İsveçrə və İndoneziya) təmsil edən tələbələr iştirak ediblər. Hər bir iştirakçı təmsil etdiyi ölkənin ekoloji problemlərini təhlil edərək, bu problemlərin həlli üçün hazırladıqları şəhərsalma modellərini və layihələri təqdim edib.

Simulyasiya zamanı iştirakçılar qlobal ətraf mühit və şəhərsalma problemləri ətrafında geniş fikir mübadiləsi aparıblar. Davamlı şəhər inkişafı, təbii resursların qorunması, təmiz enerji istifadəsi və ekoloji cəhətdən dayanıqlı şəhər infrastrukturlarının qurulması kimi mövzularda müxtəlif yanaşmalar səsləndirilib.

# Tanınmış bəstəkar, BDU-nun kafedra müdiri İqbal Ağayevin “Ömrün səhifələri” adlı ədəbi-bədii gecəsi keçirilib

*Aprelin 29-da Tanınmış bəstəkar, BDU-nun Asiya və Afrika ölkələrinin tarixi kafedrasının müdiri İqbal Ağayevin “Ömrün səhifələri” adlı ədəbi-bədii gecəsi keçirilib.*



Gecədə Universitetin əməkdaş və tələbələri ilə yanaşı, Albaniyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Besart Kadia, İqbal Ağayevin sənət dostları, bəstələdiyi mahnıların sözlərinin müəllifləri - Azərbaycan Dövlət Pedaqoji Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru, tanınmış dilçi alim, şairə Mahirə Nağıqızı, Kəmalə Abiyeva, Yaqut Sadıqova, Bəxtiyar Paşayev və başqaları iştirak ediblər.

Gecədə İqbal Ağayevin musiqiləri Azərbaycanın sevilən sənətkarlarının ifasında səslənib.

Ədəbi-bədii gecədə əvvəlcə Bakı Dövlət Universitetinin Mədəniyyət-Yaradıcılıq Mərkəzinin solisti Pərviz Ağayev musiqisi İqbal Ağayevə məxsus "Bakı Dövlət Universiteti" himnini səsləndirib.

Sonra bəstəkarın həyat və fəaliyyəti barədə videoçarx nümayiş olunub.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru, tanınmış dilçi alim, şairə Mahirə Nağıqızı musiqinin daim ruhun qidası olduğunu bildirib. O, İqbal Ağayevin müəllifi olduğu əsərlərin də ən çətin və xoş anlarda insana güc verdiyini bildirib, onun tanınmış tarixçi, bəstəkar olmaqla yanaşı, dəyərli bir insan olduğunu qeyd edib.

BDU-nun rektoru Elçin Babayev isə İqbal Ağayevi “tarixçilər içində ən yaxşı bəstəkar, bəstəkarlar içində ən yaxşı tarixçi” kimi xarakterizə edib, bəstəkara və gecədə iştirak edən qonaqlara təşəkkür edib.

Daha sonra Xalq artistləri İlqar Muradov, Gülyanaq Məmmədova, Gülyaz Məmmədova, Samir Cəfərov, Əməkdar artist Arzu Əliyeva, beynəlxalq müsabiqələr laureatı Aynur İsgəndərli, gənc ifaçı Sübhan Məmmədzadə bəstəkarın “Bu gecə”, “Qocaldım, ana”, “Vətəndir”, “Vaxt var”, “Nə yaxşı ki”, “Ulu türk”, “Sevginin dili”, “Ana məhəbbəti”, “Səni axtarıram”, “Nə oldu sənə”, “Ad günü”, “Yaxşı ki varsan, universitetim” kimi sevilən mahnılarını ifa ediblər.

Cahangir Cahangirov adına 35 nəfərlik heyətdən ibarət xor qrupu Əməkdar müəllim Təranə Yusifovanın bədii rəhbərliyi ilə “Vətəni anlat” balladasını ilk dəfə bu ədəbi-bədii gecədə təqdim edib.

# BDU tələbələri üçün Bakı Zooloji Parkında innovativ dərslər təşkil olunub

*Aprelin 7-də Ekologiya və torpaqşünaslıq fakültəsinin Bioekologiya kafedrasının müəllimi, Bakı Zooloji Parkının direktoru Nəzakət İsayeva dərslərini innovativ metodlarla təşkil edib. O, “Ekologiya” ixtisası üzrə II kurs tələbələrinə tədris etdiyi “Heyvan ekologiyası” fənninin mühazirə və laboratoriya dərslərini Bakı Zooloji Parkı ərazisində keçib.*



Parkın lektoriyasında keçirilən mühazirələrlə yanaşı, tələbələr laborator məşğələlər zamanı sürünənlər və həşəratlar sinfinə aid müxtəlif heyvan növlərini əyani şəkildə müşahidə ediblər. Onlar həm Azərbaycanın, həm də digər ölkələrin fauna nümunələri ilə yaxından tanış olub, Parkın klinikasında baytar həkiminin müşayiəti ilə heyvanlara ilkin tibbi yardımın göstərilməsi qaydalarını öyrəniblər.

Tədris prosesi çərçivəsində tələbələr zoopark ərazisində bələdçi ilə ekskursiyada iştirak edərək müxtəlif və unikal fauna nümunələri ilə tanış olublar. Eyni zamanda, onlar Azərbaycanın “Qırmızı kitab”ına daxil edilmiş, nəsli kəsilməkdə olan növlərin mühafizəsi və reintroduksiya proqramları barədə ətraflı məlumat əldə ediblər.

# BDU könüllüləri ağacəkmə aksiyasında iştirak ediblər

*Aprelin 27-də BDU-nun könüllüləri Ümumdünya Ətraf Mühit Gününə həsr olunmuş genişmiqyaslı ağacəkmə aksiyasında iştirak ediblər.*

5 iyun – Ümumdünya Ətraf Mühit Günü münasibətilə Bakıda keçirilən tədbirlərə töhfə vermək məqsədilə Müşfiqabad qəsəbəsi ərazisində ağacəkmə aksiyası təşkil olunub.

Aksiya Ekologiya və Təbii Sərvətlər Nazirliyi, IDEA İctimai Birliyi, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi əməkdaşlarının, həmçinin Azərbaycan Könüllü Təşkilatları İttifaqına üzv könüllülərin, məktəblilərin və ekokönüllülərin iştirakı ilə baş tutub.

Tədbirdə ümumilikdə 200-dən artıq iştirakçı yer alıb. Aksiya çərçivəsində Abşeron yarımadasının torpaq-iqlim şəraitinə uyğun Eldar şamı və zeytun ağacları əkilib. Qeyd edək ki, aksiyanın əsas məqsədi yaşıllıq sahələrinin genişləndirilməsini təşviq etmək, ətraf mühitin mühafizəsinə ictimai diqqəti artırmaq, iqlim dəyişikliyi ilə mübarizəyə töhfə vermək və cəmiyyətdə ekoloji məsuliyyətin gücləndirilməsinə dəstək göstərməkdir.



# Prezident təqaüdçüsü olan bacılar Oksford və Kembric universitetlərinin magistraturasına qəbul olublar

*Hüquq fakültəsinin IV kurs tələbələri, Prezident təqaüdçüsü olan Həmidə və Nəzrin Sadıqova bacıları “Times Higher Education” (THE) dünya universitetləri reytinqində ilk üçlükdə yer alan Böyük Britaniyanın Oksford və Kembric universitetlərinin magistratura proqramına qəbul alıblar.*

2022/2023-cü tədris ilində BDU-nun Hüquq fakültəsinə 660.9 bal ilə qəbul olunan Nəzrin Sadıqova Oksford, 660.2 bal ilə qəbul olunan Həmidə Sadıqova isə Kembric Universitetində təhsilini davam etdirmək əzmindədir. Hər iki tələbə Prezident İlham Əliyevin Sərəncamı ilə Prezident təqaüdünə layiq görülüb və bu günədək həmin statusu qoruyub.

Tələbələrimizi təbrik edir, gələcək təhsil həyatlarında uğurlar arzulayırıq!

# BDU TGT-nin konsert proqramı

*Aprelin 28-də BDU Tələbə Gənclər Təşkilatının (TGT) təşkilatçılığı və “CreArt” klubunun dəstəyi ilə “CreArt Days” layihəsi çərçivəsində “One day, one stage” adlı konsert proqramı təşkil edilib.*

Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının (ATGTİ) proqram meneceri Bəxtiyar Quluzadə və BDU TGT-nin sədri Harun Mehdiyev belə layihələrin tələbələrin şəbəkələşməsində və yaradıcılıq potensialının inkişafında mühüm rol oynadığını bildiriblər.

Daha sonra tələbələrin ifasında “Nağara ritmləri” kompozisiyası, “Azərbaycan suitası”, “Gürcü”, “İgidlər”, “Qaval”, “Ağçiçəyim”, “Çərkəz”, “Uzundərə” rəqsləri təqdim olunub.

**Buraxılışa məsul:** Afaq Sadıqova

**Redaksiya heyəti:** Əliş Ağamirzəyev, Vüqar Əliyev, Cahangir Məmmədli, Qulu Məhərrəmli, Xatirə Hüseynova, Samir Mirzəyev, Günel Orucəliyeva

**Dizayn - tərtibat:** Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin Nəşr Evində çap olunmuşdur.

**Çapa imzalanıb:** 30.04.2026

**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.

**Əlaqə nömrəsi:** (+994 12) 538 42 08